Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

# UŞAQ HÜQUQLARININ PİLLƏLİ TƏDRİSİ ÜZRƏ SEÇİLMİŞ MÖVZULAR

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 noyabr 2012-ci il tarixli 2061 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.**

**Yenidən işlənmiş ikinci nəşr**

**BAKI – 2013**

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**
**professor ELMİRA SÜLEYMANOVANIN**
**ümumi redaktəsi ilə**

**p.ü.f.d. dos, Rəna İbrahimbəyova** Bakı Dövlət Universitetinin Gender və tətbiqi psixologiya kafedrasının müdiri

**Munir Məmmədzadə** BMT-nin Uşaq Fondunun Azərbaycandakı nümayəndəliyinin Uşaq müdafiəsi üzrə müşaviri

**Tərtib edən: Rumzadə Rəşid Faiq oğlu**
**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının Hüquqi maarifləndirmə sektorunun müdiri**

**Uşaq hüquqlarının Pilləli tədrisi üzrə seçilmiş mövzular**
Bakı, Qismət, 2013, 224 səh (şəkilli)

*Bu vəsait Azərbaycan Respublikasının Konstitusiyası, digər milli qanunvericilik aktları, həmçinin BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası, eləcə də müxtəlif beynəlxalq sənədlər, yerli və xarici materiallardan istifadə edilməklə ölkə təcrübəsinə uyğunlaşdırılmışdır.*

*Hazırlanmış vəsait istifadəçilər tərəfindən insan hüquqları bazasında uşaq hüquqlarının öyrənilməsi və tədrisinin həyata keçirilməsini nəzərdə tutur.*

*Vəsait geniş oxucu auditoriyası, ilk növbədə isə uşaqlar, gənclər, QHT nümayəndələri, uşaq hüquqlarının tədrisi ilə məşğul olan şəxslər, orta ümumtəhsil və ali məktəb müəllimləri, digər təhsil işçiləri, hüquqşünaslar, trenerlər və bu sahədə ixtisaslaşan hüquq müdafiəçilərinin istifadəsi üçün nəzərdə tutulmuşdur.*

K $\frac{1202040000}{\text{M-085-95-13}}$ ISBN 978-9952-8003-4-0

© AR-nın İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı, 2013
© Qismət, 2013

**Edited by the Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan**

**professor ELMİRA SULEYMANOVA**

**Reviewer:**
**Ph.D Rana Ibrahimbayova**
Head of the Gender and Applied Psychological Department of the Baku State University

**Munir Mammadzade** Child Protection Manager of UNİCEF Office to Azerbaijan

**Compiled by: Rashid Rumzada**

**Chief of the Legal education division of the Office of Commissioner (Ombudsman) for Human Rights of the Republic of Azerbaijan**

The manual (textbook) was brought in conformity with the country practice by using the Constitution of the Republic of Azerbaijan, other national legislative acts, as well as the UN Convention on the Rights of the Child, other international documents, national and international materials.

The manual is intended for learning and education of child rights by the users on the ground of human rights.

The manual is intended for wide reader auditorium, first of all children, young persons, the representatives of NGOs, persons dealing with child rights education, teachers of secondary and high schools, other educational staff, lawyers, trainers and human rights defenders specialized in this field.

# KİTABDA İSTİFADƏ OLUNMUŞ QISALTMALAR

**AR** - Azərbaycan Respublikası

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**ENOC** – Avropa Uşaq Ombudsmanları Şəbəkəsi

**QHT**- Qeyri Hökumət Təşkilatı

**UNESCO** – Təhsil, elm və mədəniyyət məsələləri üzrə Birləşmiş Millətlər Təşkilatı

**UNİCEF** – Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu

**UDH** - Uşaqlar üçün Dünya Hərəkatı

**UQDŞ** - Uşaqlar üçün Qlobal Dini Şəbəkə

**UHK** – BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası

**UHQ**–Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu

**Ratifikasiya** – Təsdiq etmə

# ÖN SÖZ

## ƏZİZ DOST!

Hüquqları öyrənmək insana hava, su, qida kimi olduqca vacibdir.

Bir insan hüquqlarını öyrənərsə, özünü hüquqi cəhətdən bilikli hesab edərsə, bütün imkanlardan da daha asan və səmərəli istifadə edə bilər. İstər ailədə, istər məktəbdə, ümumiyyətlə isə həyatımızın bütün sahələrində hüquqlar bizi müşayiət edir. Ona görə də biz onları lazımınca bilməliyik. Unutmamalıyıq ki, yaşımızın üstünə yaş gəldikcə, yəni biz bir yaş böyüdükcə hüquqlarımızın da sayı artır. Biz hər yaş dövrümüzdə istifadə etməli olduğumuz hüquqlarımızı, eləcə də vəzifələrimizi bilsək heç zaman kimsə bizə irad tuta bilməz.

Bir vətəndaşın öz hüquqlarını qoruması o cümlədən, digər şəxslərin hüquqlarına hörmətlə yanaşması bir çox amillərlə yanaşı həmin şəxsin "İnsan Hüquqlarını" nə dərəcədə bilməsindən asılıdır. Əgər şəxs "İnsan Hüquqlarını" yəni öz hüquqlarını və onun mahiyyətini bilərsə, dərk edərsə öz hüquqlarını qorumağı daha asan olar və digər insanların hüquqlarına da hörmətlə yanaşar. "İnsan Hüquqlarını"- öz hüquqlarını bilməyən vətəndaş isə bilmədiyi bir şeyi-hüquqları qorumaqda və digərlərinin hüquqlarına hörmət etməkdə çətinlik çəkər.

*Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi: Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.*

Bu gün hüquqlarımızın təmin olunması üçün geniş imkanlar var. Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM

ƏLİYEVİN 22 dekabr 2008-ci il tarixli 103 nömrəli Sərəncamı ilə 2009-cu ilin «Uşaq ili» elan edilməsi uşaqların vəziyyətinin yaxşılaşdırılması, insan hüquqlarının bir tərkib hissəsi olan uşaq hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından yeni bir mərhələ açdı, uşaqlara diqqət bir qədər də artdı.

Artıq həmin tarixdən ötən hər illər ərzində uşaqlarla bağlı böyük miqyaslı tərbirlərin keçirilməsi davam etdirilməkdədir. Aidiyyəti dövlət qurumları, eləcə də QHT-lər bu gün uşaqların cəmiyyətdə iştirakının təmin edilməsinə, onların hüquqlarının müdafiəsinə böyük əhəmiyyət verirlər.

Ölkə Prezidentin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında İnsan Hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının və bu sənədin məntiqi davamı olaraq 27 dekabr 2011-cı il tarixdə Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının qəbul edilməsi uşaq hüquqlarının səmərəli şəkildə həyata keçirilməsinə böyük töhfə verməkdədir. Qəbul edilmiş bu sənədlərdə uşaq hüquqlarının təbliği və müdafiəsi ilə bağlı bir sıra mühüm bəndlər, o cümlədən ümumtəhsil məktəblərində uşaq hüquqlarının pilləli tədrisinin inkişaf etdirilməsi daxil edilib.

2012-ci il 8 may tarixdə isə ölkə Prezidentinin fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydası" da təsdiq edilib. Dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınmasıdır.

Ombudsmanın Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi "Uşaq Hüquqları üzrə Pilləli Tədris Layihəsi" artıq neçə ildir ki, uşaqların iştirakının təmin edilməsini rəhbər tutaraq həmyaşıddan-həmyaşıda təhsil prinsipi əsasında orta ümumtəhsil məktəblərində

həyata keçirilməkdədir. Bu məqsədlə eyni dildə və eyni formada danışanlardan məlumatların bir-birinə ötürülməsi tədris proqramının əsas qayəsini təşkil edir.

Uşaq və gənclər öz hüquqlarını daha sadə formada və həmyaşıdlarından öyrənməyə maraqlıdırlar, çünki onlar həmyaşıdları ilə daha çox ünsiyyətdə olur və onlardan aldıqları informasiyanı daha asan yadda saxlayırlar. Ümumilikdə isə həmyaşıdlarına nümunə olacaq gənclərin yetişdirilməsi olduqca məsuliyyətli və zəruridir.

Bu vəsaitdə də əks olunmuş mövzuları və praktik məşğələləri nəzərdə tutan çalışmaları sadə dildə verməklə yuxarı sinif şagirdlərinin öyrəndiklərini özlərindən bir pillə aşağı sinfə öyrəndiyini tədris etmələri bizim ümumi məqsədimizə xidmət edir.

Ümidvaram ki, hazırladığımız bu vəsait uşaqlar üçün əsas hüquq və azadlıqların öyrənilməsi, eləcə də bu sahədə çalışan şəxslərin insan hüquqlarının tərkib hissəsi kimi uşaq hüquqları ilə bağlı biliklərinin formalaşdırılmasında yardımçı olacaqdır.

Bununla yanaşı, Siz pozulmuş hüquq və azadlıqlarınızın bərpa edilməsi məqsədilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) müraciət edə bilərsiniz. Bunun üçün isə ən qısa yol 24 saat ərzində fəaliyyət göstərən «916» nömrəli Qaynar xəttə müraciət etməkdir.

**Unutmayın ki, Ombudsman Sizin hüquqlarınızın müdafiəçisi və dostunuzdur!**

**Hüquqlarımızı öyrənək ki, onun pozulması hallarının qarşısının alınmasında fəal iştirak edə bilək.**

**professor Elmira Süleymanova**

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

**Bu 10 addımı hər kəs bilməli və [illegible] uşaqları dəstəkləməlidir!**

1. **Heç bir uşağı nəzərdən qaçırmayaq!**
2. **Uşaqları önə çəkək!**
3. **Hər bir uşağın qayğısına qalaq!**
4. **HİV/AİDS-lə mübarizə aparaq!**
5. **Uşaqların istismarına və onlara ziyan vuran əməllərə son qoyaq!**
6. **Uşaqları dinləyək və onların iştirakını təmin edək!**
7. **Hər bir uşağa təhsil verək!**
8. **Uşaqları müharibədən qoruyaq!**
9. **Yer kürəsini uşaqlar üçün qoruyaq!**
10. **[illegible]sulluqla mübarizə aparaq: [illegible] sərmayə edək!**

**[illegible]LƏCƏYİNİZİK!**

## Uşaq hüquqlarının Pilləli tədrisi üzrə
## Mövzular

| N | Mövzuların adı | Dərs saatı |
|---|---|---|
| 1. | İnsan hüquqları nədir? | 1 saat |
| 2. | Uşaq hüquqları: anlayışı və yaranması | 1 saat |
| 3. | Uşaq kimdir? | 1 saat |
| 4. | Uşaqlara məxsus hüquqlar | 3 saat |
| 5. | Uşaq Hüquqları Konvensiyası | 3 saat |
| 6. | Uşağın vəzifələri | 1 saat |
| 7. | Uşaqlara qarşı zorakılıq: anlayışı və onunla mübarizə | 2 saat |
| 8. | Uşaq hüquqlarını kim qoruyur? | 2 saat |
| 9. | Qanunla ziddiyyətdə olan uşaqlar | 2 saat |
| 10. | İnsan alverinə qarşı mübarizə | 1 saat |

# I Fəsil: İnsan
# kimi uşaq hü

## Möv

ᴓ Bütün insanlar bərabər hüquqlarla doğulurlar. Bu ayrılmaz və özgəninkiləşdirilə bilməyən hüquqlar insana sadəcə olaraq ona insan olduğu üçün məxsusdur. Məhz əxlaqi xarakterli bu normalar inkişaf edərək hal-hazırda bizim insan hüquqları adlandırdığımız məfhuma çevrilmişdir.

***İnsan hüquqları insan ləyaqətinə xas olan bütün hüquqların cəmidir. İnsan hüquqları ayrılmazdır, bölünməzdir və təbii xarakter daşıyır.***

İnsan hüquqları insanların normal yaşaması, cəmiyyətdə özlərinə yer tutmaları üçün olduqca vacib dəyərlərdəndir. Dilindən, dinindən, irqindən, cinsindən siyasi mənsubiyyətindən asılı olmayaraq, insan hüquqları hamıya eyni dərəcədə şamil edilir. İnsan hüquqlarının təminatçısı isə dövlətdir. Deməli insan hüquqları həm də dövlətlə qarşılıqlı münasibətdə hər bir insana verilən hüquqların cəmidir. İnsan hüquqları yalnız insanlara məxsusdur, əgər bu hüquqlar olmasa insan sadəcə bioloji varlıq olar.

Dövlət insanı onun ayrılmaz hüquqlarından məhrum edə bilməz. Hətta insanın özü belə könüllü olaraq bu təbii və ayrılmaz hüquqlarından imtina edə bilməz. Məsələn: Əgər bir

adam sənəd imzalayıb könüllü şəkildə azadlıqdan imtina edərsə və özünü qula çevirərsə bu sənəd qanuni sənəd sayılmaz, çünki qanun buna imkan vermir. Lakin hər bir şəxs öz istəyi ilə müstəqil şəkildə şəxsi mülkiyyətindən imtina edə və ya özünü təcrid edə bilər, çünki mülkiyyət hüququ insanın ayrılmaz hüquqlarından deyil. Bu hüquq özgəninkiləşdirilə, yəni razılıq əsasında başqasının istifadəsinə keçə bilir.

Tarixə nəzər salsaq görərik ki, müxtəlif dövrlərdə qəbul edilmiş və hüquqları özündə əks etdirən sənədlər məhz insanların iradəsi nəticəsinə mümkün olmuşdur. Müxtəlif quruluşlarda baş verən qulların, kəndlilərin üsyanları, etirazları, inqilablar, sonra isə müharibələr kütləvi şəkildə insan hüquqlarının pozulması ilə nəticələnirdi və ya bu pozuntulara qarşı idi. Həmin dövrlərdə zəifləmək istəməyən iri müstəmləkə dövlətləri hüquqları özündə əks etdirən sənədlər qəbul etməyə məcbur idilər, çünki əks halda etirazlar bütün ölkəni əhatə edə bilərdi. Hüquqları nəzərdə tutan bu qəbul edilmiş sənədlərə misal olaraq İngiltərədə 1215-ci il «Böyük Azadlıqlar Xartiyası», 1689-cu il «Hüquqlar Haqqında Bill», ABŞ-da 1776-cı il «İstiqlaliyyət Bəyannaməsi», Fransada 1789-cu il «İnsan və Vətəndaş hüquqları haqqında Bəyannamə»ni göstərmək olar. Ümumilikdə isə insan hüquqlarının yaranmasında həlledici mərhələ VII – VIII əsrlər oldu ki, bu dövrdə də Qərb ölkələrinin bir çoxunda burjua-demokratik inqilabları baş verdi. Daha sonra baş verən müharibələr və nəhayət XIX əsrdən başlayaraq isə insan hüquqları bir çox suveren dövlətlərin konstitusiyalarında yer tapmağa başladı.

İkinci Dünya Müharibəsindən sonra isə dünya ölkələrinin təşkilatlanma prosesində onlardan çoxu birləşərək 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatını (BMT-ni) yaratdılar. Onlar dünyada sülhə və azadlığa, bərabərliyə birlikdə dəstək olmaq istəyirdilər. Bu proseslərin davamı olaraq isə 10 dekabr 1948-ci ildə BMT tərəfindən İnsan hüquqları haqqında Ümumi

Bəyannamə qəbul edildi. Dünyadakı bütün insanların malik olduqları əsas hüquqlar bəyan edildi.

İnsan dövlətdən öz haqqını tələb edərkən heç də məhkəmədə sübuta yetirməyə borclu deyil, çünki o anadan olan gündən hüquqlara malikdir və dövlət onu təmin etməlidir.

Məhz əxlaqi xarakterli bu normalar inkişaf edərək hal-hazırda bizim insan hüquqları adlandırdığımız məfhum kimi ifadə edilir. Heç kəs insanı təbii hüquqlarından - yaşamaq, azadlıq, şəxsi toxunulmazlıq, özünün həyat fəaliyyətini azad seçmək hüququ, vicdan, fikir, əqidə azadlığı və digər bu qəbildən olan hüquqlarından məhrum edə bilməz. Müasir həyatı azadlıq, bərabərlik, ədalət prinsiplərinə əsaslanan və universal xarakter daşıyan insan hüquqları olmadan təsəvvür etmək mümkün deyildir. İnsan hüquqları təkcə dövləti, hüququ, qanunu, qanunçuluğu deyil, eyni zamanda vətəndaş cəmiyyətinin qiymətləndirilməsi meyarı kimi qəbul edilir. Çünki hüquqi dövlətin inkişafı, yetkinliyi xeyli dərəcədə insan hüquqlarının vəziyyəti, bu hüquqların həcmi və həyata keçirilməsindən asılıdır.

İnsan hüquqları sahəsində əsas prinsiplərə aşağıdakılar aid edilir:

- insan hüquqları fərd anadan olandan ona məxsusdur və ona görə də təbii, ayrılmaz və toxunulmaz hüquqlardır;
- insan hüquqları universaldır və bərabərlik prinsipinə əsaslanır;
- insan hüquqları ali dəyərdir, onlara hörmət olunması, riayət edilməsi və müdafiəsi dövlətin vəzifəsidir;
- hüquq və azadlıqların təmini hər-hansı əlamətə görə ayrı-seçkiliklə bir araya sığmır;
- hüquq və azadlıqların həyata keçirilməsi başqalarının hüquq və azadlıqlarını pozmamalıdır;
- insan hüquqları qanunla tənzimlənməlidir;

- insan hüquq və azadlıqları qanunla, konstitusiya və beynəlxalq hüquqi aktlarda nəzərdə tutulmuş hallar əsasında məhdudlaşdırıla bilər. Hüquq və azadlıqların müvəqqəti məhdudlaşdırılması bu cür məhdudiyyətin zəruriliyini müəyyən edən vəziyyətə müvafiq və proporsional olmalıdır.

İnsan hüquqları həm də təbii hüquqlardır – onlar insandan ayrılmazdır, yəni insan doğulan andan bu hüquqlara malikdir. Ona görə də heç bir dövlət hakimiyyətinin vətəndaşa insan hüquqları vermək və ya onu bu hüquqlardan məhrum etmək səlahiyyəti yoxdur, əksinə, hər bir dövlət hakimiyyəti insan hüquqlarını qəbul edir və onun müdafiəsini təşkil edir. İnsan hüquqlarında fərdin dövlətə yox, dövlətin fərdə xidmət etdiyi nəzərdə tutulur. Bu hüquqlar yaşından, cinsindən, etnik mənşəyindən, milliyyətindən və sair əlamətlərindən asılı olmayaraq, bütün insanlara şamil edilir. Ancaq insan hüquqları təkcə hüquqları yox, məsuliyyətləri, öhdəlikləri də nəzərdə tutur. Məsələn, fərdin azadlıq hüquqları gərək onun yoldaşının azadlıq hüquqları ilə balanslaşdırılsın:

Mənim azadlıq çərçivəm başqasının azadlığı hesabına genişləndirilə bilməz. Mənə öz fikrimi ifadə etmək azadlığı başqa insanları təhqir etmək hüququ vermir.

İllər keçdikcə bütün bunlar dövlətlərin və beynəlxalq ictimaiyyətin qanun yaradıcılığı prosesində hüquqlar və normalar kimi çıxış etməyə başlamışdır. Qeyd olunan bu hüquqlar daha da inkişaf edərək insan hüquqlarının tərkib hissəsi kimi əhalinin müxtəlif qruplarının (uşaqların, gənclərin, qadınların, ahılların, əlillərin və s.) hüquqları kimi anlam almış və əhatə dairəsi daha da genişlənmişdir.

Növbəti keçid edəcəyimiz mövzuda məhz uşaq hüquqları haqqında daha geniş danışacağıq.

ᗧ İnsan ləyaqətinə xas olan bütün hüquqların cəmləndiyi, ayrılmaz, bölünməz və təbii xarakter daşıyan hüquqların şamil edildiyi şəxslər kateqoriyasından biri də uşaqlardır.

Cəmiyyətin əsas özəyi olan uşaqların hüququndan danışarkən burada onların tam və ahəngdar inkişafı və rifahı, ailə mühitində səadət və anlaşma şəraitində böyüməsi əsas şərtdir. Yer üzündə azadlığın, ədalətin və sülhün təmini yalnız insan şəxsiyyətinin dəyərinə, ləyaqətinə onun hüquq və azadlıqlarına hörmət etdikdə mümkündür.

İllər keçdikcə hüquqların daha da formalaşması və inkişaf edərək insan hüquqlarının tərkib hissəsi kimi əhalinin müxtəlif qruplarından biri kimi uşaq hüquqlarını da fərqləndirdi.

Məhz XX əsrin əvvəllərindən etibarən uşaqlara məxsus hüquqlar və bu hüquqların effektiv müdafiəsi məsələsi meydana gəldi və artıq suveren dövlətlər əhali qrupu kimi uşaqların hüquqlarından danışırdılar. Bu baxımdan uşaq hüquqları da insan hüquqlarının əsas tərkib hissəsi olduğundan təbii xarakter daşımaqla heç bir fərq qoyulmadan, bərabər şəkildə bütün uşaqlara şamil olunur. Uşaqlar irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi və başqa etiqadına, milli və ictimai mənsubiyyətinə, maddi vəziyyətinə, özünə və onun ailəsinə aid amillərə görə heç bir ayrı-seçkiliyə məruz qalmamalıdır.

İnsan doğulduqdan sonra qanuna uyğun olaraq hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanı əldə edir. Lakin onların əldə olunması və həyata keçirilməsi uşaq böyüdükcə mümkün olur və davamlı olaraq hüquqların sayı da artır. Onun fəaliyyət qabiliyyəti də (hüquq əldə etmək və həyata keçirmək

bacarığı, özü üçün vəzifələr yaratmaq və onları yerinə yetirmək) yaşa uyğun formalaşır. Misal üçün: hər hansı bir su qabı tutduğu həcmdə dolduğu kimi, fəaliyyət qabiliyyəti də bir sıra hallar istisna olmaqla 18 yaş tamam olduqda əldə olunur və uşaq yetkinlik yaşına çatmış hesab edilir. Bununla da həmin şəxs milli və beynəlxalq qanunvericiliyin nəzərdə tutduğu hüquqlardan tam şəkildə istifadə etməyə başlayır. Əlbəttə bu o demək deyil ki, 18 yaşınadək olan insanların hüquqları məhdudlaşdırılır, sadəcə olaraq həmin şəxslər onların inkişafı üçün nəzərdə tutulmuş hüquqlardan geniş şəkildə istifadə edirlər. Axı hüquqların sayının daha çox olması insanlar üzərinə düşən vəzifələri də artırır. Bu baxımdan uşaqlar 18 yaşınadək yaşadıqları ölkənin tərəfdar çıxdığı beynəlxalq qanunvericilik və həmin ölkənin milli qanunvericiliyində nəzərdə tutulmuş hüquqlardan faydalanırlar.

O hallar istisna təşkil edir ki, həmin uşaq barəsində tətbiq edilə bilən milli qanunvericiliyə görə o, yetkinlik yaşına daha əvvəl çatmamış olsun.

Hazırda hüquqların müxtəlifliyi baxımından yanaşdıqda uşaq hüquqlarının bugünkü inkişaf mərhələsinə çatması üçün də hansı yaranma və təkamül proseslərindən keçdiyinə diqqət yetirməliyik.

Belə ki, 1924-cü ildə Millətlər Liqası ilkin olaraq uşaq hüquqları haqqında Cenevrə Bəyannaməsini qəbul etdi. Bəyannamə uşaqların maddi, mədəni və mənəvi inkişafı üçün imkanlardan istifadə etmək hüququnu, xəstə, əlil və ya valideynlərdən məhrum olmuş uşaqlar üçün qayğı almaq hüququnu, çətin vəziyyətdə olduqda kömək üçün müraciət etmək hüququnu, iqtisadi istismardan azadlıq və sosial məsuliyyət hissini aşılayan tərbiyə almaq hüquqlarını özündə əks etdirirdi. Əlbəttə ki, bu tövsiyələr həmin dövrdə bütün dövlətlər tərəfindən qəbul edilən olmadı, ancaq bəziləri üçün isə milli qanunvericiliyin formalaşdırılmasında nəzərə alındı.

Bir qədər sonra, 10 dekabr 1948-ci ildə isə BMT-də Ümumdünya İnsan Bəyannaməsi qəbul edildi və dünyadakı bütün insanların malik olduqları əsas hüquqların həm də uşaqlara şamil olunduğu bəyan edildi. Lakin tezliklə belə bir təklif də olundu ki, uşaqlar xüsusi qrupudur və ona görə də onların hüquqları ayrıca olaraq təbliğ edilməli və qorunmalıdır.

Bu baxımdan 1950-ci ildə Uşaq hüquqlarına dair ilk sənədin layihəsi hazırlandı. BMT-nin üzvü olan dövlətlərin nümayəndələri bir neçə il onu müzakirə etdilər. Beləliklə də, mövcud uşaq hüquqları ideyaları öz inkişaf mərhələsinə qədəm qoydu. 20 noyabr 1959-ci ildə isə uzun sürən müzakirələrdən sonra BMT tərəfindən Uşaq Hüquqları Bəyannaməsi qəbul edildi. Bu bəyannamə bütün dövlətlər üçün tövsiyə xarakteri daşıyırdı, ölkələrin milli qanunvericiliyinə təsir etmir və on hüququ özündə birləşdirirdi. Bəyannamə dövlətlər tərəfindən qəbul edilmir və sənəd qarşısında hər hansı öhdəlik götürülmür, sadəcə üzv dövlətlər öz ölkələrində həmin tövsiyədən faydalanırlar. Hər halda onların gələcək fəaliyyət istiqamətləri üçün tövsiyə xarakteri daşıyan bu sənəd uşaq hüquqlarının inkişafı üçün yeni mərhələ açdı.

BMT-nin təşəbbüsü ilə 1979-cu il dünyada «Uşaq İli» kimi qeyd olundu. Hər yerdə uşaq hüquqları barəsində danışıldı, bu barədə müzakirələr keçirildi. Uşaqların mənafeyi naminə, bu hüquqların daha detallı işlənib hazırlanmasını və ən əsası, onların məcburi hüquqi qüvvə daşımasını getdikcə daha çox insan arzulamağa başladı. Bu isə özlüyündə insan zəkasında yeni baxışların yaranmasına, yeni dövrün formalaşmasına təkan verdi.

Nəhayət 20 noyabr 1989-cu ildə BMT-nin Baş Məclisi Uşaq hüquqları haqqında Konvensiyanı yekdilliklə qəbul etdi. O vaxtdan indiyədək bütün dünya dövlətləri (yalnız ikisi, ABŞ və Somali istisna olunmaqla) bu Konvensiyanı qəbul etmişdir. Konvensiyanı imzalamaqla onlar öz ölkələrini uşaq hüquqları

sahəsində maarifləndirməyə, bu hüquqları öz ölkələrində tətbiq etməyə, o cümlədən uşaqların müdafiəsinə xüsusi diqqət yetirməyi öz üzərilərinə öhdəlik götürdülər. Konvensiya 1990-cı ildə 20 dövlətin ratifikasiyasından sonra qüvvəyə mindi və imzalanmaq üçün bütün dövlətlərə açıq elan olundu. UHK artıq 191 ölkə – yəni BMT-nin tərkibində olan ABŞ və Somali istisna olmaqla bütün ölkələr tərəfindən ratifikasiya olunmuşdur. ABŞ milli qanunvericiliyinin uşaqlar üçün daha geniş hüquqlar nəzərdə tutduğunu, Somali isə ölkəsində müharibə və münaqişələrin davam etdiyindən uşaq hüquqlarının həyata keçirilməsinə dair öhdəlikləri yerinə yetirə bilməyəcəyini bəyan edərək UHK-na qoşulmamışdır.

Konvensiyanı qəbul edən dövlətlər uşaq hüquqlarının təbliği və müdafiəsi sahəsində gördükləri işlərlə bağlı Uşaq hüquqları Konvensiyasının 44-cü maddəsinə uyğun olaraq BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı yanında Uşaq Hüquqları Komitəsinə 4 ildən bir dövrü hesabat verirlər.

Azərbaycan 2 mart 1992-ci il tarixdə BMT-yə üzv olmuş, həmin il UHK-yə qoşulmuş və ilk hesabatını 1995-ci ildə Uşaq Hüquqları Komitəsinə təqdim etdikdən sonra 1997-ci ildə həmin qurum hesabata baxaraq Azərbaycan hökumətinə yekun tövsiyələrini vermişdir. Ölkəmiz öz ikinci və üçüncü birləşdirilmiş hesabatlarını isə 2004-cü ilin əvvəlində təqdim etmiş, son hesabat üzrə 2006-cı ilin yanvar ayında Komitə ölkəmizə tövsiyələrini göndərmişdir.

2012-ci ilin 17-18 yanvar tarixlərində BMT-nin Uşaq Hüquqları Komitəsi tərəfindən Azərbaycan hökumətinin UHK üzrə növbəti dövri hesabatları və bu sənədin uşaqların silahlı münaqişələrə cəlb edilməsinə, digəri isə uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasına dair iki Fakultativ Protokolu üzrə ilkin hesabatları ətrafında dinləmələr keçirilmişdir. Azərbaycan Respublikası ilə bağlı yekun müşahidə və tövsiyələr

isə 16 yanvar-3 fevral 2012-ci ildə keçirilmiş BMT-nin Uşaq hüquqları Komitəsinin əlli doqquzuncu sessiyasında verilmişdir.

Yeri gəlmişkən, 2000-ci ildə BMT Baş Məclisi tərəfindən Uşaq hüquqları Konvensiyasının iki Fakültativ Protokolu da qəbul edildi ki, onlardan biri uşaqların silahlı münaqişələrə cəlb edilməsinə, digəri isə uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasına aiddir. Azərbaycan Respublikası 2 aprel 2002-ci il tarixdən etibarən bu Protokollara qoşulmuşdur.

Ölkəmizdə əhalinin bütün qruplarının hüquq və azadlıqlarının kompleks şəkildə təmin edilməsini, onların sosial rifah halının yaxşılaşdırılması məsələlərini nəzərdə tutan qanunvericilik bazası vardır. Uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası və beynəlxalq və milli qanunvericilik aktları ilə tənzimlənir. Bu sahədə əsas milli sənəd 19 may 1998-ci ildə qəbul edilmiş «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunudur. Bu qanun bir sıra beynəlxalq sənədlərə, xüsusilə də «İnsan hüquqları haqqında» Ümumdünya İnsan hüquqları Bəyannaməsi BMT-nin Uşaq hüquqları Konvensiyası, Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsinə uyğun şəkildə hazırlanmış və uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və azadlıqları, eləcə də bu hüquqların reallaşdırılması üçün dövlətin vəzifələrini özündə əks etdirir.

Bu gün dünyanın çox yerində uşaqlar ədalətsizlikdən ciddi əziyyət çəkirlər. Dünyadakı bütün uşaqların öz hüquqlarından faydalanmaları üçün davamlı tədbirlərin görülməsi, dünya ölkələrində yeni institutların formalaşdırılması və müdafiə mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac duyulan sahələrdəndir.

## Mövzu 3: Uşaq kimdir?

Əvvəlki mövzuda qeyd olunmuş hüquqların ünvanlandığı şəxs, uşaq kimdir? BMT-nin 20 noyabr 1989-cu ildə qəbul olunmuş Uşaq Hüquqları Konvensiyasına və Azərbaycan Respublikasının 19 may 1998-ci ildə qəbul olunmuş Uşaq Hüquqları haqqında Qanununa əsasən 18 yaşına çatmamış şəxs uşaq hesab olunur. Həmin şəxslərə yetkinlik yaşına çatmayanlar da deyilir. Bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilə bilən qanunvericiliyə görə o, yetkinlik yaşına daha əvvəl çatmamış olsun.

Məsələn: 7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların məhdud fəaliyyət qabiliyyəti vardır. Lakin, on altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayan əmək müqaviləsi üzrə işləyirsə və ya valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, tam fəaliyyət qabiliyyətli sayıla bilər. Hər iki valideynin, övladlığa götürənlərin və ya qəyyumun razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı ilə, belə razılıq olmadıqda isə məhkəmənin qərarı ilə yetkinlik yaşına çatmayan tam fəaliyyət qabiliyyətli sayılır (emansipasiya). Bu halda valideynlər, övladlığa götürənlər və himayəçi tam fəaliyyət qabiliyyətli sayılmış yetkinlik yaşına çatmayanın öhdəlikləri üçün, o cümlədən onun ziyan vurması nəticəsində əmələ gəlmiş öhdəliklər üçün məsuliyyət daşımırlar.

İkinci bir hal isə, on səkkiz yaşına çatanadək nikaha girməyə qanunun yol verdiyi halda, on səkkiz yaşına çatmamış fiziki şəxs nikaha girdiyi vaxtdan tam həcmdə fəaliyyət qabiliyyəti əldə edir. Nikah bağlanması nəticəsində əldə edilmiş fəaliyyət qabiliyyəti nikahın on səkkiz yaşına çatanadək

pozulduğu halda da tam həcmdə saxlanılır (AR-nın Mülki Məcəlləsinin 28.4, 28.5, 28.6-cı maddələri).

Uşaqlığın universal anlayışı olmasa da uşaq və gənclər yaşlılardan fərqli olan xüsusi ehtiyaclara malikdirlər. Eləcə də uşaq və gənclərin inkişafında böyük mədəni fərqlər var. Burada gender məsələsinə də böyük diqqət yetirilməlidir. Ölkədə gənclik yaşının 14-dən 29-a nəzərdə tutlmasından asılı olmayaraq 18-yaşadək olan şəxslər uşaq hesab olunmaqla dövlətin onlara verdiyi təminatlardan tam istifadə etmək hüququna malikdirlər.

Ümumilikdə isə yaş xüsusiyyətlərinə, bioloji və psixoloji inkişaf səviyyəsinə əsaslanaraq uşaqlıq yaşına müəyyən tərif vermək mümkün olsa da, bu tərif uşaqlığın kifayət qədər mürəkkəb təbiətini tam əks etdirməyəcək.

Bütün uşaqlar bərabər hüquqlarla doğulurlar və hüquqlarının həyata keçirilməsində hər hansı bir formada ayrı-seçkiliyə məruz qala bilməzlər.

Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar həm də valideynlərinin və ya onları əvəz edən digər şəxslərin (övladlığa götürənlər, qəyyumlar, himayəçilərin, uşaq evlərində olanlar isə həmin müəssisə müdiriyyətinin) hərəkətlərinə görə məsuliyyət daşımır, valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir.

Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

Uşaqlar həm də ad, ata adı və soyad daşıyan şəxslərdir. Bu həm də onun hüquqlarından biridir.Uşağa ad valideynlərin razılığı ilə verilir, ata adı atasının adına görə verilir. Uşağın

soyadı, bir qayda olaraq, valideynlərin soyadı ilə müəyyən edilir. Uşağın valideynlərinin soyadları müxtəlif olduqda uşağa valideynlərin razılığı ilə atanın və ya ananın soyadı verilir.

Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı (VVADQŞ) tərəfindən müəyyən olunur (AR-nın Ailə Məcəlləsi, maddə 53).

Valideynlərin uşağın tərbiyəsində bərabər hüquq və vəzifələri vardır. Onlar uşağı sağlam böyütməli, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etməli, müstəqil həyata hazırlamalıdırlar. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsas vəzifələridir.

Valideynlərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının qarışmasına yalnız qanunla nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilə bilər. (UHQ, maddə 19)

Uşaqların vurduğu maddi ziyana görə onun valideynləri, övladlığa götürənlər, qəyyumlar və ya himayəçilər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Uşaqlar cəmiyyətdə elə yetişdirilməlidir ki, onlarda "YOX" demək bacarığı olmalıdır. Bu anlayış isə onunla izah olunur ki, hüquqlarını bilən və onun başqa şəxslər tərəfindən pozuldugunu ehtimal edən şəxs müəyyən müdafiə olunmaq bacarıqlarına malik olmalıdır. Yəni bu zaman o pozuntunun qarşısını almağa çalışır və həmin pozuntunun aradan qaldırılması üçün hüququnu tələb edir, hüquqi müqavimət göstərir, pozulduğunu ehtimal etdiyi hüququnun bərpa olunması üçün konkret addımlar atır və müvafiq hüquq müdafiə qurumlarına müraciət edir.

Bununla yanaşı, bütün dünya xalqları arzu edir ki, onların gələcəyi olan uşaqlar normal həyat şəraiti yaşayaraq, layiqli və məsuliyyətli vətəndaş kimi yetişsin və cəmiyyətin həyatında

aktiv iştirak etsin. Təəssüflər olsun ki, bu gün də dünyanın müxtəlif yerlərində uşaqlar öz hüquqlarından məhrum olur, ya da onlardan istifadə edə bilmirlər. Bununla da uşaqlar həm inkişafdan, həm də cəmiyyətin həyatında iştirakdan məhrum olurlar.

İri, inkişaf etmiş, o cümlədən inkişaf etməkdə olan ölkələrdə uşaqlar hər gün müxtəlif hüquq pozuntularının iştirakçısına çevrilir, narkotik maddələrdən məcburi istifadə, müxtəlif növ zorakılığa və təzyiqlərə məruz qalırlar. Məcburi əməyə cəlb olunaraq istismar olunur, uzunmüddətli istirahətsiz çalışırlar ki, bu da onların sağlamlığını və həyatını təhlükə altında qoyur.

Bütün uşaqlar valideynlərinin və ya dövlətin himayəsində olmasından asılı olmayaraq öz hüquqlarını bilməli, özlərinin və həmyaşıdlarının, həmçinin hüquqlarından məhrum olmuş uşaqların müdafiəsi naminə aktiv fəaliyyət göstərməyə qadir olmalıdırlar.

Bu baxımdan Uşaq hüquqları Konvensiyası və Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanunu uşaqların hüquqi biliklərə yiyələnməsi ilə yanaşı, uşaq hüquqlarının öyrənilməsi və müdafiəsi üçün ən yaxşı vasitədir.

Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Bu proqramların yerinə yetirilməsinə dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər.

## Mövzu 4: Uşaqlara məxsus hüquqlar

ꞏ Yaşlı insanlar, eləcə də valideynlər uşaqları kiçik hüquqlara malik insanlar kimi qəbul edirlər. Bu isə tamamilə düzgün olmayan baxışlardır. Yaşı az olan şəxslər, yəni uşaqlar da çoxsaylı hüquqlara malikdirlər və onların hüquqlarına bütünlüklə hörmət olunmalıdır. Böyüklərə nisbətən daha az yaşlı olmaları və ya fiziki cəhətdən daha zəif və kiçik olmaları heç də o demək deyil ki, onların hüquqları böyüklərin hüquqlarından daha azdır və ya müdafiəsi önəmli deyil. Əlbəttə ki, bu fikirlər yalnışdır.

BMT-nin Uşaq Hüquqları Konvensiyası (UHK) bəyan edir ki, uşaqlar hüquqları olan şəxslərdir və qərar qəbul etmədə onların fikirləri mütləq nəzərə alınmalıdır. Unutmaq olmaz ki, yaşlarından və həyat təcrübəsindən asılı olaraq, uşaqların müxtəlif bacarıq və intellekt səviyyəsi vardır. Böyük yaşlı insanların əsas vəzifələrindən biri də müxtəlif üsullardan istifadə etməklə uşaqların fikir söyləmək, izah etmək qabiliyyətlərini artırmağa kömək etməkdir. Uşaqlarla işləyərkən, onları yaxşı-pisə, uğurlu-uğursuza, varlı-kasıba, tərbiyəli-tərbiyəsizə, küçədə yaşayan-ailədə təbiyə alana bölmək olmaz. Konvensiyada verilmiş yaşamaq, inkişaf etmək, təhsil almaq, azad yaşamaq, şəxsi həyata malik olmaq, sağlam böyümək, dinlənilmək kimi hüquqları hər bir uşaq təbəqəsinə tətbiq etmək olduqca vacibdir.

Respublikamız 1992-ci il 21 iyul tarixində UHK-na qoşulduqdan sonra həm yaşlı insanları, həm də uşaqları bu sənədin müddəaları ilə tanış etmək öhdəliyini götürmüş və buna görə də 19 may 1998-ci ildə Azərbaycan Respublikasında Uşaq hüquqları haqqında Qanun qəbul edilmişdir.

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqları Konvensiyasına və digər beynəlxalq hüquq normalarına uyğun olaraq ölkəmizdə uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir. Bununla da yaşlı insanlar üçün uşaqların geniş hüquqlara malik olduqlarını tam və qətiyyətlə qəbul etmək zərurəti yaranmışdır.

Hər bir yaşlı insan bilir ki, hüquqlarsız və hədə-qorxu içərisində böyüyən uşaq qorxaq və cəmiyyət üçün yararsız bir şəxsə çevrilir. Belə adamlar uşaqlıqda istedadlı olmalarına baxmayaraq nə maraqlı elmi kəşflər etməyə, nə də qurub yaratmağa qadir olmurlar. Lakin onu da bilməliyik ki, bu hüquqlardan başqa hər bir insan öz doğmaları, qonşuları, insanlar və dövlət qarşısında müəyyən vəzifə daşıyırlar.



***Bəs uşaqlar nə üçün öz hüquqlarını bilməlidir?***

Çünki, hər bir cəmiyyət istəyər ki, onun uşaqları böyüyərək məsuliyyətli və layiqli vətəndaş kimi yetişsin və cəmiyyətin inkişafında öz əvəzsiz rollarını oynaya bilsinlər. Lakin hələ də dünyanın çox yerlərində uşaqlar öz hüquqlarından məhrum olur və ya onlardan istifadə edə bilmirlər. Bunun nəticəsində də onlar, tam inkişaf və iştirakdan məhrum olurlar. Həm inkişaf etmiş, həm də inkişafda olan ölkələrdə uşaqlar hər gün küçə pozuntuları, narkotik maddələrdən məcburi istifadə, seksual zorakılıq və s. təzyiqlərə məruz qalır. Onlar çox vaxt

uzunmüddətli işlərdə istirahətsiz çalışır, buda onların səhhətlərinə böyük mənfi təsir göstərir.

Bütün dünyada milyonlarla uşaq tam təhsil almaqdan məhrum olur. Bu proses xüsusilə əlil, etnik milliyətlərdən olan uşaqlara daha kəskin təsir göstərir.

Hələ də çoxlu sayda uşaq əslində qarşısı alına bilən xəstəliklərdən ölürlər. Aclıq, sanitar qaydalara riayət olunmaması və təmiz suyun çatışmazlığı böyük problem kimi qalmaqdadır.

Bir çox ölkələrdə məktəb yaşlı uşaqlar hərbi qruplara qoşulmağa, zorakılığa və cəzaya məruz qalır, hüquqi qanunvericilik bazasının zəifliyindən əziyyət çəkirlər.

Bu baxımdan hüquq və ehtiyacları təmin edilməyən uşaqlar layiqli, məsuliyyətli vətəndaş olub digərlərinin hüquqlarına hörmət etməyəcəklər. Hüquq məsələləri bir başa və ya dolayısı ilə hər bir insanın həyatına toxunur. Dünya uşaqları individual və qlobal gələcək uğrunda öz hüquqlarını başa düşməli, bilməli, eyni zamanda həm öz hüquqları, həm də haqqlarından məhrum olmuş digər uşaqların əvəzinə aktiv fəaliyyət göstərməyə qadir olmalıdırlar.

Hüquqları öyrənmək üçün isə ən qısa yol, ölkə Konstitusiyası, Uşaq Hüquqları Konvensiyası, eləcə də hər bir ölkənin milli qanunvericiliyində mövcud Uşaq hüquqları haqqında Qanunla (əgər varsa) tanışlıqdan keçir.

Təqdirəlayiq haldır ki, əvvəldə də qeyd etdiyimiz kimi respublikamız Uşaq Hüquqları Konvensiyasının iştirakçısıdır, o cümlədən 12 noyabr 1995-ci il tarixdə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında da uşaqların mövqeyi nəzərə alınmış və yaşlı insanlarla bərabər şəkildə uşaqların da mənsub olduğu hüquqlar təsbit olunmuş və nəhayət milli qanunvericiliyimizdə xüsusi qanun qəbul edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş və uşaqların da mövqeyini əks etdirən hüquqlar bunlardır:

1. Bərabərlik hüququ;
2. Yaşamaq hüququ;
3. Azadlıq hüququ;
4. Mülkiyyət hüququ;
5. Əqli mülkiyyət hüququ;
6. Təhlükəsiz yaşamaq hüququ;
7. Şəxsi toxunulmazlıq hüququ;
8. Mənzil toxunulmazlığı hüququ;
9. Əmək hüququ;
10. İstirahət hüququ;
11. Sosial təminat hüququ;
12. Sağlam ətraf mühitdə yaşamaq hüququ;
13. Mədəniyyət hüququ;
14. Tibbi yardım almaq hüququ;
15. Təhsil hüququ;
16. Mənzil hüququ;
17. Milli mənsubiyyət hüququ;
18. Ana dilindən istifadə hüququ;
19. Şərəf və ləyaqətin müdafiəsi hüququ;
20. Fikir və söz azadlığı;
21. Vicdan azadlığı;
22. Məlumat azadlığı;
23. Vətəndaşlıq hüququ;
24. Müraciət etmək hüququ;
25. Birləşmək hüququ;
26. Hüquq və azadlıqların məhkəmə təminatı
27. Hüquqi yardım almaq hüququ;
28. Təqsirsizlik prezumpsiyası;
29. Məhkəməyə təkrar müraciət hüququ;

30. Qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi;
31. Zərərin ödənilməsini tələb etmək hüququ.

Uşaq hüquqları haqqında AR-nın Qanunu isə UHK-na uyğun şəkildə aşağıdakı hüquqları nəzərdə tutur: Uşaqların hüquq bərabərliyi, Uşağın yaşamaq və inkişaf etmək hüququ, Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ, Uşağın ad və vətəndaşlıq almaq hüququ, Uşağın tərbiyə almaq hüququ, Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ, Uşağın zəruri maddi təminat hüququ, Uşağın vicdan, fikir və söz azadlığı, Uşağın məlumat azadlığı, Uşağın ailədə yaşamaq hüququ, Valideynlərindən ayrı yaşayan uşağın hüququ, Valideynlərin hüquq və vəzifələri, Uşağın mənzil hüququ, Uşağın vərəsəlik və valideynlərinin əmlakı hesabına saxlanma hüququ, Uşağın təhsil almaq hüququ, Fitri istedada malik uşaqlara dövlət qayğısı, Uşağın əmək hüquqları, Uşağın istirahət hüququ, Uşaqların ictimai təşkilatlarda birləşmək hüququ, Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ, Uşağın istismardan və zərərli təsirlərdən mühafizəsi, Uşaqlara sosial yardımlar, Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi, İnternat müəssisələri məzunlarının müdafiəsi.

Doğulduqdan sonra uşaqlar vətəndaşlıq hüququ, ad, soyad əldə etmək, ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq, öz hüquq və qanuni maraqlarının onlar tərəfindən müdafiəsinin təmin edilməsi hüququna malik olmaqla yanaşı mülki hüquqa əsasən həm də hüquq və vəzifələr daşımaq səlahiyyəti qazanırlar.

***14 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti*.**

7 yaşından 14 yaşınadək olan şəxslərin aşağıdakı əqdləri müstəqil bağlamaq ixtiyarı vardır *(AR-sı Mülki Məcəlləsinin 29.2-ci maddəsi):*

- xırda məişət əqdləri;

- əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş elə əqdlər ki, onlardan əmələ gələn hüquqların notariat qaydasında təsdiqlənməsi və ya dövlət qeydiyyatına alınması tələb olunmur;
- qanuni nümayəndənin özünün və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdlər.
- 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın əqdləri, o cümlədən müstəqil bağladığı əqdlər üzrə əmlak məsuliyyətini onun valideynləri, övladlığa götürənlər və ya qəyyum daşıyır, bu şərtlə ki, həmin şəxslər öhdəliyin onların təqsiri üzündən pozulmadığını sübuta yetirməsinlər. Qanuna uyğun olaraq bu şəxslər azyaşlıların vurduqları ziyan üçün də cavabdehdirlər.

**Qeyd:** Yuxarıda göstərilmiş əqdlər istisna olmaqla, 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdləri onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər. Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan onun valideynləri, övladlığa götürənlər və qəyyumlar tərəfindən bəyənildikdə etibarlıdır.

***14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti:***

14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar aşağıda göstərilənlər istisna olmaqla, əqdləri öz qanuni nümayəndələrinin - valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə bağlayırlar. Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan valideynləri, övladlığa götürənlər və ya himayəçi tərəfindən bəyənildikdə də etibarlıdır *(Mülki Məcəllənin 30.1-ci maddəsi):*

14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların ixtiyarları var ki, müstəqil surətdə *(Mülki Məcəllənin 30.2-ci maddəsi):*

- öz qazancı, təqaüdü və digər gəlirləri barəsində sərəncam versin;
- elm, ədəbiyyat və ya incəsənət əsərinin, ixtiranın və ya qanunla qorunan digər əqli fəaliyyət nəticəsinin müəllifi hüquqlarını həyata keçirsin;
- xırda məişət əqdləri və bu Məcəllənin 29-2-ci maddəsində nəzərdə tutulan digər əqdlər bağlasın. On altı yaşı tamam olduqda isə kooperativ üzvü olsunlar.

14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar Mülki Məcəllənin 30.1 və 30.2-ci maddələrinə uyğun bağladıqları əqdlər üzrə müstəqil surətdə əmlak məsuliyyəti daşıyırlar. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar isə vurduqları ziyana görə Mülki Məcəlləyə uyğun məsuliyyət daşıyırlar.

Yetərli əsaslar olduqda məhkəmə valideynlərin, övladlığa götürənlərin və ya himayəçinin və ya qəyyumluq və himayəçilik orqanının vəsatəti ilə 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanın (əgər, o tam həcmdə fəaliyyət qabiliyyəti əldə etməyibsə) öz qazancı, təqaüdü və ya digər gəlirləri barəsində müstəqil sərəncam vermək hüququnu məhdudlaşdıra və ya ala bilər *(Mülki Məcəllənin 30.4-cü maddəsi).*

Uşaqların hüquq və qanuni maraqları pozulduqda, o cümlədən, uşağın təlim və tərbiyəsi ilə bağlı valideynlər (hər hansı biri) öz borcunu yerinə yetirmədikdə, və ya valideyn hüquqlarından sui-istifadə etdikdə, uşaq müvafiq səlahiyyətli orqana, 14 yaşına çatdıqda isə məhkəməyə öz hüquqlarının müdafiəsi ilə bağlı müraciət etmək hüququna malikdir.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatına dövlət zəmanət verir.

# UŞAQ HÜQUQLARI KONVENSİYASI

Uşaq Hüquqları Konvensiyası (UHK) - BMT tərəfindən qəbul edilmiş bir saziş, sənəd olaraq, dünyanın hər bir yerində yaşayan uşaqlara konvensiya ilə müəyyən edilmiş hüquqları təmin edir. Konvensiya həm də uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyənləşdirir.

Konvensiyanın prinsip və standartları bütün ölkələr tərəfindən tanınmış və universal olaraq qəbul edilmişdir. Lakin sənədin formal ratifikasiyası ilə onun effektiv tərzdə həyata keçirilməsi və istifadəsi arasında böyük vaxt çərçivəsi var.

Konvensiyanı ratifikasiya etmiş, yəni qəbul etmiş bütün dövlətlər öhdəliklər götürür və öhdəlikləri mütləq yerinə yetirməlidirlər. Dövlətlər bu məqsədlə BMT-nin daimi və xüsusi təşkil edilmiş (UHK-nin 43-cü maddəsi əsasında) Uşaq Hüquqları Komitəsinə 5 ildən bir uşaq hüquqlarının təbliği, müdafiəsi və ölkədəki vəziyyətinə dair hesabat verirlər.

Konvensiyanın həyata keçirilməsi ilə əlaqədar bütün öhdəliklər ilk növbədə sənədin iştirakçısı olan hər bir dövlətin üzərinə düşür. Təəssüflər olsun ki, çox az ölkələr bu öhdəliklərə ciddi münasibət bəsləyir və icra edirlər.

Hazırda UHK uşaq hüquqlarını geniş şəkildə nəzərdə tutan universal sənəddir və uşaq hüquqlarına dair bütün məsələlər bu beynəlxalq sənəddə cəmləşmişdir.

Uşaq hüquqlarının əks olunduğu və ölkəmizin də qoşulduğu Uşaq Hüquqları Konvensiyası 54 maddədən ibarətdir. Konvensiyada əks olunmuş bütün hüquqlar 4 kateqoriyaya bölünməklə uşaqların mövqeyini əks etdirir: Konvensiya həm də uşaqların iqtisadi, sosial, mədəni və hətta siyasi hüquqlara malik olmasını vurğulayır.

**Uşaq Hüquqları Konvensiyasının bölündüyü dörd kateqoriya:**

***Yaşamaq hüquqları:*** Bu kateqoriyaya uşaqların yaxşı yaşamaq və bunun üçün lazımi tələbatları təmin etmək hüquqları aiddir. Bura adekvat yaşayış standartları: qida, sığınacaq və tibbi yardıma malik olmaq kimi hüquqlar aiddir.

***Müdafiə hüquqları:*** Bu hüquqlar uşaqları müxtəlif növ zorakılıq və istismardan qorumalarını, onların pis rəftar və hörmətsizlikdən müdafiəsindən ibarətdir. Məsələn: qaçqın və məcburi köçkün uşaqlara xüsusi qayğının göstərilməsi, zorakılıq, cəzalandırma, hərbi münaqişələrə cəlb edilmə, uşaq əməyinin istismarı və digər hallardan uzaq tutulma və qarşısının alınması kimi məsələləri əhatə edir.

***İnkişaf hüquqları:*** Bu hüquqlar uşaqların öz potensiallarının tam inkişafına olan ehtiyaclarını təmin edir. Buraya, təhsil hüququ, istirahət hüququ, mədəni tədbirlərə cəlb edilmək və iştirak etmək, məlumat əldə etmək, fikir, vicdan və din azadlıqları və s. aiddir.

***İştirak hüquqları:*** Bu hüquqlar uşaqlara yaşadıqları cəmiyyətin həyatında fəal iştirak etməyə, assosiasiya və təşkilatlarda birləşmək imkanı yaradır. Bunlar: fikir və söz azadlığı, ictimai təşkilatlarda birləşmək və assosiasiyalar yaratmaq, dinc yığıncaqlar keçirmək və s. məsələləri əhatə edir.

Qeyd olunan kateqoriyalara daxil olan hüquqları növbəti keçidimizdə məhz 18 yaşadək şəxslərin hüquqlarının cəmləndiyi Uşaq Hüquqları Konvensiyasının maddələrini şəkillər əsasında şərh edərkən daha yaxşı fərqləndirmək mümkün olacaq.

Şəkillər əsasında daha aydın başa düşülməsi üçün qısa təsvirlərlə verilmiş hüquqlarla yanaşı, biz həmin sənəddə məhz uşaqlara ünvanlanan, böyüklərin əməl etməli olduqları və dövlətin təmin etmək üçün götürdüyü öhdəliyi nəzərdə tutan hüquqları öyrənəcəyik.

# UŞAQ HÜQUQLARI KONVENSİYASI

*Hüquqların şəkillər əsasında qısa şərhi*

## Maddə 1 — Uşaqlıq yaşının təyin edilməsi




18 yaşına çatmamış şəxs uşaq sayılır. O hallar istisna təşkil edir ki, həmin uşaq barəsində tətbiq edilə bilən milli qanunvericiliyə görə o, yetkinlik yaşına daha əvvəl çatmamış olsun.

## Maddə 2 — Bərabərlik hüququ - Ayrı-seçkiliyin qarşısının alınması



Bütün hüquqlar istisnasız olaraq uşaqların hamısına şamil edilir. Hər bir uşaq, onun varlı və ya kasıb olmasından, dərisinin rəngindən, dini, siyasi əqidəsindən asılı olmayaraq bu Konvensiyada nəzərdə tutulan hüquqlara malikdir. Dövlət uşağı hər hansı formada ayrı-seçkilikdən qorumağa və onun hüquqlarını qorumaq üçün lazımi tədbirlər görməyə borcludur.

## Maddə 3

## Uşaq hüquqlarının ən yaxşı formada təmin edilməsi



Uşaq barəsində bütün tədbirlərdə onun mənafeləri tam həcmdə nəzərə alınmalıdır. Əgər uşağa müvafiq qayğı üçün məsuliyyət daşıyan valideynlər və ya digər şəxslər bu qayğını göstərmirlərsə, dövlət uşağı müvafiq qayğı ilə təmin etməlidir.

## Maddə 4

## Hüquqların həyata keçirilməsi



Dövlət bu Konvensiyada nəzərdə tutulan hüquqların həyata keçirilməsi üçün mümkün tədbirləri görməlidir.

## Maddə 5

## Ailədə tərbiyə və uşağın inkişaf etməkdə olan bacarığı



Uşağın inkişaf etməkdə olan öz bacarığına müvafiq surətdə tərbiyə edilməsi işində dövlət valideynlərin və genişləndirilmiş ailənin hüquqlarına və məsuliyyətinə hörmət bəsləməlidir.

## Maddə 6

## Yaşamaq hüququ



Hər bir uşaq yaşamaq üçün ayrılmaz hüquqa malikdir və buna görə də dövlət uşağın sağ qalmasını və inkişafını təmin etməyə borcludur.

## Maddə 7 — Ad və vətəndaşlıq almaq hüququ



Uşaq doğulduqda ona ad verilməsi hüququna malikdir. Uşaq onun valideynlərin kim olduğunu bilməsi üçün, mümkün halda, vətəndaşlıq almaq, habelə valideynləri tərəfindən qayğı görmək hüququna malikdir.

**Ad** - bizim üçün fərdiləşir və onu heç kim əlimizdən ala bilməz!

**Vətəndaşlıq** - isə sənin hansı ölkəyə mənsubluğunu bildirir.

## Maddə 8 — Fərdiliyin qorunub saxlanılması



Dövlət uşağın fərdiliyinin əsas cəhətlərini qorumağa və zəruri halda bərpa etməyə borcludur. Buraya ad, vətəndaşlıq və ailə əlaqələri də daxildir.

Hər bir uşaq doğulduqdan sonra qeydə alınır, razılıq əsasında valideynlərindən birinin soyadını götürür. Valideynlər həmçinin uşağa ad qoyurlar.

Ad, soyad, vətəndaşlıq – bunlar fərdiliyin elementlərindəndir və sənin kim olduğunu müəyyən edir.

## Maddə 9 Valideynlərlə yaşamaq hüququ



Uşaq öz valideynləri ilə yaşamaq hüququna malikdir. Validevnlərdən ayrılmaq isə məhkəmə və səlahiyyətli qurumların uşağın ən yaxşı mənafeyi naminə labüd bildikləri halda mümkündür. Bu halda isə uşaqlar dövlətin himayəsində olurlar.

Uşaq valideynlərindən biri ilə və ya hər ikisi ilə ayrıldıqda onlarla əlaqə saxlamaq hüququna malikdir.

## Maddə 10 Ailənin qovuşması



Ailənin qovuşması və ya uşaqla valideynlər arasında şəxsi münasibətlərin saxlanması məqsədilə uşaqlar və onların valideynləri hər hansı ölkəni tərk etmək və öz ölkəsinə getmək hüququna malikdilər.

## Maddə 11

## Uşağın yerinin qanunsuz dəyişdirilməsi və qaytarılması



Dövlət valideynlərdən birinin və ya başqa şəxslərin uşağın oğurlanmasının, yaxud xaricdə saxlanmasının qarşısını almağa və belə hallarda lazımi tədbirlər görməyə borcludur.

## Maddə 12

## Uşağın baxışları



Uşaq öz baxışlarını azad ifadə etmək hüququna malikdir, özü də həmin uşaqla bağlı hər hansı məsələlərin həlli zamanı bu baxışlara diqqət yetirilməlidir.

Uşaqların dinlənilmək hüququ onlara aid məsələlərdə onların fikrinin nəzərə alınması deməkdir. Öz fikrinin dinlənilməsini istəyirsənsə, gərək sən də başqalarının fikirlərini dinləməyi və nəzərə almağı bacarasan.

## Maddə 13 Rəyi ifadə etmək azadlığı



Uşaq öz rəylərini ifadə etmək və sərhədlərdən asılı olmayaraq, informasiya almaq, informasiya və ideyalar vermək hüququna malikdir.

## Maddə 14 Fikir, vicdan və din azadlığı



Dövlət valideynlər tərəfdən müvafiq rəhbərlik şəraitində uşağın fikir, vicdan və din azadlığına hörmət etməyə borcludur.

## Maddə 15 Birləşmək azadlığı



Uşaq digər şəxslərlə görüşmək və assosiasiyalara daxil olmaq və ya onları yaratmaq hüququna malikdir.

Uşaqların xeyirxah əməllər üçün birləşərək kiçik cəmiyyətlər yaratmağa hüquqları vardır. Əlbəttə belə birləşmə məqsədi qanunauyğun olmalıdır.

## Maddə 16 Şəxsi toxunulmazlıq hüququ



Uşaqlar onların şəxsi, ailə və ev həyatına, habelə yazışmasına qarışmaqdan müdafiə, böhtàn və şərdən müdafiə olunmaq hüququna malikdirlər.

Bir kəsə məxsus məlumatların yayılması, şəxsi işinə və şəxsi həyatına müdaxilə qanunvericiliklə qadağan olunur.

## Maddə 17 Məlumat azadlığı



Dövlət uşaqların müxtəlif mənbələrdən informasiya və materiallar almaq imkanını təmin etməli, uşağın sosial və mədəni inkişafına təkan verən materialların kütləvi informasiya vasitələri ilə yayılmasına rəvac verməli və uşaqların zərərli informasiyadan qorunması üçün tədbirlər görməlidir.

## Maddə 18 Valideynlərin məsuliyyəti



Valideynlər uşağın tərbiyəsi üçün əsas məsuliyyəti birlikdə daşıyırlar, dövlət isə onlara bu işdə himayə göstərməlidir. Dövlət uşaqların tərbiyə-sində valideynlərə lazımi kömək etməlidir.

## Maddə 19

## Sui-istifadə və laqeyd rəftar hallarından müdafiə



Dövlət uşağı valideynlər tərəfindən və ya uşağa qayğı üçün məsuliyyət daşıyan digər şəxslər tərəfindən onunla hər hansı formada pis rəftardan qorumalı və sui-istifadə hallarının qarşısının alınması və zərərçəkənlərin müalicəsi üçün müvafiq sosial proqramlar hazırlamalıdır.

## Maddə 20

## Valideynlərindən ayrı yaşayan uşağın hüququ



Dövlət ailə mühitindən məhrum olmuş uşağın müdafiəsini təmin etməyə və ailə qayğısına alternativ qayğını, yaxud belə hallarda uşağın onlara baxılan müvafiq tərbiyə müəssisəsində yerləşdirilməsini təmin etməyə borcludur. Bu vəzifələrin yerinə yetirilməsi üçün göstərilən səylər zamanı uşağın mədəni məsuliyyəti hökmən nəzərə alınmalıdır.

## Maddə 21 Uşağın övladlığa götürülməsi



Uşağın övladlığa götürülməsinin qəbul edildiyi və yaxud ona icazə verildiyi ölkələrdə övladlığa götürmə uşağın ancaq ən yaxşı mənafeləri naminə və səlahiyyətli orqanların icazəsi ilə, habelə uşaq üçün təminatlar olduğu halda həyata keçirilə bilər.

## Maddə 22 Qaçqın uşaqların hüquqları



Qaçqın uşaqlar və ya qaçqın statusu almağa çalışan uşaqlar üçün xüsusi müdafiə təmin edilməlidir. Dövlət bu cür müdafiə və köməyi təmin edən səlahiyyətli təşkilatlarla əməkdaşlıq etməyə borcludur.

Qaçqınlar-münaqişə nəticəsində bir ölkədən digər ölkəyə qaçmağa məcbur olanlardır.

Münaqişə zamanı bir dövlət digərinin ərazisini işğal edirsə, bu zaman işğal olunmuş hissədən ölkənin digər hissəsinə köçmüş insanlar məcburi köçkünlər adlanır.

## Maddə 23 Əlil uşaqların hüquqları



Əlil uşaq onun maksimum müstəqilliyi və sosial inteqrasiyasını təmin edən şəraitdə tam dəyərli və layiqli həyat sürməyinə kömək edən xüsusi qayğı, təhsil və hazırlıq hüququna malikdir.

Bu Konvensiyada nəzərdə tutulan hüquqlar digərləri kimi əlil uşaqlara da eyni dərəcədə şamil olunur.

## Maddə 24 Sağlamlığın qorunması hüququ



Uşaq ən yüksək standartlara müvafiq olan tibbi yardım hüququna malikdir, elə yardım ki, real surətdə həyata keçirilə bilər.

Dövlətlər ilk tibbi-sanitar yardımın göstərilməsinə, xəstəliklərin profilaktikasına, sanitariya təbliğatına və uşaqlar arasında ölüm hallarının azalmasına xüsusi diqqət yetirməlidirlər.

Onlar bu sahədə beynəlxalq əməkdaşlığı həvəsləndirməli və hər şey etməlidirlər ki, heç bir uşaq səmərəli səhiyyə xidmətlərindən bəhrələnmək imkanından məhrum olmasın.

## Maddə 25

## Valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqları



Valideyn himayəsindən məhrum olmuş, baxılmaq, müdafiə və ya müalicə edilmək məqsədi ilə dövlət tərəfindən qəyyumluğa, himayəçiliyə verilmiş uşaq qəyyumluğun və himayəçiliyin müntəzəm surətdə yoxlanılması hüququna malikdir.

## Maddə 26

## Sosial təminat hüququ



Uşaq sosial təminat imtiyazlarından, o cümlədən də sosial sığortadan istifadə etmək hüququna malikdir.

## Maddə 27 Uşağın inkişaf hüququ



Hər bir uşaq özünün fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsi hüququna malikdir. Lazımi həyat səviyyəsinin təmin edilməsi üçün əsas məsuliyyəti valideynlər daşıyırlar. Dövlətin vəzifəsi bu məsuliyyətin həyata keçirilməsi üçün müvafiq şərait yaratmaqdan ibarətdir.

Dövlətin vəzifələrinə valideynlərə və onların uşaqlarına maddi yardım göstərilməsi də daxil ola bilər.

## Maddə 28 Təhsil hüququ



Bütün uşaqlar təhsil hüququna malikdir, buna görə də dövlətin vəzifəsi pulsuz və icbari ibtidai təhsili təmin etməkdən, hər bir uşağın ala biləcəyi orta təhsil verilməsini həvəsləndirməkdən, bilik əsasında hamının ali təhsil almaq imkanını təmin etməkdən ibarətdir. Məktəb intizamına uşağın hüquqlarının nəzərə alınması və onun ləyaqətinə hörmət bəslən-məsi şərti ilə təmin olunmalıdır. Dövlət bu hüququn həyata keçirilməsi məqsədi ilə beynəlxalq əməkdaşlıq etməlidir.

## Maddə 29 Təhsilin məqsədləri



Təhsil şəxsiyyətin, əqli və fiziki qabiliyyətin maksimum inkişaf etdirilməsinə yönəldilməlidir. Təhsil uşağı azad cəmiyyətdə fəal yaşlı şəxs həyatına hazırlamalı öz valideynlərinə, mədəni özgürlüyə, dilə və dəyərlərə, başqalarının mədəni ənənələrinə və dəyərlərinə hörmət tərbiyə etməlidir.

## Maddə 30 Milli mənsubiyyət hüququ



Milli azlıqlara mənsub olan uşaqlar öz mədəniyyətindən, ana dilindən istifadə etmək və öz dininə etiqad bəsləmək hüququna malikdirlər.

## Maddə 31 İstirahət hüququ



Uşaq istirahət, asudə vaxt keçirmək, mədəni həyatda və yaradıcılıq həyatında iştirak etmək hüququna malikdir.

## Maddə 32 Uşaq əməyi



Uşağa onun sağlamlığı, təhsili və ya inkişafı üçün maneə törədən iş tapşırıldıqda, o, müdafiə hüququna malikdir.

Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır.

Dövlət işə qəbul üçün minimal yaş həddi təyin etməli və əmək şəraiti barəsində tələblər qoymalıdır.

## Maddə 33

## Narkotik vasitələrdən istifadənin qarşısının alınması



Uşaqlar narkotik vasitələrdən, psixotrop maddələrdən qanunsuz istifadədən, habelə onların belə maddələrin istehsalına və bu maddələrlə alverə cəlb olunmasından müdafiə edilmək hüququna malikdirlər.

## Maddə 34

## Uşağın cinsi istismardan və zərərli təsirlərdən mühafizəsi



Dövlət uşağı cinsi istismardan və pis yola çəkilməkdən, o cümlədən də fahişəlikdən və pornoqrafiyadan qorumalıdır.

## Maddə 35 — Uşaq alverinə qarşı mübarizə



Dövlətin vəzifəsi uşaqların oğurlanması, onlarla alver edilməsi və qaçaqmalçılıqda istifadə olunmanı hallarının qarşısını almaq üçün var qüvvə ilə səy göstərməkdən ibarətdir.

BMT-nin məlumatına əsasən hər il 4 milyondan artıq şəxs insan alverinin qurbanı olur.

İnsan alveri gəlir gətirir - uşaqlar, qadınlar, kişilər dəfələrlə satılır və istismar edilirlər.

## Maddə 36 — İstismarın digər formalarından müdafiə hüququ



Uşaqlar onların rifahının hər hansı sərhədlərinə zərər vuran və 32, 33, 34 və 35-ci maddələrdə əhatə edilməmiş olan bütün formalarda istismardan müdafiə hüququna malikdirlər.

## Maddə 37

## Uşaqların pis rəftar, işgəncə və qanunsuz azadlıqdan məhrum-etmədən müdafiə hüququ



Heç bir uşaq işgəncələrə, amansız rəftara və cəzaya, qanunsuz həbsə və ya azadlıqdan məhrum edilməyə məruz qalmamalıdır.

Uşaqlara qarşı pis rəftar hallarına heç vaxt haqq qazandırmaq və bəraət vermək olmaz, yalnız belə halların baş verdiyi və ya baş verə biləcəyi halların ilkin mərhələsində onun qarşısını almaq üçün lazımi üsul və vasitələrdən istifadə etmək lazımdır.

18 yaşınadək olan şəxslər cəzalandırılarkən azadlıqdan məhrumetmə cəzası onların yaşına uyğun təyin edilir. Ölüm cəzası və ömürlük həbs cəzasının uşaqlar barəsində tətbiqi qadağan edilmişdir.

Azadlıqdan məhrum edilmiş olan hər hansı uşaq saxlanma yerlərində yaşlılardan ayrı saxlanılmalıdır. Əgər hesab edilsə ki, bu cür ayrı saxlanma uşağın ən yaxşı mənafelərinə ziddir, onda bu, istisna təşkil edən haldır. Tutulmuş olan uşaq hüquqi və digər yardım hüququna, habelə öz ailəsi ilə əlaqə saxlamaq hüququna malikdir.

## Maddə 38

## Hərbi münaqişələr dövründə uşaqların müdafiəsi



İştirakçı dövlətlər bütün mümkün tədbirlərin görülməsini təmin etməlidirlər ki, 15 yaşına çatmamış olan uşaqlar hərbi əməliyyatlarda birbaşa iştirak etməsinlər. 15 yaşınadək olan heç bir uşaq silahlı qüvvələrdə hərbi xidmətə çağırılmamalıdır. Beynəlxalq hüququn müvafiq müddəalarına uyğun olaraq dövlətlər silahlı münaqişələrdən ziyan çəkmiş olan uşaqlara qayğını və onların müdafiəsini təmin etməlidirlər.

## Maddə 39

## Zərərçəkmiş uşaqların bərpaetməyə (reabilitasiyaya) olan hüquqları



Dövlət silahlı münaqişədən, işgəncələrdən, etinasızlıqdan, pis rəftardan və ya istismardan zərər çəkmiş olan uşağın sağalmasının və sosial reinteqrasiyasını təmin etmək məqsədilə onu lazımi müalicə ilə təmin etməyə borcludur.

## Maddə 40

## Yetkinlik yaşına çatmayan hüquq pozucuları barədə ədalət mühakiməsinin icrası



Qanunu pozmuş olan uşaqlar elə rəftar hüququna malikdirlər ki, bu rəftar həmin uşaqlarda ləyaqət və mənlik hissinin inkişafına kömək edir. Həmin zaman uşağın yaşı nəzərə alınır və bu da onun sosial reinteqrasiyasına xidmət edir. Uşaq mühakimə olunan zaman əsas təminatlar, habelə hüquqi müdafiə və digər yardım hüququna malikdir ki, bu da ədalət mühakiməsi proseslərində təmin olunmalıdır.

## Maddə 41

## Uşaqların maraqları naminə qanunvericiliyin ən yüksək normalarının tətbiqi



Müvafiq milli və beynəlxalq qanunlarda uşağın hüquqları ilə bağlı normalar bu Konvensiyada müəyyən edilmiş normalardan yüksək olduqda ən yüksək normalar tətbiq edilir.

## Maddə 42

**İştirakçı dövlətlər lazımi və təsirli vasitələrdən istifadə edərək, Konvensiyanın prinsipləri və müddəaları barədə istər yaşlılara, istərsə də uşaqlara geniş məlumat verməyi öhdələrinə götürürlər.**



Uşaq Hüquqları Konvensiyası təsdiq edir ki, uşaqlar da digər insanlar kimi hüquqları olan şəxslərdir. Və qərar qəbul etmədə onların fikirləri mütləq nəzərə alınmalıdır. Gəlin unutmayaq ki, yaşlarının və təcrübələrinin az olmasına baxmayaraq uşaqlar özlərinə məxsus müxtəlif bacarıq və intellekt səviyyəsinə malikdirlər.

## Maddə 43-54

**Qoşulma, əməl etmə və qüvvəyə minmə**

Uşaq hüquqları Konvensiyası 54 maddədən ibarətdi. 43-54-cü maddələrdə dövlətlərin Konvensiyaya qoşulma, sənədin icrası ilə bağlı texniki məsələlərin həyata keçməsi haqqında danışılır.

(I) Dövlət istər yaşlıları, istərsə də uşaqları bu konvensiyada nəzərdə tutulan hüquqlarla tanış etməyə borcludur.

(II) Bu Konvensiyanın iştirakçısı olan dövlətlərin məruzələrinə baxmaq üçün on ekspertlərdən ibarət tərkibdə Uşaq Hüquqları Komitəsi yaradılması; həmin dövlətlər öz məruzələrini bu Konvensiyanı təsdiqlədikdən iki il sonra, bundan sonra isə beş ildən bir təqdim etməlidirlər.

(III) İştirakçı dövlətlər ictimaiyyəti öz məruzələri ilə geniş tanış etməlidirlər.



(IV) Komitə uşaq hüquqları ilə bağlı konkret məsələlər üzrə xüsusi tədqiqatlar aparılmasını təklif edə bilər və onların nəticələrini maraqlı olan hər bir iştirakçı dövlətin və Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin nəzərinə çatdıra bilər.

(V) "Konvensiyanın səmərəli həyata keçirilməsinə kömək etmək və beynəlxalq əməkdaşlığa təkan vermək" məqsədilə BMT-nin ixtisaslaşdırılmış idarələri - Beynəlxalq Əmək Təşkilatı (BƏT), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Təhsil, Elm və Mədəniyyət məsələləri Təşkilatı (YUNESKO) və YUNİSEF Uşaq Hüquqları Komitəsinin iclaslarında iştirak etmək imkanına malik olacaqlar. Onlar «səlahiyyətli» sayılan hər hansı digər orqanlarla, o cümlədən də BMT yanında məsləhətçi statusu olan qeyri-hökumət təşkilatları və BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının İdarəsi ilə birlikdə Komitəyə müvafiq informasiya verə və Konvensiyanın optimal surətdə yerinə yetirilməsinə dair sorğular ala bilərlər.

# Mövzu 6: Uşağın vəzifələri

Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Hər kəsin üzərinə düşən vəzifələr isə əsasən mənsub olduğu dövlətin əsas qanunu, Konstitusiyası ilə qoyulur. Ölkəmizdə də hər bir vətəndaşın üzərinə vəzifələr yalnız Azərbaycan Respublikasının Konstitusiyası və ya müvafiq qanunla qoyula bilər. Ölkə Konstitusiyasından başqa Uşaqlar üçün vəzifələr müəyyən edən qanun qismində "Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu" çıxış edir.

Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Qanunu bilməmək məsuliyyətdən azad etmir. Ölkə Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına heç kəs məcbur edilə bilməz.

Uşaqlar onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının

məhdudlaşdırılmasına yol verilmir və üzərlərinə heç bir vəzifə düşmür.

Bütün bunlara baxmayaraq, nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

"Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu"nun 16-cı maddəsinə əsasən Uşağın əsas vəzifələri aşağıdakı kimi müəyyən olunur:

Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.



Bu vəzifələrin uşaq tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail olunur.

Bütün uşaqlar yalan danışmaqdan və yalan məlumat verməkdən çəkinməyi də bir vəzifə olaraq özləri üçün müəyyən etməlidirlər. Çünki bunların məsuliyyət yaradan tərəfləri də vardır. Hər hansı bir hadisə haqqında yalan məlumat vermə ciddi qanun pozuntusu sayılır. Məsələn: AR-sı Daxili İşlər

Nazirliyinin "102 Xidməti"nə və ya Fövqaladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin "112 zəng mərkəzi"nə verilən məlumatların yalan olduğu təsdiqləndikdə yaşından asılı olmayaraq həmin məlumatı verən şəxsin əməli üzrə cinayət işi başlanır və cəzalanadırılırlar.

Hər bir uşaq həm də şagird kimi dərsə davamiyyətli, dərsdə diqqətli olmalı, intizamlı olaraq dərslərini yaxşı oxumalı, müəllimlərin və böyüklərin sözlərinə vəzifələri olaraq qulaq asmalıdır.

Təhsil müəssisəsinin rəhbərliyi uşaqların məktəb qaydalarını pozduqları və ya öz vəzifələrinə etinasızlıq göstərdikləri, zərərli vərdişlərə qurşandıqları hər bir halda dərhal valideynlərinə və ya onları əvəz edən şəxslərə bu haqda məlumat verməlidirlər.

"Uşaq Hüquqları haqqında Azərbaycan Respublikası Qanunu"nun 19-cu maddəsi valideynlərin də hüquq və vəzifələrini müəyyən edir.

Valideynlərin uşağın tərbiyəsində bərabər hüquq və vəzifələri vardır. Onlar uşağı sağlam böyütməli, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etməli, müstəqil həyata hazırlamalıdırlar. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsas vəzifələridir.

Valideynlərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının qarışmasına yalnız qanunla nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilə bilər.

Uşaqların vurduğu maddi ziyana görə onun valideynləri, övladlığa götürənlər, qəyyumlar və ya himayəçilər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Unutmayaq ki, hər bir şəxs dövlətlə yanaşı, öz doğmaları, qonşuları, ümumən insanlar qarşısında müəyyən vəzifə

daşıyırlar. Hüquqlar və vəzifələr bir-birini müşayiət etməklə yanaşı, sıx əlaqədədirlər. Bütün hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar.

## Mövzu 7: Uşaqlara qarşı zorakılıq: anlayışı və onunla mübarizə

Hər bir uşağın şəxsi toxunulmazlıq və zorakılığın bütün formalarından müdafiə hüququ vardır. Uşaqlara qarşı zorakılıq coğrafi, irqi, sinfi, dini sərhədləri aşır, evlərdə, məktəblərdə, küçə, iş, istirahət yerləri, qayğı və qapalı müəssisələrdə, hətta ailədə baş verir. Bu hərəkətlərin törədiciləri müxtəlif yaşlı insanlar, valideynlər, ailə üzvləri, müəllimlər, qəyyum və ya himayəçilər, hüquq-mühafizə orqanları və digər yaşlı uşaqlardır.

Uşaqlara qarşı törədilmiş zorakılıq hallarına heç vaxt haqq qazandırmaq və bəraət vermək olmaz, yalnız belə halların ilkin mərhələsində onun qarşısını almaq üçün lazımi üsul və vasitələrdən istifadə etmək lazımdır.

Fiziki cəzalandırmaya verilən təriflərdən biri belədir: "Uşağı cəzalandırmaq üçün atılan istənilən addım, əgər böyüklərə qarşı tədbiq edilsəydi qeyri-qanuni əməl olaraq qiymətləndiriləcəkdisə onda bu, fiziki cəzalandırmadır". Böyüklər uşaqları döyərkən şapalaq, sillə kimi hərəkətlər və alçaldıcı sözlərdən istifadə edirlər. Uşağa münasibətdə bunlar zorakılıqdır.

BMT-nin Uşaq Hüquqları Konvensiyasının monitorinq qurumu olan Uşaq Huquqları uzrə Komitə (UHK) qeyd edir ki, insan hüquqları bütün fiziki cəzalandırmaların, habelə yüngül və digər qəddar və alçaldıcı cəzalandırmaların ləğv edilməsini tələb edir və fiziki cəzalandırmaya aşağıdakı tərif verilmişdir: *Fiziki gücün tətbiq edildiyi, yüngül olsa belə, müəyyən səviyyədə ağrı və ya narahatlıq vermək məqsədi daşıyan istənilən cəza fiziki cəzalandırmadır. Buraya daha cox uşaqların əl ilə (sillə, şapalaq və s.) və ya hər hansı alətlə (qamcı, şallaq, kəmər, ayaqqabı, taxta qaşıq və s.) doyulməsi daxildir.* Uşaqların təpiklənməsi, silkələnməsi, hündür yerdən atılması, cırmaqlanması, çimdiklənməsi, yumruqlanması, saçının yolunması və ya qulağının dartılması, uşaqların narahat vəziyyətdə dayanmağa məcbur edilməsi, yandırılması, qaynar su ilə pörtlənməsi və ya məcburi yedirtmə (məsələn uşağın ağzını cəza məqsədi ilə sabunla yumaq və yaxud onları acı istiot yeməyə məcbur etmək) də buraya daxildir.




Fiziki cəzalandırma daimi alçaltmadır. Bundan əlavə cəzalandırmanın digər qeyri-fiziki formaları movcuddur ki, onalar da qəddar və alçaldıcıdı olmaqla UHK-na ziddir. Buraya uşağı alçaldan, hörmətdən salan, ləkələyən, qorxudan, hədələyən və ya lağa qoyan cəzalandırma formaları daxildir. Zorakılığa bir kəsin öz gücündən, yaxud xidməti vəzifəsindən istifadə edərək başqalarını qəsdən (təsadüfi yox) incitməsi kimi də tərif verilir (Məsələn: uşaqların olduğu təhsil, səhiyyə və digər müəssisələrdə).

Ümumilikdə isə uşaqlara qarşı zorakılığın bir çox formaları mövcuddur:

• Fiziki zorakılıq - Uşaqlara qarşı bir çox fiziki zorakılıqlar ağır xəsarətə, ölümə, yaxud uzunmüddətli zədəyə səbəb olur. Bu adətən uşaqların davranışını düzəltmək üçün istifadə edilir. Kobud rəftar və cəza dünyanın hər yerində baş verir. Lakin uşaqlar bildirirlər ki, fiziki və alçaldıcı cəzalarsız da onlar kifayət qədər intizamlı olarlar. Yalnız çox az sayda ölkələrin qanunu evdə uşağa qarşı fiziki cəzanı qadağan edir.

• Emosional zorakılıq - Ailələr uşaqları cəzalandırmaq üçün fiziki zorakılıqdan başqa emosional zorakılıqdan da tez-tez istifadə edirlər. Təhqir, söyüş, hədələmə, uşağı rədd və ya inkar etmək-bunlar da zorakılıq formalarındandır.

• Etinasızlıq - Bu o deməkdir ki, ailələr uşaqların təhlükəsiz və sağlam böyüməsi üçün lazım olan hər şeyi və onları təhlükədən qorumağı təmin edə bilmirlər. Qızlar və əlil uşaqlar etinasızlıq təhlükəsi ilə daim üz-üzədirlər.

• Cinsi zorakılıq - Uşaqlar çox vaxt ailədəki kişilər və oğlanlar tərəfindən cinsi əlaqəyə məcbur edilir, döyülür və narahatlıq doğuran toxunmalara məruz qalır.

Daha erkən yaşda qızların ərə getməyə məcbur edilməsi və ya uşaqlara qarşı zorakılığı özündə cəmləşdirən bir neçə ənənəvi adətlər mövcuddur ki, bu da erkən nikah və zərərli adət-ənənələri də zorakılıq növlərinə aid etmiş olur.

Bir çox uşaqlar zorakılıq barədə məlumat verməkdən qorxur. Bəzən isə ailə üzvlərinin zorakılıq barədə xəbəri olur, lakin bu barədə məlumat vermirlər. Bu isə zorakılığın təkrar edilməsi üçün zəmin yaradır. Bəzən də uşaqlar və böyüklər hüquq-mühafizə orqanlarına inanmır, yaxud zorakılıq baş verərkən sadəcə olaraq müraciət etməyə hüquq-mühafizə orqanı yoxdur deyə düşünürlər. Əlbəttə ki, bu səhv yanaşmadır. Əgər zorakılığın qarşısının alınması üçün məlumat verilməzsə, bu

halda uşaqlara uzun illərdən sonra da hiss olunacaq qədər çox təsir qalacaq.

Bu təsirlər isə aşağıdakilardır:

• Beynin inkişafında dəyişikliklər, xəsarət almalar, sınıqlar kimi fiziki sağlamlıq problemləri;

• Digər insanlarla münasibət qurmaqda çətinliklər;

• Qavrama və ya yaddaş problemləri;

• Öz hiss və fikirlərini digər insanların başa düşəcəyi tərzdə ifadə etməkdə çətinliklər;

• Həyəcan, depressiya, aqressiya, yaxud özünə və ya digərinə qəsd etmələr, zorakılıq və qanun pozuntuları.

Zorakılığın baş verəcəyi yerlər isə ev-ailə, məktəb və digər müəssisələr, saxlanma yerləri, iş yerləri, küçədə və bir qrup insanların əhatəsində ola bilər. Zorakılığa qarşı görülən tədbir ayrıca uşağa yönəldikdə, veriləcək qərarlar həmin uşağın ən yaxşı maraqlarını nəzərə almalıdır. Bu, zorakılığın, yaxud onun təsirlərinin qarşısını almağa çalışmaq deməkdir, vəziyyəti uşaq üçün daha da pisləşdirə bilən tədbirlər görmək deyildir.



Ailə daxilində baş verən zorakılıq adətən "şəxsi" sayılır və kənar adamlar başqalarının işlərinə müdaxilə etmək istəmirlər. Lakin hər bir uşağın hüququna olan hörmət, ləyaqət və fiziki sağlamlıq evin qapısında dayanmır. Dövlət evdən kənarda olduğu kimi uşaqların evdə də müdafiəsi üçün məsuliyyət daşıyırlar.

Zorakılıq ona görə baş verir ki, valideynlər, eləcədə müxtəlif müəssisə işçiləri fiziki cəzanı uşaqların təhsili və böyüdülməsində vacib amil hesab edirlər, yaxud ona görə ki, onlar digər üsullardan məlumatsızdırlar.

Məktəblər təhlükəsiz və uşağın dostu olmalıdır: bütün uşaqlar təhsil hüququna malikdir. BMT-nin Uşaq Hüquqları üzrə Konvensiyasının 28-ci maddəsi bildirir ki, bütün uşaqlar təhsil hüququna malikdir və məktəblərdəki nizam-intizam uşaqların ləyaqətinə hörmət etməlidir. Təhlükəsiz olmayan məktəb təhsil üçün yararlı deyil.

Uşaqların evdən sonra ən çox vaxt keçirdikləri və müdafiə olunduqları ikinci yer məktəbdir Lakin bir çox ölkələrdə fiziki cəza məktəb həyatının bir hissəsidir. Müəllimlər uşaqları dərsləri daha yaxşı hazırlamaq, ya da uşaqlar üzərində hakimiyyətini göstərmək üçün onlara qarşı belə davranırlar. Zorakılıq uşaqlara qorxunu aşılayır, onlara şəxsi təşəbbüslərindən istifadə etməyi öyrətmir. Bu, şagirdlərə münaqişələrin həllində zorakılığın ən yaxşı yol olduğunu aşılayır, onlara səbr və ədalət kimi dəyərləri öyrətmir. Həmçinin, uşaqların özləri haqda pis fikirdə olmasına da gətirib çıxara bilər (Uşaqlara qarşı baş vermiş zorakılıq hallarının araşdırılması üsulları.Bax: səh 185).

Hər kəs zorakılığın qarşısının alınmasında maraqlı olmalıdır. Belə hallarla rastlaşdıqda dərhal valideynlərə, təhsil müəssisəsinin rəhbərliyinə, polisə, prokurorluğa müraciət etmək lazımdır. Müraciətinizə baxılmadıqada isə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) (bax: səh 197) və ya maddi və mənəvi ziyan tələbi də daxil olmaqla məhkəməyə müraciət edilməlidir.

Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları təmin etməlidirlər. Bu orqanlar, birliklər və təşkilatlar öz fəaliyyətlərində uşaq hüquqlarının üstün mühafizəsi prinsipini əsas tutmalıdırlar.

## II Fəsil
## Uşaq hüquqlarını kim qoruyur?

Respublikada hal-hazırda uşaqların hüquqlarının müdafiəsi yerli və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən milli qanunvericiliyə uyğun şəkildə həyata keçirirlir.

Ayrı-ayrı dövlət qurumları isə öz səlahiyyətləri çərçivəsində uşaq hüquqlarının müdafiəsini təmin edir. Bu qurumlar sırasında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilini (Ombudsmanı), Təhsil Nazirliyini, Gənclər və İdman Nazirliyini, Səhiyyə Nazirliyini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini, Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyaları, məhkəmələri, o cümlədən uşaqların müdafiəsinin təmin edilməsində maraqlı olan digər qurumları, yerli və beynəlxalq QHT-ləri, icmaları göstərmək olar.

### Mövzu 1: Ombudsman pozulmuş hüquqları bərpa edir

*ღ Ombudsman uşaqların dostudur. Gəlin ölkəmizin Ombudsmanını, İnsan Hüquqları üzrə Müvəkkili tanıyaq.*

Əvvəlcə ümumilikdə Ombudsman təsisatının mahiyyətinə və yaranma tarixinə nəzər salaq. Bir çox dövlətlərdə müxtəlif adlarla fəaliyyət göstərən Ombudsman təsisatı məhkəmədən kənar insan hüquqlarını müdafiə edən qurum kimi uşaq hüquqlarının müdafiəsi, təbliği, onların pozulmuş hüquqlarının bərpası və bu sahədə ölkədə yeniliklərin tətbiq olunması baxımından geniş fəaliyyət həyata keçirir.

Ümumilikdə isə klassik Ombudsman modeli kimi tanınan qurum 1809-cu ildə İsveçdə yaranmış və inkişaf edərək 100-dən çox avropa və dünya dövlətlərinə yayılmışdır.

XX əsrin birinci yarısında Ombudsman təsisatı özünün təkamül dövrünü keçərək hüquq müdafiə orqanı kimi inkişaf yoluna qədəm qoydu.

İsveç modeli inkişaf edərək ilkin olaraq Skandinaviya ölkələrində təşəkkül tapmağa başlayır. 1919-cu ildə Finlandiyada, 1952-ci ildə Norveçdə, 1953-cü ildə isə Danimarkada Ombudsman təsisatı yaradılır. Bu model bundan sonra tanınmağa başladı və dünya hüquq müdafiə mexanizmləri sırasında öz yerini tapdı.

Ombudsman İnstitutunun müxtəlif modelləri sonralar İspaniya, Portuqaliya, Avstriya, Belçika, İtaliya, Niderland, Fransa, Meksika, İsveçrə və başqa dövlətlərdə yaranmışdır. Şərqi Avropada isə ilk Ombudsman institutu Polşada yarandı və 1988-ci ildən burada vətəndaş hüquqları üzrə Müvəkkil təsisatı fəaliyyət göstərir.

Bu gün müxtəlif ölkələrdə fərqli adlarla fəaliyyət göstərdiyinə baxmayaraq, insan hüquqlarının müdafiəsi ilə məşğul olan şəxs hər bir məkanda ümumən qəbul olunmuş Ombudsman adı ilə tanınır. ***«Ombudsman» sözü isə İsveç mənşəli olub, «ombud» sözündən götürülmüşdür. Orta əsrlərdə İsveç dilində bu söz qüvvətli və ya nüfuzlu, vasitəçi və yaxud digər şəxslərin nümayəndəsi olan şəxs mənasını verirdi.***

Müxtəlif dövlətlərdə insan hüquqlarının bu müdafiə mexanizmi vahid bir təsisat formasında ümumilikdə və ya bir dövlətdə bir neçə olmaqla regional formada, o cümlədən ixtisaslaşmış şəkildə insan hüquqlarının təbliği və təmin olunması istiqamətində fəaliyyət göstərirlər. Bunlardan Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilini, Polşada vətəndaş hüquqları üzrə Müvəkkili, Gürcüstanın Xalq Müdafiəçisini və başqalarını misal olaraq göstərmək olar. Digər

dövlətlərdə isə federal və regional Ombudsmanlar (Məsələn: Tailand, Koreya, Rusiya Federativ Respublikasında və s.), o cümlədən ixtisaslaşmış Ombudsmanlar da mövcuddur ki, (məsələn, Uşaq Ombudsmanı, Hərbi Ombudsman, Milli azlıqların hüquqları üzrə Ombudsman, İnformasiya Ombudsmanı və s.) onlar da müvafiq regionda və ya istiqamətdə ixtisaslaşaraq konkret fəaliyyəti həyata keçirirlər.

Uşaq hüquqları sahəsində nəzarət və müdafiə mexanizmini həyata keçirən Uşaq Omudsmanının mövcud olduğu ölkələrdən İrlandiya, İslandiya, Danimarka, Yunanıstan, Malta, Polşa, Litva, Belçika, İsveçrə və başqa dövlətləri misal göstərmək olar ki, burada formalaşmış təcrübə uşaqların vəziyyətinin təhlili, pozulmuş hüquqlarının təmin olunması baxımından qeyd olunan sahə üzrə ixtisaslaşmanın uğurlu olduğunu göstərir. Hal-hazırda Avropa ölkələrində 30-dək ixtisaslaşmış Uşaq Ombudsmanları fəaliyyət göstərir.

Məhz bu təsisatları özündə birləşdirən Avropa Uşaq Ombudsmanları Şəbəkəsi (ENOC) mövcuddur ki, qurumun da əsas fəaliyyət istiqaməti Uşaq Hüquqları Konvensiyasına uyğun olaraq uşaq hüquqlarını müdafiə və təbliğ etmək, o cümlədən uşaq hüquqları institutlarının inkişafına köməklik göstərməkdən ibarətdir. Bu Şəbəkəyə nəinki Avropa dövlətlərinin uşaq ombudsmanları, ümumilikdə isə insan hüquqları sahəsində ixtisaslaşmış ombudsman təsisatları da daxildir (Azərbaycan, Avstriya, Gürcüstan, Macarıstan, Sloveniya, Slovakiya və s.). Azərbaycan Ombudsmanı bilavasitə uşaq hüquqları sahəsində ixtisaslaşmasa da, insan hüquqlarının tərkib hissəsi olaraq uşaq hüquqlarının müdafiəsini və təbliğini özünün əsas fəaliyyət istiqamətlərdindən birinə çevirdiyindən həmin Şəbəkənin fəal üzvlərindən olmuşdur.

Ötən dövrlər ərzində edilən təhlillərin nəticəsi isə onu göstərir ki, Ombudsman institutunun təşəkkülü cəmiyyətdə hüquqi şüurun inkişafına, eləcə də idarəetmənin

demokratikləşdirilməsi prosesinə təkan verən əsas amillərdəndir.

Hüquq-mühafizə mexanizmlərinin mövcudluğu ilə yanaşı, Ombudsman təsisatının yaradılması cəmiyyətin dövlət-hüquq sferasında mühüm əhəmiyyətə malikdir. Qanunverici, icra və məhkəmə hakimiyyətinin tərkibinə daxil olmayan, bununla yanaşı, vəzifəli şəxslər tərəfindən qanun və normaların yerinə yetirilməsinin daim təminatçısı kimi çıxış edən belə təsisatın mövcudluğu hüquqi dövlət quruculuğunun əsas atributlarından hesab olunur.

Son illərin təcrübəsi göstərir ki, insan hüquqları ilə sülh və inkişaf arasında birbaşa bağlılıq vardır. Beynəlxalq təşkilatların (Məsələn, BMT, Avropa Şurası, ATƏT və s.) dünyanın müxtəlif yerlərində apardıqları müşahidələr sübut edir ki, insan hüquqlarına hörmət çətinliklərə məruz qalmış cəmiyyətin sabitləşməsi üçün əsas elementlərdəndir. Vətəndaş cəmiyyətinin də davamlı inkişafı yalnız insan hüquqlarının tam müdafiə olunduğu ölkələrdə mümkündür.

Azərbaycan Respublikasında insan hüquqlarının təmin edilməsi ümumdövlət vəzifəsi hesab edilərək, ilk dəfə 28 dekabr 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən «Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında» Konstitusiya Qanunu qəbul olundu.

2 iyul 2002-ci ildə isə Azərbaycan Respublikasının ilk Ombudsmanı seçildi. İlk Ombudsman ölkə Prezidentinin Milli Məclisə təqdim etdiyi üç namizəd arasından seçilən professor Elmira Süleymanova oldu. Elə həmin il oktyabr ayının 28-dən etibarən isə təsisat fəaliyyətə başladı.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunun 1.1-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin vəzifəsi Azərbaycan Respublikası

Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və bu Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilir.

Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir.

Müvəkkilin məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır.

Hal-hazırda uşaq hüquq pozmalarına dair Müvəkkilə ünvanlanmış şikayətlər təhlil edilir, həmin hüquqların bərpası istiqamətində tədbirlər görülür və fəaliyyətin əlaqələndirilməsi məqsədilə Ombudsmanın uşaq hüquqları üzrə ixtisaslaşmış müşaviri mütəmadi olaraq fəaliyyət göstərməkdədir.

Müvəkkil fəaliyyətinin bir istiqaməti olaraq uşaq hüquqlarının etibarlı müdafiəsini aşağıdakı şəkildə təşkil edir:

- Uşaq hüquqlarının pozulması ilə əlaqədar daxil olmuş ərizələrlə iş və onların araşdırılması;
- Orta ümumtəhsil məktəblərində uşaq hüquqlarının tədrisi;
- Ölkədə uşaqların vəziyyətinin monitorinqi;
- Uşaqlara ünvanlanan effektli hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi;
- Uşaq hüquqlarına dair milli qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması;
- Dövlət müəssisələrində (uşaq evləri, internat məktəbləri, polis şöbələri və qanunla münaqişədə olan uşaqların

saxlandığı müəssisələr) uşaqlara qarşı baş verən zorakılıq hallarının araşdırılması və tədbirlərin görülməsi;

- Uşaq hüquqlarının müdafiəsinə dair beynəlxalq təcrübənin öyrənilməsi və ölkədə milli prioritetlərə uyğun olaraq tətbiq edilməsi;
- Bu sahədə fəaliyyət göstərən dövlət qurumları, qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlıq.

Alternativ olaraq həm də uşaqlara qrup şəklində, həm də cinsindən, yaşından, ailənin sosial vəziyyətindən (qaçqın və məcburi köçkün, miqrant, yoxsul ailələr və s.) asılı olmayaraq şəhər və kəndlərdə yaşayan, müxtəlif xəstəliklərə düçar olmuş, qanunla ziddiyyətdə olan, müəssisələrdə yaşayan, əlilliyi olan uşaqlara fərdi yanaşmaqla onların ehtiyaclarının təmin olunmasına dəstək verir.

***Öz fəaliyyətində uşaq hüquq müdafiəsinə və onların pozulmuş hüquqlarının bərpasına geniş yer verən Müvəkkilə ümumilikdə insan hüquqlarının pozulmasına dair şikayətlərin verilməsi qaydası.*** Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin (bundan sonra "ərizəçi" adlandırılacaq) insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır.

Şikayəti insan hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları verə bilərlər. İnsan hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda (həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və s.), şikayəti üçüncü şəxslər və ya qeyri-hökumət təşkilatları razılıq almadan da verə bilərlər.

Dövlət orqanları Müvəkkilə şikayət verə bilməzlər.

Şikayət ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən bir il müddətində verilə bilər. Cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslər tərəfindən

ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.

***İnsan hüquqlarının pozulmasına dair şikayətin məzmunu.*** İnsan hüquqlarının pozulmasına dair şikayətdə ərizəçinin adı, atasının adı, soyadı, ünvanı göstərilməli, eləcə də ərizəçinin hüquqlarını pozmuş qərar və ya hərəkətin (hərəkətsizliyin) mahiyyəti, şikayətin tərtib edilmə yeri, vaxtı və ərizəçinin imzası olmalıdır. Şikayətlə bağlı başqa materiallar və ya məhkəmə tərəfindən çıxarılmış qərar olduqda, şikayətə əlavə edilə bilər.

Şikayətdə ərizəçinin adı, atasının adı, soyadı, ünvanı göstərilmədikdə müraciət anonim hesab edilir. Anonim şikayətdə göstərilən hallar kifayət qədər sübutlu və əsaslı faktlarla təsdiq edilirsə, həmin şikayətlər Müvəkkil tərəfindən baxılmaq üçün qəbul edilə bilər.

Şikayət şifahi verildikdə, Müvəkkil aparatının işçisi şikayətin məzmununu xüsusi blankda qeyd edir və ərizəçi həmin vərəqi imzalayır. Ərizəçinin xahişi ilə Müvəkkil onun barəsində məlumatları gizli saxlamalıdır.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) əhalinin müxtəlif qruplarının (uşaqların, gənclərin, qadınların, ahılların, əlillərin, hərbi qulluqçuların, məhkumların, milli azlıqların və s.) hüquqlarının müdafiəsi və pozulmuş hüquqlarının bərpası sahəsində Bakı şəhərində yerləşən Aparatı, o cümlədən ölkəmizin Gəncə, Cəlilabad, Şəki və Qubada yerləşən dörd regional mərkəzi vasitəsilə öz fəaliyyətini təşkil edir.

## Mövzu 2 : U[illegible] [illegible]fiə edən döv[illegible]

### Məh[illegible]

ꟸ Hamı qanun və məhkəmə qarşısında bərabərdir. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

Pozulmuş hüquqların bərpasına məhkəmələrdə də nail ola bilərik. Ehtimal etdiyimiz hüquqların pozuntusu, məsələn: təhsil, sağlamlıq, mənzil hüququ, vərəsəlik hüququ, alınan müavinətlər, şərəf və ləyaqətin, şəxsi və ailə həyatının sirrini və ya şəxsi toxunulmazlığı pozan məlumatların yayılması və s. məsələlərlə bağlı mübahisələri biz məhkəmələr vasitəsi ilə daha uğurlu həll edə bilərik.

Məhkəmələrin birbaşa təyinatı insan hüquqlarının müdafiəsi və pozulmuş hüquqların bərpasıdır.

Ailə Məcəlləsinin 52-ci maddəsinə uyğun olaraq, uşaq ailədə onun maraqlarına toxunan istənilən məsələnin həlli zamanı öz fikrini bildirmək, habelə məhkəmə istintaqı və inzibati araşdırmaların gedişində dinlənilmək hüququna

malikdir. Onun maraqlarına zidd olan hallar istisna olunmaqla, 10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır. Ailə Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda məhkəmə və ya qəyyumluq və himayə orqanı yalnız 10 yaşına çatmış uşağın razılığı ilə qərar qəbul edə bilər.

Ancaq uşağın özünün birbaşa məhkəməyə müraciət etməsi üçün gərək 14 yaşı tamam olsun. Başqa cür isə gərək sənin maraqların valideynin, qanuni nümayəndələrin və ya qəyyumun vasitəsilə məhkəmədə təmsil olunsun.

Məhkəmələr I İnstansiya (rayon-şəhər), Apellyasiya və Kassasiya instansiyaları olmaqla qanunvericiliyə uyuğun olaraq uşaqlar, yəni yetkinlik yaşına çatmayanların inzibati, mülki və cinayət işlərinə baxır, uşaqların qanuni mənafeyini çəkişmə prinsipini əsas tutmaqla təmin edirlər. Məhkəmə aktları həm də mülki hüquqlar və vəzifələr müəyyənləşdirir.

Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının mülki qanunvericiliyə uyğun gəlməyən, fiziki və ya hüquqi şəxsin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozan qeyri-normativ xarakterli aktı məhkəmə tərəfindən etibarsız sayıla bilər.

Hər hansı fiziki və yaxud hüquqi şəxs öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etdiyi hallarda məhkəmədə iş başlanılır.

Cinayət mühakimə icraatı Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan səlahiyyətli məhkəmə tərəfindən həyata keçirilir. Məhkəmənin hökmü olmadan heç kəs cinayət törətməkdə təqsirli sayıla və məhkum oluna bilməz.

Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Məhkəməyə müraciət etmək hüququndan imtina edilməsi etibarsızdır.

Müraciətinizə məhkəmələr tərəfindən baxılmadıqda, süründürməçiliyə yol verildikdə, sənədləriniz vaxtında verilmədikdə, gecikdirildikdə və ya itirildikdə pozulmuş hüququnuzun bərpa edilməsi ilə bağlı Ombudsmana müraciət edə bilərsiniz.



*☙ Dostum, Polis isə hüquq-mühafizə orqanıdır. Polis sənin və digər insanların hüquqlarını qoruyur, hüquqa zidd əməllərdən mühafizə edir. Sən polisdən çəkinməməlisən!*

Əgər sən hüquq pozuntusu törətmisənsə və ya hər-hansı hüquq pozuntusu haqqında məlumata maliksənsə, onda polis səninlə ünsiyyətə girə və maraqlana bilər. Belə olduqda sən də hüququnu bilən bir şəxs kimi, polisin insanların hüquqlarının qorunması sahəsində apardığı işdə yardımçı olmağa çalışmalısan. Lakin sən həmin zaman öz hüquqlarını da yaddan çıxartmamalısan!

Hər hası bir hüququnun pozulması ilə qarşılaşdıqda öz şikayətini həmin polis şöbəsinin rəisinə, prokurora, müraciətinə baxılmadıqda isə 24 saat ərzində Ombusmana göndərə bilərsən.

Bir gün Polis sənin təhsil aldığın məktəbə, ya evinizə gəlir, ya da küçədə sənə yaxınlaşaraq onunla polis məntəqəsinə getməyi təklif edir. Bu zaman sən nə etməli olduğunu bilirsən?

- Əgər polis məktəbə gələrək səndən sinif otağından çıxıb onunla getməyi təklif edirsə sən bu zaman getməkdən imtina edə bilərsən.

Çünki dərs prosesində polisin gələrək belə təkliflə çıxış etməsi sənin təhsil hüququnu pozur. Bunlarla yanaşı polis əməkdaşı mütləq özünü təqdim etməli, adını, soyadını,

rütbəsini, haradan gəldiyini və gəlişinin məqsədi haqqda mütləq məlumat verməlidir. O izah etməlidir ki, sənə nə üçün polis şöbəsinə getməyi təklif edir. Çünki o, səni yalnız ya şübhəli şəxs kimi, ya da hər hansı bir hadisənin şahidi kimi dəvət edə bilər. Əgər polis səndən şahid kimi getməyi xahiş edirsə, sən bundan ya imtina etməli, ya da razılıq verməlisən. Razılıq vermisənsə polis səni müvafiq polis idarə və ya şöbəsinə gətirəcək, həmin zaman sən dindiriləcək, ya da sorğu-sual olanacaqsan. Bu prosesdə uşağa (Yetkinlik yaşına çatmayana) hədə-qorxu gəlinərsə, bu halda nə etməli?

1. Təşvişə düşmə və qorxma! Bu sadəcə hədədir;
2. Səni saxlayan və dindirən insanları yadda saxla;
3. Fiziki və ya psixoloji təzyiqdən istifadə etməklə keçən dindirmənin həyata keçirildiyi otağı yadda saxla ki, sən bu otağı sonradan təsvir edə biləsən və polis əməkdaşları bunu inkar edə bilməsinlər;
4. Şahidlər tap. Onlara sənə qarşı olan zorakılıq və döyüldüyün halda məlumat ver. Onlardan sənin üzərində olan döyülmənin əlamətlərini rəsmi şəkildə qeyd etmələrini xahiş et;
5. Valideynlərinin və vəkilinin sənin yanına buraxılmasını tələb et;
6. Əgər səni vurublarsa, onda özünü pis hiss etməyin barədə şikayət et və həkimin çağırılmasını tələb et. Həkimin adını, soyadını, harada işlədiyini öyrən ki, sonra həmin həkim vasitəsi ilə sənin döyülməyin barədə faktı təsdiq edə biləsən. Həmçinin, dərhal vəziyyətinin tibbi ekspertizasını tələb et.

Pozulmuş hüquqların bərpa edilməsi məqsədilə isə dərhal "916" nömərli qaynar xətt vasitəsi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana), prokurora və ya müvafiq rayonun icra hakimiyyəti orqanı yanında fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə

komissiyaya, hüquq və maraqlarınızın təmsil olunması üçün isə Uşaq Hüquqları Klinikasına müraciət edə bilərsən!

*14 yaşına çatmamış zərərçəkmiş və ya şahidin dindirilməsi zamanı onun qanuni nümayəndəsi (valideyn, qəyyum) iştirak etməlidir.*

*14 yaşından aşağı olan zərərçəkmiş və ya şahidin dindirilməsi zamanı müəllimin, zəruri hallarda isə həkimin iştirakı mütləqdir.*

Əgər yetkinlik yaşına çatmayan inzibati qaydada tutulub polis məntəqəsinə gətirilibsə onun aşağıdakı hüquqları təmin edilməlidir:

- uşağa qarşı davranışda şəxsiyyətinə və ləyaqətinə hörmətlə yanaşılmalıdır;
- inzibati xəta haqqında protokolla tanış olması təmin edilmələdir;
- tutulmanın əsasları ona bildirilməli və hüquqları izah edilməlidir;
- valideynlərinə və ya qanuni nümayəndələrinə dərhal məlumat verilməlidir.

İnzibati qaydada tutulma polis əməkdaşı tərəfindən aşağıdakı məqsədlər üçün həyata keçirilir:

- inzibati xətanın qarşısını almaq;
- hadisənin baş verdiyi yerdə doldurulması mümkün olmayan protokolun məntəqədə doldurulması;
- inzibati xəta haqqında işin düzgün və vaxtında baxılmasını və ya inzibati xəta haqqında iş üzrə qərarın icrasının təmin edilməsi;

***Unutmaq olmaz ki, inzibati qaydada tutulan yetkinlik yaşına çatmayanların işlərində vəkilin iştirakı məcburidir və onun barəsində inzibati xətalar haqqında işlərə onun yaşadığı yer üzrə baxılır.***

Yadda saxlamaq lazımdır ki, əgər uşağın 16 yaşı hələ yoxdursa və inzibati xəta törətmişdirsə, bu zaman o, inzibati məsuliyyət daşımır.



☙ Fəaliyyəti uşaqlarla bağlı olan dövlət qurumlardan biri də Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Komitə ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və onun tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Yəni ölkədə bu sahədə bütün məsələləri əlaqələndirmə baxımından öz üzərində cəmləşdirir.

Komitə Əsasnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq uşaqların müdafiəsinin və onların rifahının yaxşılaşdırılması, hüquq və azadlıqlarının təmin edilməsi, dövlətin uşaqlarla əlaqədar siyasətinin, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər fiziki və hüquqi şəxslərin fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə müxtəlif tədbirlər həyata keçirir (Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli, 444 nömrəli Fərmanı ilə təsdiq edilmişdir).

Komitənin dövlət uşaq siyasətinin həyata keçirilməsi sahəsində vəzifələri aşağıdakılardır (Əsasnamədən çıxarış):

1. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

2. Müvafiq sahədə qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş normativ tənzimləməni həyata keçirmək;

3. Dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

4. Digər icra hakimiyyəti orqanlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

5. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

6. Dövlətin ailə siyasətini həyata keçirmək;

7. Qaçqın və məcburi köçkün qadınların, uşaqların, aztəminatlı ailələrin sosial problemlərini öyrənmək və onların həlli üçün əlaqədar dövlət orqanları qarşısında məsələlər qaldırmaq;

8. Ailə başçısını itirmiş şəhid ailələrinin, tək anaların, xüsusilə əlil qadınların və uşaqların problemlərinin dövlət orqanları tərəfindən həlli məqsədi ilə müvafiq vəsatətlər qaldırmaq;

9. Müvafiq sahə üzrə kadrların hazırlanmasını, işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsini, ixtisaslarının artırılmasını təmin etmək;

10. Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, müvafiq sahədə müasir elmi nailiyyətləri tətbiq etmək, habelə elmi tədqiqat işlərinin aparılması və tətbiqini təmin etmək;

11. Öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını təmin etmək;

12. Komitənin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək.

Komitə öz vəzifələrini yerinə yetirmək üçün isə müvafiq hüquqlara malikdir. Bu hüquqlar əsasında dövlət uşaq siyasəti həyata keçirilir, uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi, onların hüquqlarının və qanuni mənafelərinin

qorunması, sosial müdafiəsi istiqamətində normativ hüquqi aktlarla müəyyən olunmuş vəzifələrin strukturuna daxil olan bölmələr tərəfindən yerinə yetirilməsinə nəzarət, o cümlədən aidiyyəti dövlət orqanlarından həmin istiqamətdə olan vəzifələrin icra vəziyyəti ilə bağlı məlumatlar almaq məqsədilə işlər həyata keçirilir.

## Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar

ଔ Uşaqların hüquqlarının və maraqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən qurumlardan biri də yerli icra hakimiyyəti orqanları yanında fəaliyyət göstərən «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar»dır. Bu komissiyaların fəaliyyətində yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsinə dair səlahiyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

Komissiyaların əsas məqsədi yetkinlik yaşına çatmayanlara tərbiyəvi təsir göstərməkdən, onların hüquqlarını və qanuni mənafelərini qorumaqdan, davranışına nəzarət etməkdən, qanunazidd əməllərin qarşısını almaqdan, göstərilən məsələlərdə dövlət və yerli özünüidarəetmə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətini əlaqələndirməkdən ibarətdir.

Yetkinlik yaşına çatmayanların. işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" Əsasnaməyə uyğun öz fəaliyyətlərini təşkil edirlər.

Bu komissiyaların yerlərdə fəaliyyəti həm təşkilati, həm də hüquqi xarakter daşıyır. Dövlət orqanı olmaqla yanaşı komissiyalar öz tərkibinə görə ictimai özünüidarəetmə

orqanlarını xatırladır. Belə ki, komissiyaların tərkibinə daxil olan bütün şəxslər ictimai əsaslarla fəaliyyət göstərirlər.

Komissiyalar qanunazidd əməllərin xarakterini və səbəblərini, onları törədənlərin adını, soyadını, yaşını, ünvanını, həyat şəraitini, qanunazidd əməlin törədilməsində iştirak dərəcəsini, habelə məişətdə, məktəbdə və işdə (işlədikdə) davranışını nəzərə almaqla yetkinlik yaşına çatmayanlar barəsində aşağıdakı intizam təsir tədbirləri növlərindən birini tətbiq edirlər:

- Üzr istəmək;
- Xəbərdarlıq etmək;
- Yetkinlik yaşına çatmayan müstəqil əmək haqqına malikdirsə, zərərin məbləği 33 manatdan artıq deyildirsə onu ödəmək və ya öz əməyi ilə aradan qaldırmaq vəzifəsini qoymaq;
- Yetkinlik yaşına çatmayanları valideynlərinin və ya digər qanuni nümayəndələrinin nəzarətinə vermək;
- On beş yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanların öz qazancını və ya təqaüdünü müstəqil xərcləmək hüququndan məhrum edilməsi haqqında qəyyumluq və himayə orqanına təkliflər vermək;
- Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş yaş həddinə çatmamış, habelə müxtəlif hüquqpozmalara və əxlaqsız həyat tərzi keçirməyə görə daxili işlər orqanlarında profilaktiki qeydiyyatda olan, lakin islah olunması mümkün olmayan yetkinlik yaşına çatmayanları açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərmək;
- Çətin tərbiyə olunan yetkinlik yaşına çatmayanları onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərmək;

- Ağır və ya xüsusilə ağır cinayət törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanın qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə məhkəmə qarşısında vəsatət vermək.

Bu proseslər gedişində Uşaq Hüquqları Klinikasının hüquqi məsləhət və hüquqi yardım xidmətlərindən istifadə edərək uğurlu nəticələr əldə etmək olar (Ünvanlar və əlaqə üçün telefon nömrələri kitabın son səhifələrində göstərilmişdir. Bax: səh 150).

Komissiyalar öz iclaslarında baxdıqları hər bir məsələ barəsində qərar qəbul edirlər. Komissiyaların qəbul etdikləri qərarlar məcburi qüvvəyə malik olub tətbiqi mütləq aktdır. Beləliklə, komissiyalar hüququn tətbiqi formasında realizə etmənin səlahiyyətli subyekti qismində çıxış edirlər.



☙ Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatları milli qanunvericilik əsasında yaradılan, əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri) qurumlar ola bilər.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən Qeyri-kommersiya qurumları olan hüquqi şəxslər ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları formasında, habelə qanunvericilikdə nəzərdə tutulan digər formalarda yaradıla bilər.

Ölkəmizdə qeyri-hökumət təşkilatlarının (bundan sonra QHT) insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarının müdafiəsi və təbliği sahəsindəki rolu böyükdür.

Bir çox ölkələrdə ictimai birliklər (və ya QHT-lər) uşaq hüquqlarının qorunması və təbliği sahəsində artıq bir çox işlər görmüş və görməkdə davam edirlər.

Məlumdur ki, təhsil və tədris insanların inkişafı və püxtələşməsində mühüm rol oynayır. Bütün dünyada tədris proseslərini böyük diqqət və maraqla qarşılayırlar. QHT-lər müxtəlif tədqiqatlar aparır, hüquqi maarifləndirici treninq-seminarlar təşkil edir, uşaq hüquqlarının müdafiəsi baxımından müxtəlif kompaniyalar təşkil edirlər.

Bununla yanaşı artıq bir çox ölkələrdə insan hüquqları, o cümlədən uşaq hüquqlarının tədrisi müəllimlərlə yanaşı QHT-lər tərəfindən də müvəffəqiyyətlə həyata keçirilir.

Azərbaycan Respublikasında da insan hüquqları, həmçinin uşaq hüquqları sahəsində ixtisaslaşmış, bu sahədə müsbət təcrübə formalaşdırılmış QHT-lər az deyildir. Onların yerli və beynəlxalq normativ-hüquqi aktlara əsaslanan fəaliyyəti ölkəmizdə uşaq hüquqları sahəsində yeniliklərin əldə olunmasına, onların problemlərinin qabardılmasına, onların vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir.

Bu təşkilatlara Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsini, Azərbaycan Qadın və İnkişaf Mərkəzini, Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansını, Uşaq Hüquqları Klinikasını, Hüquq Dünyası Hüquqi Təbliğat İctimai Birliyini və s. misal göstərmək olar.

Bu təşkilatların dövlət qurumları, beynəlxalq təşkilatlarla əməkdaşlıqda həyata keçirdikləri tədbirlər hazırda da respublikamızda uşaq hüquqlarının inkişafı prosesinə öz töhfəsini verir.

Həyata keçirilən layihələr zamanı təhsil, səhiyyə və digər sahələrdə uşaqlarla bağlı problemlərin üzə çıxarılması, dövlət

qurumlarına təkliflərin verilməsi, iri miqyaslı yerli və beynəlxalq konfransların keçirilməsi, beynəlxalq təşkilatlara dövlət hesabatına alternativ hesabatların təqdim olunması onların fəaliyyətini daha da dərinləşdirir. Məsələn: Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi nəzdində neçə illərdir ki, fəaliyyət göstərən «Liderlik məktəbi»nin iştirakçısı olan hər bir uşağın dünyaya sağlam baxışlarında, vətənpərvərlik hisslərinin aşılanmasında, xüsusi bacarıqlarının formalaşmasında, onların öz hüquq və azadlıqlarını öyrənmə, həmyaşıdlarına öyrətmə və müdafiə etmə əzminin olması istiqamətində ölkəmizdə öz töhfəsini verməkdədir (bax: səh 193).

Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi (AUGSŞ) öz fəaliyyətini ölkəmizin qoşulduğu BMT-nin Uşaq Hüquqları Konvensiyası, milli qanunvericiliyimizdən Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu, uşaq hərəkatı üzrə beynəlxalq və ölkədaxili inkişaf strategiyaları üzərində qurmuşdur.

Uşağın şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailə mühitində, xoşbəxtlik, məhəbbət və anlaşma mühitində böyüməsinin vacibliyini, hüquqların təbliğini, onlara əməl olunmasını və yerinə yetirilməsinə nəzarətdə dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər. Bu baxımdan AUGSŞ-nin rolu müsbət təcrübə kimi əvəzolunmazdır.

İlk növbədə, Uşaq Hüquqları Konvensiyası və müvafiq milli qanunlar üzrə uşaq hüquqlarının öyrənilməsi və tətbiqi vasitəsilə uşaqların vəziyyətini, onların ictimai həyatda iştirakını və öhdəliklərini inkişaf etdirməyə xüsusi önəm verilir. Müharibədən, zorakılıqdan və yoxsulluqdan ziyan çəkən uşaqları, o cümlədən qaçqın, məcburi köçkün, kimsəsiz, valideyn himayəsindən məhrum, aztəminatlı və natamam ailələrdən olan, həmçinin sağlamlıq problemləri, fiziki və ya əqli qüsuru olan uşaqları ərzaq məhsulları, paltarla təmin etmək,

onlara psixoloji reabilitasiya üzrə yardım göstərmək bu istiqamətdə aparılan işin əsas məzmununu təşkil edir. Uşaqlar üçün milli, regional və qlobal səviyyədə yararlı dünya qurulmasında fəal iştirak etmək, onların özlərinin iştirakı ilə hüquqlarının tətbiqi üçün çalışmaq, uşaqların vəziyyətinin yaxşılaşdırılması üzrə sorğular və tədqiqatlar aparmaq, sülh mədəniyyəti üzrə dəyirmi masa müzakirələri təşkil etmək və s. məsələlər şəbəkənin fəaliyyət proqramında xüsusi yer tutur.

Eyni zamanda yetkinlik yaşına çatmayanlar və ya onların nümayəndələri həmin qeyri-hökumət təşkilatlarına üz tutmaqla hüquqlarının bərpa edilməsi məqsədilə müraciətlərin düzgün istiqamətləndirilməsi, hüquqi məsləhət və hüquqi yardımlar ala, məhkəmələrdə hüquqlarının bərpa olunması məqsədilə hüquqşünas təmsilçiliyindən istifadə edə bilərlər. Ölkə Ombudsmanı və Uşaq hüquqları üzrə Azərbaycan QHT Alyansının birgə təsis etdiyi Uşaq Hüquqları Klinikası bu baxımından uşaqların mənafeyi və hüquqlarının müdafiəsi naminə ödənişsiz hüquqi xidmətlər göstərir.

*Unutma!* Azərbaycan Respublikasının Konstitusiyasının 26-cı maddəsinə müvafiq olaraq hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

## Mövzu: 4 İnsan hüquqlarının və onun tərkib hissəsi kimi uşaq hüquqlarının beynəlxalq müdafiə mexanizmləri

İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi sahəsində mövcud olan mexanizmlər müxtəlif xarakterə malikdir. Bu mexanizmlər həm universal, həm də regional şəkildə mövcuddur. Universal şəkildə mövcud olan müqavilə mexanizmləri aşağıdakılardır: İnsan hüquqları komitəsi; İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə; İşgəncələr əleyhinə komitə; Uşaq hüquqları komitəsi; Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə komitə; İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə; Miqrantların hüquqları üzrə komitə; Əlillərin hüquqları üzrə komitə; Zorakı yoxaçıxmalar əleyhinə komitə.

Regional şəkildə mövcud olan müqavilə mexanizmlərinə isə bunlar daxildir: Avropa İnsan Hüquqları Məhkəməsi; İşgəncənin və qeyri-insani, insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi; Amerika arası insan hüquqları komissiyası və Amerika arası insan hüquqları məhkəməsi; Afrika insan və xalqların hüquqları komissiyası və s.

Uşaq hüquqları haqqında danışdığımızdan universal şəkildə mövcud olan müqavilə mexanizmi kimi Uşaq hüquqları komitəsinə toxunaq. Bu komitə Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyasının 43-cü maddəsi əsasında yaradılmışdır. Komitə Konvensiyanın iştirakçı dövlətləri tərəfindən 4 il müddətinə seçilən 10 ekspertdən ibarətdir. Başlıca səlahiyyəti Konvensiyada iştirak edən dövlətlərin dövri məruzələrinə baxmaqdan ibarətdir. Komitə hər bir dövri məruzəyə dair təklif və tövsiyələrindən ibarət yekun sənədi qəbul edir. BMT-nin ixtisaslaşmış təsisatları dövlətlərin dövri məruzələrinin müzakirəsi zamanı iştirak edə və onların səlahiyyətlərinə daxil olan məsələlər üzrə informasiya və ya konsultativ rəy təqdim edə bilərlər. Komitənin əsas partnyoru Uşaq

hüquqları haqqında Konvensiyanın müddəalarının həyata keçirilməsinə əhəmiyyətli dərəcədə yardım edən BMT-nin Uşaq Fondudur (YUNİSEF).

Komitə habelə müxtəlif ölkələrdə uşaqların vəziyyəti barədə məlumat toplayır, təhlil edir və müvafiq tövsiyələr işləyib hazırlayır.

Ümumilikdə bütün müqavilə qurumlarının üzvləri insan hüquqları sahəsində tanınmış, səriştəli müstəqil ekspertlərdir, və müvafiq müqavilədə şərtləndirildiyi kimi yüksək əxlaqi dəyərlərə malik, yaxud qərəzsiz – bitərəf olmalıdırlar. Qeyd olunmalı əsas hal isə baxmayaraq ki, müqavilə qurumlarının üzvləri dövlətlər tərəfindən seçilirlər, onlar bütün bacarıqları ilə üzərilərinə düşən vəzifələrini qərəzsiz, ədalətli və bitərəf olaraq yerinə yetirməlidirlər. Müqavilə qurumlarının qeyri - siyasi yaxud BMT İnsan Hüquqları Şurası və ya BMT Təhlükəsizlik Şurası kimi hökumətlərarası qurumlar kimi deyil müstəqil ekspertlər qurumu kimi fəaliyyət göstərməsi nəzərdə tutulur.

BMT, onun ixtisaslaşmış qurumları UNİCEF, UNESCO ilə yanaşı ATƏT, Avropa Şurası, eləcə də bir sıra digər beynəlxalq təşkilatlar sülh mədəniyyəti və insan hüquqlarının, uşaq hüquqlarının tədrisi ilə bağlı məsələlərin işlənib hazırlanmasında iştirak edirlər.

Uşaq hüquqlarının müdafiəsi, təbliği və bu sahədə, əməkdaşlıq, fikir və təcrübə mübadiləsi əsasında fəaliyyəti göstərən beynəlxalq qeyri-hökumət təşkilatlarından biri kimi isə Avropa Uşaq Ombudsmanları Şəbəkəsini (ENOC) qeyd etmək olar.

Bu sahədə səmərəli fəaliyyəti nəzərə alınaraq, Azərbaycan Ombudsmanı da ENOC-a üzv seçilmiş və Avropa Uşaq Ombudsmanları ilə sıx əməkdaşlıq edir.

Avropa uşaq təşkilatları şəbəkəsinin yaradılması da ENOC-un Parisdə keçirilmiş konfransında Azərbaycan Ombudsmanı tərəfindən təklif olunmuşdur. Nəticə olaraqsa, ENYA layihəsi və onun tərkib hissəsi olan Elektron Forumu yaradılıb.

## ... mühakiməsi ... ərizə

## ... uşaqlar

Cəmiyyədə, ailədə zorakılıq halları və yoxsulluq, himayə və sosial müdafiə sistemlərinin qüsurları uşaqları qanunla ziddiyyətdə olmağa vadar edir, hüquqpozmalar baş verir, ictimai təhlükəli əməl törədilir.

Dünya dövlətləri üzrə aparılmış tədqiqatlar göstərir ki, küçədə yaşayan uşaqların 70%-dən çoxunu ailədə zorakılıq, pis rəftar səbəblərindən evlərini tərk edənlər təşkil edir. Eyni zamanda həmin uşaqlar yaşamaq üçün riskli davranışa və onların qanunla ziddiyyətə olmalarına gətirib çıxaran dilənçilik, xırda oğurluq, fahişəlik və s. bu kimi cinayətlərə cəlb olunurlar. Beləliklə xırda pozuntularla qayğıya ehtiyacın əlaqəsi müəyyən edilir.

Qanun pozuntusuna yol verən uşaq və gənclərlə yanaşı, intellektual və ruhi çatışmazlıqlara malik uşaqların da qanunla ziddiyyətdə olmaq riski yayılmaqdadır. Ümumilikdə isə, qanunla ziddiyyətdə olan yetkinlik yaşına çatmayanların reabilitasiyası, cəmiyyətə inteqrasiyası və həyati bacarıqlarının inkişaf etdirilməsi üçün mövcud mexanizmlərin gücləndirilməsinə zaman keçdikcə böyük ehtiyac duyulur.

Bütün yaş dövrlərində valideynlər uşaqlarının aqressivliyindən şikayət edirlər. Ancaq təəssüf ki, valideynlər çox vaxt bu aqressivliyə elə özlərinin səbəb olduqlarını unudurlar. Hətta uşaqlarda aqressivliyin qarşısını almaq əvəzinə öz "əks reaksiyaları" ilə onları daha da aqressivləşdirirlər ki, bu da onların qanunla ziddiyyətdə olmalarına və ya hər hansı bir hüquq pozuntusu ilə nəticələnən addımlar atmalarına gətirib çıxarır.

**Bəs aqressiv uşaq kimdir?**

- Aqressiv uşaq başqalarına zərər vurmaq istəyən;
- Bəzən hərəkətləri ilə, bəzən də sözlə hücum edən;
- Qayda və qanunlara tabe olmayan;
- Daim gərgin və ya əsəbi olan;
- Ətrafdakılarla ünsiyyət qurmağa çətinlik çəkən;
- Münaqişə tərəfdarı;
- Problemlərini həll etməyə maraqlı olmayan;
- Dostluq münasibətləri zəif olan;
- Fiziki gücə həmişə arxalanan və üstünlük verən və s.

Aqressivliyin ən mühüm səbəblərindən biri uşağın yığılan enerjisini necə sərf etməyi bilməməsidir. Burada əsas məsələ uşağın enerjisini düzgün istiqamətləndirməkdən ibarətdir. Uşağın başqalarından nümunə götürməsi ən mühüm amillərdən sayılır. Bu "nümunə" uşağın öz valideynləri, yaxınları, dostları və ya hər hansı bir TV qəhrəmanı ola bilər. TV-dəki zorakılıq səhnələrinə rast gəldikdə onları şərh etmək və doğru olmadığını vurğulamaq lazımdır. Eləcə də evdəki gərginlik nifrətə, nifrət isə aqressivliyə səbəb ola bilər. Uşağa istehza etmək, onun cəsarətini qırmaq, xoşagəlməz sözlər demək, bəzən də onun "aqressiv" tələblərini yerinə yetirməklə bir növ uşağın bu xüsusiyyətini inkişaf etdirilməsinə gətirib çıxara bilər.

Aqressivliyə aqressivliklə cavab vermək olmaz. Əksinə belə uşaqla söhbət etməli və qəti şəkildə fiziki gücə yol verilməməlidir. Aqressivliyin qarşısının alınmasında psixoloji dəstəklə yanaşı, ən əsası valideynlərin, onların olduqları və ya təhsil aldıqları müəssisə rəhbərliyinin düzgün mövqeyi vacibdir və zorakılığa yol verilməməlidir.

Bütün bunların nəticəsi olaraq yetkinlik yaşına çatmayan şəxsin ictimai təhlükəli əməli törətməsi isə sivil dövlətlərin əksəriyyətində olduğu kimi, Azərbaycan Respublikasının milli qanunvericiliyində də əməlin xarakterindən asılı olaraq mülki, inzibati və ya cinayət məsuliyyətinə səbəb ola bilər.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin 8-ci maddəsi yetkinlik yaşına çatmayanları qanunla ziddiyyətdə olmaqdan çəkindirmək məqsədi ilə onlara təyin edilən intizam təsir tədbirinin məqsədini nəzərdə tutur. Maddədə qeyd olunur ki, hüquqi məsuliyyət növü olmaqla intizam təsir tədbirinin başlıca məqsədi yetkinlik yaşına çatmayanları qanunlara əməl edilməsi ruhunda tərbiyələndirməkdən, hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmayanlar və digər şəxslər tərəfindən yeni əməlin törədilməsinin qarşısını almaqdan ibarətdir.

Bu baxımdan Komissiyalar qanunazidd əməllərin xarakterini və səbəblərini, yaşını, həyat şəraitini, qanunazidd əməlin törədilməsində iştirak dərəcəsini, habelə məişətdə, məktəbdə və ya işdə davranışını nəzərə almaqla, yetkinlik yaşına çatmayanlar barəsində aşağıdakı intizam təsir tədbirləri növlərindən birini tətbiq edirlər:

1) üzr istəmək;

2) xəbərdarlıq etmək;

3) yetkinlik yaşına çatmayan şəxs müstəqil əmək haqqına malikdirsə və zərərin məbləği otuz üç manatdan artıq deyilsə, yetkinlik yaşına çatmayan şəxsin öhdəsinə onun vurduğu zərəri ödəmək yaxud otuz üç manatdan artıq olmayan məbləğdə maddi zərərin nəticələrini öz əməyi ilə aradan qaldırmaq vəzifəsini qoymaq;

4) yetkinlik yaşına çatmayanları valideynlərinin və ya digər qanuni nümayəndələrinin nəzarətinə vermək;

5) on beş yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanların öz qazancını və ya təqaüdünü müstəqil xərcləmək hüququndan məhrum edilməsi haqqında qəyyumluq və himayə orqanına təkliflər vermək;

6) böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş, cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş yaş

həddinə çatmamış, habelə müxtəlif hüquqpozmalara və əxlaqsız həyat tərzi keçirməyə görə daxili işlər orqanlarında profilaktiki qeydiyyatda olan, lakin islah olunması mümkün olmayan yetkinlik yaşına çatmayanları açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərmək;

7) çətin tərbiyə olunan yetkinlik yaşına çatmayanları onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərmək;

8) ağır və ya xüsusilə ağır cinayət törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanın qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə məhkəmə qarşısında vəsatət vermək.

Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmadıqda belə, inzibati cəza və sanksiyalara məruz qala bilərlər. Cinayət törədərkən 14 yaşına çatmayan, eləcə də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 20-ci maddəsi ilə əhatə olunmayan ictimai təhlükəli əməli törətmiş 14-16 yaşlı uşaqlar barəsində Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar tərəfindən inzibati tədbirlər görülür. Komissiyalar həmçinin inzibati xətalar törətmiş 16-18 yaşlı uşaqlarla da bağlı qərarlar qəbul etmək səlahiyyətlərinə malikdirlər.

Yetkinlik yaşına çatmayan – qanunla tam hüquq qabiliyyətini əldə etməyə imkan verən, yəni ölkənin Konstitusiyası və digər qanunları ilə insan və vətəndaş hüquq və vəzifələrini tam həcmdə realizə etmək imkanı verən yaş həddinə çatmayan şəxsdir.

Yetkinlik yaşı – burada cinayət məsuliyyətinin və cəzanın hədlərini, onlardan azad olunmanı, məcburi tərbiyəvi təsir tədbirlərinin tətbiqini müəyyən edir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (CM-nin) 84.1-ci maddəsində cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunduğu vurğulanır. Həmin maddənin 2-ci bəndinə əsasən yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

CM-nin 20.1-ci maddəsinə əsasən cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. Bir qrup cinayətlərə görə isə yaş həddi on dörd müəyyən edilmişdir (CM-nin 20.2-ci maddəsi).

On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir.

Yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət işi üzrə məhkəmə baxışında, onların valideynlərinin və ya qanuni nümayəndələrinin iştirakı məcburi deyildir. Lakin məhkəmə baxışında iştirak etmək yetkinlik yaşına çatmayan şəxslərin valideynlərinin və ya qanuni nümayəndələrinin hüququdur. Həmin şəxslər tərəfindən məhkəmədə iştirakla bağlı istək olduqda hakim həmin müraciəti təmin etməyə borcludur. Yalnız bir halda – onların iştirakı təqsirləndirilən yetkinlik yaşına

çatmayan şəxslərin mənafeyinə ziyan vurmaq ehtimal olan hallarda onların iştirakından imtina haqqında hakim tərəfindən əsaslandırılmış qərar çıxarıla bilər.

Bu qrup şəxslərin işləri üzrə məhkəmə baxışının gedişində və hökm çıxarılan zaman məhkəmə ümumi qəbul olunmuş beynəlxalq-hüquqi prinsipləri rəhbər tutmalıdır. Həmin prinsiplərə aşağıdakılar daxildir: 1) Yetkinlik yaşına çatmayan şəxs başqa şəxsə qarşı zor tətbiq edilməsi ilə müşayiət olunmayan ictimai təhlükəli əmələ yol verməmişdirsə, yaxud digər ciddi əməli təkrar törətməkdə təqsirli bilinməmişdirsə və digər müvafiq təsir tədbirləri mövcud olmadıqda, onun barəsində azadlıqdan məhrumetmə cəzasının təyin edilməsi məqsədəuyğun deyildir; 2) Bu qrup şəxslər yalnız son tədbir kimi və zərurət olan minimum müddətdə islah müəssisəsinə yerləşdirilməlidir; 3) Bu şəxslərin azadlığının məhdudlaşdırılması ilə bağlı qərar işə mükəmməl baxılmaqla mümkün qədər minimum müddətə qəbul olunmalıdır; 4) Təsir tədbirləri bütün hallarda yetkinlik yaşına çatmayan şəxsin psixoloji vəziyyəti, yaşı və mənafeyi nəzərə alınmaqla onun və cəmiyyətin tələbatlarına uyğun tətbiq olunmalıdır; 5) İşin halları öz təsdiqini tapmırsa heç bir halda yetkinlik yaşına çatmayan şəxs valideynlərinin nəzarəti altından tamamilə və ya qismən götürülə bilməz.

Yetkinlik yaşına çatmayana cəza təyin edərkən məhkəmə yüngülləşdirici hallarla yanaşı, uşağın həyat və tərbiyə şəraitini, psixi inkişaf səviyyəsini, onun şəxsiyyətinin digər xüsusiyyətlərini və kənar şəxslərin ona təsirini nəzərə alır. Cəza təyin edilərkən yetkinlik yaşına çatmama yüngülləşdirici hal kimi, cəzanı yüngülləşdirən və ağırlaşdıran digər hallarla birlikdə nəzərə alınır.

Qeyd olunanlarla yanaşı, törətdikləri əməllərin təhlükəlilik dərəcəsi nəzərə alınmaqla yetkinlik yaşına

çatmayanlar barəsində tərbiyəvi xarakterli məcburi tədbirlər də tətbiq edilir.

Belə ki, yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etdikdə, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə onun islah olunması mümkün hesab edilərsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilə bilər. Bununla da məhkəmə 18 yaşınadək olan şəxsin cinayət məsuliyyətinə cəlb olunmadan islah edilməsinin mümkünlüyü qənaətinə gəlmiş olur.

Yetkinlik yaşına çatmayanlara aşağıdakı tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər (CM-nin 88.2-ci maddəsi):

- xəbərdarlıq;
- valideynlərin və ya onları əvəz edən şəxslərin və yaxud müvafiq dövlət orqanının nəzarətinə vermək;
- vurulmuş ziyanın aradan qaldırılması vəzifəsini həvalə etmək;
- yetkinlik yaşına çatmayanın asudə vaxtını məhdudlaşdırmaq və onun davranışı ilə bağlı xüsusi tələblər müəyyən etmək.

Bu tədbirlərdən olan xəbərdarlıq yetkinlik yaşına çatmayana onun əməli nəticəsində vurulmuş ziyanın və Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayətləri təkrar törətməyin nəticələrinin izah edilməsindən ibarətdir.

Nəzarətə götürmə valideynlərin və ya onları əvəz edən şəxslərin yaxud müvafiq icra hakimiyyəti orqanının üzərinə yetkinlik yaşına çatmayana tərbiyəvi təsir göstərmək və onun davranışına nəzarət etmək vəzifəsi qoyulmasından ibarətdir.

Vurulmuş ziyanı aradan qaldırmaq vəzifəsi isə yetkinlik yaşına çatmayanın əmlak vəziyyəti və müvafiq əmək vərdişlərinə malik olması nəzərə alınmaqla onun üzərinə qoyulur.

Asudə vaxtın məhdudlaşdırılması və yetkinlik yaşına çatmayanın davranışına xüsusi tələblərin qoyulması onun müəyyən yerlərə getməməsini, asudə vaxtdan istifadənin müəyyən formalarını, o cümlədən mexaniki nəqliyyat vasitələrinin idarə olunmamasını, günün müəyyən vaxtlarından sonra evdən kənarda olmamasını, müvafiq dövlət orqanının icazəsi olmadan başqa ərazilərə getməməsini nəzərdə tuta bilər. Yetkinlik yaşına çatmayana həmçinin təhsilini davam etdirmək və ya müvafiq icra hakimiyyəti orqanının köməyi ilə işə düzəlmək vəzifəsi də müəyyən edilə bilər. Bu tədbirlərdən başqa asudə vaxtın məhdudlaşdırılması və yetkinlik yaşına çatmayanın davranışına xüsusi tələblərin qoyulması digər tədbirləri də nəzərdə tuta bilər.

Yetkinlik yaşına çatmayana eyni vaxtda bir neçə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər. Nəzərdə tutulmuş bu tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqi müddəti bu tədbirləri təyin etmiş müvafiq dövlət orqanı tərəfindən müəyyən olunur.

Yetkinlik yaşına çatmayan tərbiyəvi xarakterli məcburi tədbirləri mütəmadi olaraq yerinə yetirmədikdə, müvafiq dövlət orqanının təqdimatı əsasında həmin tədbirlər ləğv edilir və materiallar yetkinlik yaşına çatmayanın cinayət məsuliyyətinə cəlb olunması üçün məhkəməyə göndərilir.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 435.1 maddəsinə əsasən, yetkinlik yaşına çatmayan uşaqların törətdikləri cinayətlər üzrə işlərə məhkəmədə daha təcrübəli hakimlər baxmalıdırlar.

Yetkinlik yaşına çatmayanların işləri üzrə aparılan ədalət mühakiməsi gedişində uşağın bütün hüquqları təmin olunmalı, ümumilikdə isə fərqlənən icraat mexanizmi tətbiq olunmalıdır. Bura yetkinlik yaşına çatmayanların şəxslərlə bağlı aparılan istintaq hərəkətləri ilə yanaşı, məhkəmə icraatı gedişi, eləcə də islah olunmaq məqsədi ilə tərbiyə müəssisələrində saxlanma

mərhələləri daxildir. Yetkinlik yaşına çatmayanların işləri üzrə həyata keçirilən bu mühakimə icraatı bir çox ölkələrdə yuvenal ədliyyə sistemi adı altında ixtisaslaşmışdır.

Yuvenal ədliyyə sisteminə ümumi ədalət mühakiməsindən ayrılıqda anlayış vermək düzgün olmazdı. Bu sistemin səciyyəviliyini isə ümumi ədalət mühakiməsində olmayan və yetkinlik yaşına çatmayanların hüquqi müdafiəsinin səviyyəsinin artırılması üçün əlavə yaradılan prinsip və normalar təşkil edir.

Yuvenal Ədliyyə (Juvenile Justice) beynəlxalq termin olmaqla, yetkinlik yaşına çatmayanlar üçün ədalət mühakiməsi mənasını verir.

İlk dəfə, 2 iyul 1899-cu ildə Çikaqo şəhərində yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmə yaradılaraq Yuvenal Ədliyyə sisteminin əsası qoyulmuşdur. Qərb ədəbiyyatlarında isə bu anlayış XIX əsrin 50-ci illərindən işlədilməyə başlamış və günümüzə qədər olan dövrü əhatə edir. Buna səbəb ötən əsrin 50-60-cı illərində Qərbi Avropa dövlətlərində, eləcə də, ABŞ-da, Yaponiyada. Asiya, Latın Amerikası və s. ölkələrdə həmin dövrdə yetkinlik yaşına çatmayanların cinayətkarlığının sürətlə artması idi. Daha sonra bu tipli məhkəmələr İngiltərədə, İrlandiyada, Rusiyada və başqa dövlətlərdə yaradıldı. Fransada isə «uşaq» məhkəmələrinin yaradılması ilə yanaşı, cinayət mühakiməsinə aidiyyəti olmayan, 12 yaşadək olan uşaqlarla işləyən xüsusi himayə şuralarının yaradılmasına başlandı. Bu şuralar mülki mühakimə sisteminə daxil oldular və sonralar ailə məhkəmələrinin yaradılması üçün mənbə oldular.

Yuvenal ədliyyə mühakiməsini tənzimləyən bir çox beynəlxalq hüquq qaydalarından meydana gələn öhdəlikləri həyata keçirmək üçün dövlətlərdən milli səviyyədə normativ-hüquqi aktlar qəbul etmək tələb olunur.

Bu baxımdan qeyd olunmalıdır ki, ölkəmizdə də artıq yuvenal ədliyyə sisteminin tətbiqi ilə əlaqədar işlərə

başlanılmışdır. Hələ 2005-ci ildə Azərbaycan Respublikasının Uşaq Hüquqları Konvensiyaya uyğun olaraq qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı BMT-nin Uşaq Hüquqları Komitəsinə təqdim etdiyi dövri hesabatda yetkinlik yaşına çatmayanlarla bağlı ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı məlumatlar, həmçinin 1999-cu ildə Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsinin, 2000-ci ildə isə Cinayət Prosessual Məcəlləsinin təsdiq olunması öz əksini tapmışdı.

Bunlarla yanaşı 2006-cı ilin yanvarında həmin Komitənin Azərbaycana verdiyi tövsiyələrdə yeniyetmə məhkəmə sisteminin BMT standartlarına uyğunlaşdırılması yenidən tövsiyə olunmuşdur. Xüsusi olaraq isə, Komitə tövsiyə etmişdir ki:

- yetkinlik yaşına çatmayanların işləri üzrə ədalət mühakiməsini həyata keçirən məhkəmələr yaradılsın;
- 18 yaşınadək olan şəxs barəsində yalnız son çıxış yolu kimi və mümkün qədər qısa müddətdə azadlıqdan məhrumetmə cəzası təyin edilsin.

Uşaq Hüquqları Konvensiyasına əlavə olaraq, qanunla münaqişədə olan uşaqlara aid BMT-nin xüsusi standartları tərtib olunmuşdur. Bura uşaq hüquqlarının müdafiəsinə və uşaqların inkişaf ehtiyaclarına ehtiramla yanaşmağı təklif edən və 1985-ci ildə qəbul olunan Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına dair BMT-in Minimal Standart Qaydaları (Pekin Qaydaları) da daxildir. 1990-cı ildə qəbul edilmiş digər iki standart – Gənclərin törətdikləri Yeniyetmə Cinayətlərinin Qarşısının Alınmasına dair BMT Göstərişləri (Ər-Riyad Göstərişləri) və Azadlıqdan Məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair BMT Qaydaları (AMYM Qaydaları) – uşaqların qorunması, cinayət işlərinin aparılması və sosial reabilitasiya (bərpaetmə) tədbirlərini tamamlayır.

Pekin Qaydaları cəza təyinetmənin əsaslarını müəyyən edir. Uşağa təyin edilən cəza həmişə cinayətin xarakterinə və cəmiyyətin mənafeyinə uyğun olduğu kimi, yetkinlik yaşına çatmayan şəxsin də vəziyyətinə, ehtiyaclarına uyğun olmalıdır. Hər hansı hökmün verilməsi zamanı uşağın mənafeyi əsas götürülməlidir.

Yetkinlik yaşına çatmayanların məhkəmə sistemi üzrə BMT-nin Minimal Standart Qaydaları, Ər-Riyad Təlimatları dünya dövlətlərindən qanun pozuntularının qarşısının alınması üçün proqramların hər bir səviyyə üçün işlənib hazırlanması və tətbiq olunmasını tələb edir. Bu cinayət törətmiş, o cümlədən cinayət törətmək təhlükəsi olan şəxslərə, risk qruplarına şamil edilməlidir.

## Möv [illegible] rizə

İnsan alveri dünyada həllini gözləyən problemlərdən biri olmaqla özünə qarşı mübarizənin artırılmasını tələb edir. BMT-nin mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan insan alverinin, xüsusən də qadın və uşaq alverinin qarşısının alınması, cinayətkarların cəzalandırılması haqqında Palermo Protokoluna əsasən "İnsan alveri güc tətbiq etməklə insanların istismar məqsədilə cəlb edilməsi, daşınması, gizlədilməsi və ya alınması başa düşülür. İnsan alveri insan hüquqlarının kobud şəkildə pozulması, insanların başqa insanlar üzərində fiziki, psixi zorakılıq və ya hədələrin tətbiqi, uzunmüddətli əsarətə cəlb etməsi, insanların istismarı, insanların sərbəst hərəkətinə məhdudiyyət qoyulması, şəxslərə işgəncə verməklə, onun ləyaqətini alçaltmaq, şəxsiyyəti təsdiqləyən sənədi əlindən zorla

alaraq saxlamaq, nəticədə insanın şikəst qalması və ya həyatla vidalaşmasına gətirib çıxara biləcək hadisədir.

Tədqiqatlara əsasən insan alveri miqyasına görə silah və narkotik vasitələrin alverindən sonra dünyada üçüncü yerdədir.

Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə haqqında 28 iyun 2005-ci il tarixli Qanununa əsasən *insan alveri—zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflikdən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və s. nemətlər, imtiyazlar, güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və qəbul edilməsidir (uşağın istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, başqasına verilməsi üsullarından istifadə olunmasa da insan alveri hesab edilir).*

*İnsanların istismarı*—məcburi əmək (xidmət), cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə, habelə insanların digər formada istismar edilməsidir.

*Məcburi əmək* (xidmət)— şəxsin müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) qanunsuz olaraq məcbur edilməsidir.

*Cinsi istismar*—şəxsin fahişəlikdə, seksual köləlikdə və ya pornoqrafik materialların istehsalında istifadə edilməsi, digər şəxslərin cinsi istismarından mənfəət əldə edilməsidir.

*Köləlik*—şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətlərin tam və ya qismən həyata keçirilməsidir.

*İnsan alverçisi*—insan alveri ilə əlaqədar hər hansı fəaliyyəti həyata keçirən fiziki və ya hüquqi şəxs sayılır.

*İnsan alverinin qurbanı*—insan alverindən zərər çəkmiş, yaxud zərər çəkməsi ehtimal olunan şəxslərdir.

*İnsan alverinin potensial qurbanları*—avaralıqla və ya dilənçiliklə məşğul olanlar, səfil, əxlaqsız həyat tərzi sürənlər, kimsəsiz, baxımsız, təhsildən qərəzli şəkildə yayınan uşaqlar, narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığı olan şəxslər sayılırlar.

İnsan alveri təkcə qadınların cinsi istismar məqsədilə başqa ölkələrə aparılması və ya ölkə daxlində yerdəşiyməsi ilə kifayətlənmir. Kişi və uşaqlar da insan alverinin qurbanlarına çevrilirlər. Qadınlardan fərqli olaraq kişilər əsasən əməklərinin istismarı məqsədilə, uşaqlar isə donor kimi, həm də əməklərinin istismarı və cinsi istismara məruz qalırlar. Buna görə də *«insan alverinin yaşı və cinsi yoxdur»* kimi bir ifadə formalaşıb.

Cinsi istirsmarla yanaşı əməyin istismarı, istismar məqsədilə nikahların bağlanması, dilənçilik, uşaq alveri və qeyri-qanuni övladlığa götürmə də insan alverinin formalarından hesab edilir. Azərbaycanda insan alverindən danışarkən əsasən qadınların cinsi istismar məqsədilə xarici ölkələrə aparılması hallarının geniş yayıldığını söyləmək olar. Bununla yanaşı kişilərin əməyinin istismarı kimi hallar da var. Eyni zamanda uşaq əməyindən istismar məqsədilə istifadə hallarına da rast gəlinir. Qadınların cinsi istismarı insan alverinin dünya miqyasında daha çox gəlir gətirən və qurbanlarının sayının hər gün bir az daha artdığı formalarındandır. Araşdırmalar narkotikadan istifadədə olduğu kimi qadın alverinin də «gəncləşdiyini» söyləməyə əsas verir. İnsan alverçiləri əsasən gənc qadın və qızların istismarına üstünlük versələr də, yaşlı qadınların da bu və ya digər məqsədlərlə istismarı istisna edilmir.

İnsan alveri ətrafımızda baş verən buna bənzər digər cinayət hadisələrindən fərqlənir. Əgər qeyd olunan hallar varsa onda İnsan alverinin baş verdiyindən şübhələnmək lazımdır.

**Nə baş verir?**

**Qurbanın:**

- Cəlb edilməsi və ələ alınması;
- Saxlanılması və gizlədilməsi;
- Daşınması və başqa şəxslərə verilməsi;
- Satılması və sitismarı.

**Necə və hansı yollarla?**

- Aldatma və şantaj;
- Hədə-qorxu imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə;
- Zor tətbiq etmə hədəsi ilə və ya zor tətbiq etməklə;
- Psixoloji təsir;
- Sənədlərin əlindən alınması;
- Oğurlanma və qeyri-qanuni saxlanılma və sərhəddən qanunsuz keçirmə;
- Qazandığı pulların verilməməsi;
- Maddi və s. nemətlər, imtiyazlar və ya güzəştlərlə cəlbetmə;
- Borc asılılığı;
- Öz vəzifəsindən sui-istifadə;

**Məqsəd nədir?**

- İstismar
- Qazanc əldə etmək

İnsan alverinin qurbanlarının düşdükləri vəziyyətdən qurtarması isə cəsarət və bir çox hallarda həyatları üçün təhlükə daşıyan vasitələrlə mümkün olur. Bir çox qurban düşdüyü vəziyyətlə barışaraq bunu tale yazısı kimi qiymətləndirir, nəticədə özləri üçün o qədər də xoş olmayan bir həyatla razılaşırlar. Digər qrup isə zorla düşürüldüyü vəziyyətdən çıxış yolu axtarır ki, bu

zaman təsadüflərlə yanaşı cəsarəti və insan alveri barədə informasiyası köməyə çatır.

Xaricdə təhsil və ya ailə həyatı qurmaq arzusunda olanları getdikləri ölkədə düşə biləcəkləri vəziyyətdən çıxış yolu tamaq üçün müxtəlif əlaqə telefonları və ünvanlarla təmin edir. Bu məlumatlar kütləvi informasiya vasitələrinin köməyi ilə yayılır, lakin bir çoxları bu halların ona şamil edilməyəcəyini düşünərək ehtiyyatı əldən buraxırlar. Nəticədə yüksək əmək haqqı arxasınca getdikləri ölkədə kölə kimi işlədilir, əməkləri istismar edilir, ailə həyat üçün qarşılarında şəhzadə əvəzində onları cinsi istismara məruz qoyan şəxsi görür, müalicə üçün göndərildiyi ölkədə tibb personalının yerində hava limanında onu qarşılayan insan alverçiləri ilə tanış olur.

Bütün dünya miqyasında insan alveri ilə bağlı araşdırmalarda diqqəti cəlb edən məqamlardan biri də insan alveri qurbanlarının sonunda insan alverçisinə çevrilməsidir. Qurbanlarını tora salmaq üçün ən müxtəlif vasitələrdən istifadə edir. Bu vasitələr arasında əvvəlcədən hazırlanmış adamlar tərəfindən təkliflər, tanış, qohum, kurs yoldaşları, iş həmkarlarından edilən təkliflər, xarici agentliklərin, işədüzəltmə firmalarının, moda agentliklərinin, nikah agentliklərinin, turizm agentliklərinin, elanların, internetin vasitəsilə cəlbedici təkliflər xüsusiyer tutur.

Sizə təhsil almaq və iş təklif edirlər? Xarici ölkədə? Təklif edən kimdir? Bunun insan alveri ilə əlaqəsi ola bilərmi? Hədəf qrupu kimlərdir? Ən əsası hər kəs insan alveri barəsində nələri bilməlidir?

Əgər sizə xarici ölkədə yüksək ödənişli iş təklif olunursa, tələsməyin! Yüz ölçüb bir biçin. Bu cür təklif firmadan gəlibsə, onun xaricdə işə düzəltmə üçün xüsusi icazəsi –lisenziyasının olub olmaması ilə maraqlanın. Bu firmaların siyahısı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində və Azərbaycan Respublikası DİN-də vardır.

Digər çox rastlaşan hallardan biri xarici ölkələrdə təhsil almaq arzunuzu reallaşdırmaq istəyənlərin başına gəlir. Bu arzunuzu həyata keçirməzdən əvvəl bilməli olduğunuz bir sıra vacib məqamlar var. Sizə xarici ölkədə təhsil almaq təklifi olunarsa, bu söz halında həyata keçirilməməli, mütləq rəsmi olmalıdır:

- Təklif edən şəxsin bu fəaliyyəti həyata keçirməsinə rəsmi, möhürlü və notarial təsdiqlənmiş sənədi olmalı;
- Müqavilə təqdim edilməli;
- Viza əməliyyatları aparılması – tələbə vizası olmalıdır;
- Sizə müqavilə təqdim edilərsə, müqavilə mütləq Sizin başa düşdüyünüz dildə, yəni ana dilində olmalıdır;
- Müqavilənin qanuni olub-olmamasını müəyyən etmək üçün həmin xarici ölkənin Azərbaycan Respublikasındakı səfirliyinə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə və iş təklifi də varsa Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edin;
- Təhsil almağa gedəcəyiniz ölkənin nümayəndəliyi Azərbaycanda yerləşirsə mütləq ora rəsmi müraciət edərək təklif olunan təhsil müəssisəsi barədə məlumat almaq;
- Əgər həmin ölkənin diplomatik nümayəndəliyi ölkəmizdə fəaliyyət göstərmirsə, onda Azərbaycan Respublikasının Təhsil Nazirliyinə müraciət edib, Sizi maraqlandıran məlumatları dəqiqləşdirmək.

Xarici ölkələrdə Azərbaycan vətəndaşlarının iş tapmasına da yalnız bu fəaliyyətə lisenziyası olan firmalar yardım edə bilər. Bunu da təhsil sahəsində olduğu kimi dəqiqləşdirmək lazımdır. Lazımi anda təcili Azərbaycan Respublikasının həmin ölkədə yerləşən Səfirliyinə də müraciət edin. Onlar Sizə kömək etməlidirlər.

İnsan alverinin qurbanı olmaq təhlükəsinə xarici vətəndaşlarla nikaha girərkən də təsadüf edilir. Odur ki, xarici vətəndaşlarla nikaha girəndə olduqca diqqətli olmaq lazım və

dövlət qurumlarına müraciət etməklə məlumatlar almaq və tələb olunan sənədləri dəqiqləşdirmək lazımdır (Məsələn xarici vətəndaş nikaha girərkən Forma 4 adlanan arayışı təqdim etməlidir ki, sənəddə onun barəsində bütün məlumatlar yazılmış olur).

Bu baxımdan xaricə getməyiniz haqqında müfəssəl məlumatı, oradakı ünvanı, əlaqə telefonunu və həmçinin pasportunuzun birinci səhifəsini, viza səhifəsinin və müqavilənin surətini doğmalarınıza və ya dostlarınıza verməyi unutmayın!

- Vətəndə qalan yaxın adamlarınızla necə əlaqə saxlayacağınızı qabaqcadan razılaşdırın və heç vaxt, dövlət sərhədini, qeyri-qanuni və ya saxta sənədlərlə keçməyə çalışmayın;

- Azərbaycan Respublikasının həmin ölkədə yerləşən Səfirliyinin ünvanını əlaqə nömrələrini özünüzlə götürün;

- Xaricdə olarkən Sizə vəd edilən işlə təmin olunmadıqda və ya başınıza xoşagəlməz hadisə gəldikdə dərhal Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin İnsan alverinin qarşısının alınması və qurbanlara kömək məqsədi ilə 24 saat fəaliyyət göstərən "Qaynar xətt" xidməti "152" və "012-562-21-12" nömrələrinə və ya Azərbaycan Respublikasının həmin ölkədə yerləşən Səfirliyinə müraciət edin.

***Xarici ölkədə olarkən bunları unutmayın:***

- Pasportunuzu başqa şəxsə verməyin. Lazım gəldikdə sənədlərinizin yalnız surətini tələb olunan yerə təqdim edin;

- Xarici ölkədə sənədləriniz itirsə, dərhal həmin ölkənin polisinə və Azərbaycan Respublikasının həmin ölkədəki Səfirliyinə və ya Konsulluğuna müraciət edin;

- Mütəmadi olaraq qohumlarınız və ailənizlə əlaqə saxlayın. Həyatınızdakı hər-hansı dəyişiklik barədə dərhal onlara məlumat verin;

- Sizə kömək lazım olduqda dərhal «qaynar xətt» telefon nömrələrinə zəng edin (Məsələn 152).

**Xaricə getmək istəyənlərin nəzərinə:**

Unutmayın! Təhsil alma, biznes, turist, ailə üzvləri ilə birləşmək üçün viza növləri mövcuddur və ölkəni bu viza növləri olmadan tərk etmək qanunsuzluqdur.

Xarici ölkəyə çatan kimi mütləq Azərbaycan səfirliyi və ya konsulluğunda, yaşadığınız ərazinin polis orqanlarında qeydiyyata düşün.

Unutmayın! Vizada göstərilən müddətdən artıq xarici dövlətdə yaşamaq ciddi qanun pozuntusu sayılır. Yaxından tanımadığınız şəxslərin sizin viza və pasport almanıza köməklik göstərmələrinə qətiyyən razı olmayın.

Xarici ölkədə seçdiyiniz otelin imicinə diqqət yetirin. Hansı ölkədə olmanızdan asılı olmayaraq Azərbaycan Respublikasının Konstitusiyası sizin hüquqlarınızın qarantıdır və pozulmuş hüquqlarınızın bərpa edilməsi üçün lazım olan hər şey Azərbaycan Respublikasının qanunvericilik aktlarında təsbit olunmuşdur.

Məlumatsızlıq hər kəsin insan alverinin qurbanı olma riskini artırır. Bunun üçün də insan alveri ilə bağlı daha çox araşdırıb öyrənməkdə və öyrətməkdə fayda var.

## BMT-nin Uşaq Hüquqları Konvensiyası və Uşaq Hüquqları haqqında Azərbaycan Respublikası Qanununun uşaqlara verdiyi hüquqların müzakirəsini nəzərdə tutan Hüquqi hekayələr

**Çalışma 1:** Mənim 14 yaşım var və 9-cu sinifdə oxuyuram. Müəlliməm sinif yoldaşlarımın, həmçinin digər şagirdlərin gözü önündə məni sözləri və davranışı ilə sıxmağa çalışır. O, öz dərsində məni təhqir etməklə kifayətlənməyərək, hətta mənə layiq olduğumu deyil, daha aşağı qiymət yazır. Məktəbdə keçirilən tədbirlərdə iştirak etməkdən də məni uzaqlaşdırır.

***Yekun:** Mövzuda BMT-nin Uşaq Hüquqları Konvensiyasının və Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanununun hansı maddəsinin pozulduğunu müəyyən edin və müzakirə apararaq həlli yollarını göstərin.*

**Çalışma 2:** Atam və anam ayrılıb. Mən isə atamla yaşayıram. Atam anamla görüşməyimə icazə vermir. Mənim 10 yaşım olmasına baxmayaraq məktəbə getmirəm. Demək olar ki, bir nəfər də olsun dostum yoxdur. Ailəmin maddi vəziyyəti pis olduğundan bu yaşıma qədər mən həkim müayinəsindən belə keçməyimi xatırlamıram. Hər gün atamla işə gedirəm. İşlədiyim sahə olduqca ağırdır və tez-tez xəstələnirəm.

***Yekun: Mövzunu müzakirə edin və hüquq pozuntularını tapın, həlli yollarını göstərin, təklif və tövsiyələrinizi bildirin.***

**Çalışma 3:** Mən Bakı kəndlərindən birində yaşayıram. Atam mən körpə olanda rəhmətə gedib. Anamla birgə tək yaşamışıq. Anam hər zaman çalışmışdır ki, məni layiqli övlad kimi böyütsün və normal təhsil alım. O bundan ötrü əlindən gələni edirdi. Bir gün anam səhər tezdən işə gedəndə hadisə baş verdi və o ağır xəsarət aldı. Xəsarət nəticəsində demək olar ki, əmək qabiliyyətini tamamilə itirdi. Həmin gündən bizim üçün çətin bir dövr başladı. Mənim yaşım az idi, ailəyə gəlir gətirən də yox idi. Biz mənə verilən aliment, anamın isə əlilliyə görə aldığı müavinətlə dolanmağa çalışırdıq. Mən artıq təhsildən yayınırdım, məktəbə gedə bilmirdim. Anam hər iki ayağını itirmişdi və bir övlad borcu kimi mən evdə qalaraq valideynimə qulluq edirdim. Bununla da həm təhsildən kənarda qalırdım, həm də dostlarımdan. Lakin bir gün televiziya məkanından müraciətimiz nəticəsiz qalmadı.

Müraciətimizə dəstək verən Ombudsman həm anamın müayinə olunmasına, həm də ailəmizə müvafiq qurumlar tərəfindən yardım göstərilməsinə və ən əsası mənim yenidən məktəbə qayıtmağıma şərait yaratdı. Bu gün mən həm məktəbə gedir, həm də öz anama qulluq edirəm. Anamın əlilliyinə və ailə başçısını itirməyə görə dövlətdən aldığımız müavinətlərlə həyat tərzimizi yaxşılaşdırmağa çalışırıq. Aidiyyəti qurumlar da bizə səlahiyyətləri çərçivəsində yardımlar edir. Beləcə dövlət öz qayğısını bizdən əsirgəmir.

Ən əsası isə odur ki, Ombudsman mənə və ailəmə mənəvi dayaqdır. Hər bayramda öz zəngi və işçiləri ilə göndərdiyi sovqatla bizi sevindirir. Ondan nümunə götürən bir şəxs də evimizi təmir etdirir. Anamın əhval ruhiyyəsi yaxşılaşdıqca mənin də həyat eşqim, gələcəyimə inamım artır.

***Yekun: Mövzunu müzakirə edin, hekayə qəhrəmanının hansı hüquqlara malik olduğunu və əlbəttə ki, mövzu üzrə öz fikirlərinizi bildirin.***

**Çalışma 4:** Mənim 12 yaşım var və küçədə yaşayıram. Siz məni dostlarımla şəhərimizin küçələrində görə bilərsiniz. Biz təhsildən yayınmışıq və bütün günü yemək axtarır, yemək almaq üçün isə pul qazanmağa çalışırıq. Bunun üçün dilənçilik edir, hərdən isə kimin üçünsə işləyirik. Küçədə yaşamaq olduqca çətindir və küçədən keçən insanların, həmçinin polislərin bizə münasibəti mənə çox pis təsir edir, ümidsiz yaşayırıq. Buna

baxmayaraq mən bilirəm ki, daha getməyə yerim yoxdur. Hər bir insan istəyir ki, böyüsün, ailə və işlə təmin olunmağa nail olsun. Mən də böyüyərək öz gələcəyim barədə düşünməyə başlayacam, çünki bilirəm ki, əks halda məni qarşıda təhlükəli bir həyat gözləyir.

***Yekun: Mövzunu müzakirə edin, mövcud hüquqları izah edin, hüquq pozuntularını tapın, həlli yollarını göstərin.***

**Çalışma 5:** Mən 11 yaşıma kimi Sabirabad rayonu ərazisində məcburi köçkünlər üçün salınmış şəhərciklərin birində yaşamışam. Mənim valideynlərim işsiz olub və biz həmişə yardım alırdıq. Mən həmin düşərgədə olan məktəbdə oxumuşam. Bizim düşərgə çox böyük idi, bütün il boyu bizim həyətimiz palçıq olurdu. Düşərgənin hər tərəfində böyük zibilliklər var idi və biz dostlarımızla orada oynamağa məcbur idik. Məktəbimiz – böyük bir vaqon idi. Orada stol və oturacaqlarımızın hamısı sınıq vəziyyətdə idi. Televizordan və düşərgəyə gələnlərdən eşidirdik ki, bütün məktəblərdə uşaqlar kompüter dərsləri keçir, bizdə isə heç bir dənə də olsun kompüter yox idi. Mən istəyirəm ki, gələcəkdə yaxşı həkim olum. Amma bunu necə edəcəyimi bilmirəm. Anam deyir ki, bunun üçün çoxlu oxumaq lazımdır. Çünki əvvəlki dövrdə oxumadıqlarımı yenidən oxumalıyam. Mənim dərs kitablarından həmin dövrdə cəmi 4 kitabım olub, məktəbimizdə isə kitabxana olmayıb.

Lakin indi sevinirəm ki, biz məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə məskunlaşmışıq və yeni tikilmiş məktəbimiz, ən əsası isə kitablarımız var. Mən çalışacam ki, həkim olmaq üçün yaxşı oxuyum və vaxtımı boş keçirməyim. Bütün uşaqlara da tövsiyə edirəm ki, özlərinə

ən yaxın dost kimi kitabları seçsinlər. Çünki kitablar çox vəfalı dostdurlar.

***Yekun: Mövzunu müzakirə edin və hüquq pozuntularını tapın, həlli yollarını göstərin, təklif və tövsiyələrinizi bildirin.***

**Çalışma 6:** Ötən il mənim 15 yaşlı uşağım Əli dərsdən sonra 4 saat ərzində bir fermer təsərrüfatında meyvə yığmağa başladı. Bu il Əli məktəbi tərk etdi və həmin təsərrüfatda tam iş vaxtı ərzində çalışmağa başladı. Əlinin bütün iş vaxtı ərzində çalışması bizim ailəmizdə böyük dəyişikliklərə səbəb oldu. Bizim şəhərdə boş iş yerləri çox azdır. Mən məktəb qurtarmamışam və hər hansı xüsusi təlim kursları keçməmişəm, buna görə də mənim qazana biləcəyim pulun miqdarı çox aşağıdır. Biz dörd uşaq böyütmüşük və onları hər ikimizin vaxtaşırı işləməsinə baxmayaraq qida ilə təmin etməkdə çox əziyyət çəkmişik. İndi isə Əlinin evə gətirdiyi gündəlik pulun hesabına ümumi büdcəmiz artmış, biz daha çox yemək, paltar ala bilir və tibbi xidmətlərdən istifadə edirik.

Əli yaşlı insan kimi çox dözümlüdür və bütün günü işləməyə qadirdir. Bundan əlavə, mən hesab edirəm ki, bizim cəmiyyətdə həmişə olduğu kimi, hər bir uşaq öz ailəsinə yardım etməlidir. Mən Əlinin bu cür məsuliyyətli olduğuna sevinir və qürur hissi keçirirəm, inanıram ki, mənim bütün uşaqlarım böyüyüb etibarlı və çalışqan, tərbiyəli olacaqlar.

***Yekun: Mövzunu müzakirə edin və hüquq pozuntularını tapın.***

**Çalışma 7:** Mənim 12 yaşım olanda mən poliomielit keçirdim. Bu xəstəliyin nəticəsi olaraq mənim sağ ayağım tamamilə iflic oldu. Ondan sonra mənim həyatım, demək olar ki, tamamilə dəyişdi. Mənzilimizin 5-ci mərtəbədə olması və binamızda liftin olmaması mənim vəziyyətimi lap çətinləşdirir. Belə ki, mən əvvəllər olduğu kimi dostlarımla bayırda oynaya bilmirəm, oxuduğum məktəbdə və digər yerlərdə pandusların olmaması mənim mədəni tədbirlərdə iştirak etməyimi və məktəbə getməyimi tamamilə məhdudlaşdırır. Artıq 2 ildir ki, mən evdə təhsil alıram, lakin bu məni qane etmir. Mən indi özümü cəmiyyətdən tam təcrid olunmuş bir insan hesab edirəm.

***Yekun: Mövzunu müzakirə edin, mövcud hüquqlardan danışın.***

**Mətn 8:** Ailəmiz çətin vəziyyətdə yaşayırdı. Atam vəfat etdikdən sonra vəziyyətimiz daha da ağırlaşdı, xəstə anamla balaca qardaşıma baxmaq mənim üzərimə düşdü. Buna görə hər gün mən bazarlarda yeşik daşıyır və axşam evə az da olsa yemək üçün nəsə alıb aparırdım. Dövlətdən aldığımız müavinətlər və mənim gündəlik qazancım bizim qidamıza və anamın dərmanlarının alınmasına kifayət etmirdi. Bu səbəbdən də mən çoxlu pul qazanmaq istəyirdim və bir gün axşam küçədə yaşlı bir qadının çantasını oğurladım. Törətdiyim əmələ görə mən Mərdəkandakı çətin tərbiyə olunan oğlanlar üçün xüsusi tipli internat məktəbinə yerləşdirildim. Həmin vaxt mənim 13 yaşım var idi. Mən orada olarkən anamın və qardaşımın çətin vəziyyətdə tək yaşamasına dözə bilmirdim. Oradan qaçdım və yenə də oğurluq edərək pul qazanmağa

başladım. Anamın lazımi müalicə ala bilməməsi onun vəziyyətinin ağırlaşmasına və vəfat etməsinə gətirib çıxardı. Artıq mənim 14 yaşım tamam olmuşdu və mən növbəti dəfə oğurluq etdiyim üçün həbs olundum, qardaşım isə internat məktəbinə verildi. Hazırda mən Ədliyyə Nazirliyinin Uşaq Tərbiyə Müəssisəsində islah olunuram. Burada olduğum müddətdə cəmiyyətdən təcrid olunmağın nə demək olduğunu başa düşdüm. Bunları nəzərə alaraq öz həmyaşıdlarıma tövsiyə edirəm ki, həmişə hüquqa zidd əməllərdən uzaq olsunlar və yalnız öz vaxtlarını kitab oxumağa, normal təhsil almağa sərf etsinlər.

***Yekun: Mövzunu müzakirə edin və hüquq pozuntularını tapın, mövzuya münasibətinizi bildirin.***

**Çalışma 9:** Mənim 10 yaşım var. Atamı tanımıram. Babam vəfat etdikdən sonra, qonşularımızdan biri təzyiqlər göstərərək evimizi ona satmağımızı istəyirdi. Bir gün həmin qonşu anama təkidlə onun baş açmadığı bir sənədə imza atdırdı və bununla da evimizi dəyərindən ucuz qiymətə ona satmağa məcbur olduq. Bir an ayıldıq ki, artıq bayırdayıq və bununla da evimiz əlimizdən alındı. Aldığımız pul isə bir il müddətində qurtardı. Uzun müddət zirzəmilərdə, binaların dəhlizlərində, sığına biləcəyimiz yerlərdə gecələyirdik. Artıq mən uzun müddət idi ki, küçə həyatı keçirirdim. Uşaqların istifadə edə biləcəyi bütün imkanlardan kənarda qalmışdım. Hətta qız uşağı olmağıma baxmayaraq mənim heç kuklam da olmamışdı. Çox insanlar bizi tanıyırdı, kimisi yemək verir, kimi paltar, kimi isə hərdən pul da verirdi. Kömək etmək istəyən insanlar

çox idi, lakin verilən vədlər orada da qalırdı. Beləcə anamla küçələrdə günümüzü keçirirdik.

Bir gün binaların birinin dəhlizində yatmışdıq və bir xanımın bizi oyatdığını hiss etdim, anam da oyandı. Biz elə bildik ki, kimdirsə bizi burdan qovmaq istəyir, çünki belə hallarla çox rastlaşırdıq. Həmin xanım bir-neçə dəfə bizimlə maraqlandı və burada olmağımızın səbəbini soruşdu. Bir gün həmin xanım bizə yenə yaxınlaşdı və Ombudsman deyilən bir şəxsin onlara kömək edəcəyini bildirdi və həqiqətən də bu belə oldu. Onlar bizə kömək etdilər. Bizi SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyasının proqramı vasitəsi ilə qısa zaman kəsiyində özümüzə şərait qurmaq məqsədilə mənzildə yerləşdirdilər. Mən hələ də isti mənzildə yaşamağıma inanmırdım. Sonradan tanış olduğum Ombudsman deyilən Elmira xanım bizə çox dəstək oldu. Hüququmuzdan istifadə etməyimiz üçün bizə köməklik etdi. Bu gün bizə müxtəlif qurumlar tərəfindən yardımlar da olunur. Elmira xanım mənə heç zaman əldə edə bilmədiyim kukla da hədiyyə etdi və bu kukla mənim ən yaxın dostumdur. Artıq mən təhsil almaq, öz həmyaşıdlarım kimi fərqlənmək istəyirəm. Mən həm də çalışacam ki, öz hüquqlarımı mükəmməl öyrənim. Yaşından asılı olmayaraq hüquqlarını bilməyən şəxs cəmiyyətdə özünə yer tuta bilməz.

***Yekun: Mövzunu müzakirə edin, təklif və tövsiyələrinizi bildirin.***

**Çalışma 10:** Zorakılığa məruz qalmış 12 yaşlı qızından imtina edən ana onu uşaq evinə verir və onunla əlaqə saxlamır. O, uşaqlardan kənarlaşdırılır və ayrıca otaqda saxlanılır. Onun sənədləri kənd məktəbində qaldığından müəssisə rəhbərliyi məsələyə laqeyd yanaşır, o dərsə getmir. Televiziya kanallarından birində bu qızla bağlı verilən informasiya onun vəziyyətini bir qədər də ağırlaşdırır. Uşaqlardan təcrid olunması, insanların ona münasibəti, problemi ilə heç kimin maraqlanmaması 12 yaşlı qızı uçuruma sürükləyirdi. O öz hüquqlarını müdafiə etmək üçün kimə və haraya müraciət edəcəyini bilmirdi.

Fikrinizə görə o nə etməlidir?

***Yekun: Mövzuya BMT-nin Uşaq Hüquqları Konvensiyası və Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanununun müddəaları əsasında hüquqi qiymət verin.***

**Çalışma 11:** Afət və Azər bacı-qardaşdırlar. Afətin 15, Azərin isə 14 yaşı var. Afət dərslərini yaxşı oxuyur, qardaşı isə dərslərində geri qalırdı. Bu səbəbdən də atası Azəri həmişə döyürdü. Bir gün yenə də Azər dərslərini hazırlamamışdı. O, əvvəlki gün də riyaziyyat fənnindən iki almışdı. Atası bunu eşidərək yenə də hirsləndi və Azəri vurmaq istəyirdi. Afət atasının qarşısına keçərək xahiş etdi ki, qardaşını vurmasın, çünki Azərin dərslərini hazırlamasında yardımçı olacaq.

Azər artıq bacısının köməyi ilə dərslərini yaxşı öyrənir və siniflərində fərqlənən şagirdlərdən birinə

çevrilir. Ondakı bu dəyişikliyə müəlimləri də heyran qalırlar.

*Qeyd:* Uşaq Hüquqları haqqında Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır.

Uşağın tərbiyəsi ailədə, məktəbdə, məktəbəqədər və məktəbdənkənar uşaq təlim-tərbiyə müəssisələrində aparılır. Dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır və belə müəssisələrin yaradılmasında ictimai təşkilatlara kömək edir.

***Yekun: Mövzunu müzakirə edin və hüquq pozuntularını tapın, mövzuya münasibətinizi bildirin.***

**Çalışma 12:** Rəhman və Ayan bacı-qardaşdırlar. Atası Rəhmanı həmişə gəzməyə aparır, Ayan isə qız uşağı olduğundan evdə qalaraq oyuncaqları ilə oynayırdı. Ata hər iki övladını sevir, amma Rəhmana daha çox qayğı ilə yanaşırdı. Bütün bunlar isə Ayana pis təsir göstərirdi, çünki o da qardaşı ilə gəzməyə getmək, vaxtını xoş keçirmək istəyirdi.

Çox keçmədi ki, ataları bunu hiss etdi. Artıq Rəhman və Ayan ataları ilə birlikə parka gedir, asudə vaxtlarını səmərəli keçirirlər. Onlar çox xoşbəxtdirlər.

***Yekun: Mövzuda BMT-nin Uşaq Hüquqları Konvensiyasının və Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanununun hansı maddəsinin pozulduğunu müəyyən edin və müzakirə apararaq həlli yollarını göstərin.***

**Çalışma 13:** Ermənilərin torpaqlarımıza təcavüzü nəticəsində 20 ildən artıqdır ki, soydaşlarımız öz doğma yurd-yuvalarından didərgin düşüb, 20 faizdən artıq torpaqlarımız düşmən tapdağı altındadır.

Atəşkəs elan olunasına baxmayaraq müharibə şəraiti hələ də davam edir, ermənilər dinc əhaliyə güllə atmaqdan çəkinmirlər. Belə ki, 2011-ci ilin 8 mart tarixində daha bir azyaşlı uşaq, 9 yaşlı Fariz Bədəlov erməni snayperi ilə amansızcasına qətlə yetirildi. Nə ömür yaşadı o? İnanıram ki, bizim qəhrəman əsgərlərimiz Farizin timsalında qətlə yetirilmiş bütün soydaşlarımızın qisasını alacaqdır.

***Yekun: Mövzuya BMT-nin Uşaq Hüquqları Konvensiyasının və Azərbaycan Respublikasının Uşaq Hüquqları haqqında Qanununun gözü ilə münasibət bildirin və hüquq pozuntusunu göstərərək müzakirə edin.***

**Çalışma 14:** Mənim adım Aydandır, 14 yaşım var. Siz necə düşünürsünuz mən öz prezidentimi, öz millət vəkilimi seçmək üçün səs verə bilərəm?

Bilirəm mənə güləcəksiniz və deyəcəksiniz axı sən böyüməmisən. Bunu mən də bilirəm. Onu da bilirəm ki, 18 yaşıma çatana kimi mən hələ uşaq hesab olunuram. Deməli mənim hələ seçki hüququm yoxdur. Bununla mən sizi yoxlamaq istəyirdim.

Ama mən onu da bilirəm ki, Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu mənə geniş hüquqlar bəxş edib. Mən həmin Qanunda və ölkəmizin qoşulduğu BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasında əks olunmuş digər hüquqlarımdan istifadə edə bilərəm.

*Yekun:* Aha! Bəs o hansı hüquqlardır? İndi siz mənə kömək edə bilərsinizmi həmin hüquqlar haqqında danışaq?

**Çalışma 15:** Mənim sinif yoldaşım Azər ögey anası tərəfindən demək olar ki, hər gün döyülür. Ögey anası onu işlədir, bəzən ac saxlayır, məktəbə gəlməsinə, istirahət etməsinə mane olur. O da bizim kimi normal, zorakılıqsız həyat arzulayır. Azər 14 yaşı olmasına baxmayaraq öz hüquqlarını da bilmir. Bu da onun inkişafına mane olur.

***Yekun: Azərin hansı hüquqlarının pozulduğunu qeyd edin və ona çıxış yolu göstərin***

**Çalışma 15:** Dərs vaxtı uşaqlar bir birinə məktub göndərirlər. Bunu görən müəllim həmin məktubları şagirdlərdən alır. Sonra isə açaraq ucadan oxuyur. Bu halda müəllim haqlıdırmı, ya bunu şəxsi həyata müdaxilə esab edərək onu haqsız hesab edəcəksiniz?

Amma unutmayın ki, müəllimin dərsini pozmağa sizin heç bir hüququnuz yoxdur.

*Yekun:* **Qoyulmuş suallarla bağlı fikirlərinizi bildirin və UHK-nın hansısa maddəsinin pozulduğunu ehtimal edirsinizsə mütləq qeyd edin.**

## 1. Mənim kimliyim oyunu:

**Mənim şəxsiyyət vəsiqəm**

**Ad:** Qəşəm
**Soyad:** Məmmədzadə
**Doğum tarixi:** 06.08.2005
**Ünvan:** Bakı şəhəri, Sabunçu rayonu
**Məktəb:** Sabunçu rayon 170 nömrəli orta ümumtəhsil məktəbi
**Sinif:** 1-ci sinif şagirdi

**Açıqlama:** Uşaqlar bir vərəqdə şəkildə göründüyü kimi, başlıqlar şəklində ad, soyad, doğum tarixi, ünvan, məktəb və siniflərini göstərməklə kimliklərini təyin edirlər.

Bu zaman isə Uşaq Hüquqları Konvensiyasının (UHK-nin) maddələrində əks olunmuş hüquqlara istinad etmək olduqca zəruridir.

## 2. Tanışlıq oyunu

Şagirdlərə tapşırığı izah edin!

Uşaqlar, biz sizinlə oyun vasitəsilə tanış olacağıq. Sizə kənarında rəqəmlər yazılmış ağ vərəqlər paylanacaq. Siz isə orada yazılmış rəqəmlərə uyğun qruplar yaradacaqsınız. Məsələn, bir rəqəmi kimin vərəqinin kənarında yazılıbsa onlar bir yerə, iki yazılanlar bir yerə, vərəqlərində üç rəqəmi yazılanlar bir yerə toplanacaqlar. Beləcə vərəqlərdə rəqəmlərin sayını artırmaqla, yəni uşaqların sayından asılı olaraq dörd, beş və daha artıq yazmaqla qrupları daha da çoxaltmaq olar.

Sizlər vərəqin başlığında ad və soyadlarınızı yazaraq, həyatda ən xoşunuza gələn şeylərin nə olduğunu, hansı hüquqlarınızın olduğunu, həmçinin hüquqları bilməyin sizin üçün nə dərəcədə lazımlı, önəmli olduğunu qeyd etməlisiniz.

Tapşırığın hər kəsə aydın olub-olmaması mütləq soruşulmalıdır!

Tapşırığı yerinə yetirmək üçün isə iştirakçılara 10-15 dəqiqə vaxt verilir. Vaxtın tamamında hər qrupdan bir və ya iki nəfər çıxıb öz qrupunu digərlərinə təqdim etməlidir. Hər bir qrupun təqdimatı üçün 5 dəqiqə vaxt veriləcək.

*Beləcə Siz, qruplardakı şəxslərlə tanış olmaqla yanaşı, onların öz hüquqlarını nə dərəcədə bilmələri haqqında məlumatlı olacaq, tədris üçün istiqamət müəyyən etməkdə çətinlik çəkməyəcəksiniz.*

## 3. Mənim hüquqlarım və vəzifələrim oyunu:



**Mənim hüquqlarım:**

1. ____________________
2. ____________________
3. ____________________
4. ____________________
5. ____________________
6. ____________________
7. ____________________
8. ____________________

**Mənim vəzifələrim:**

1. ____________________
2. ____________________
3. ____________________
4. ____________________
5. ____________________

**Açıqlama:** Oyun zamanı uşaqlar dərsliklərdən, Konstitusiyamızdan, Uşaq Hüquqları Konvensiyasından, Uşaq Hüquqları haqqında Qanundan öyrəndikləri hüquqlarını və bu hüquqların həyata keçirilməsi zamanı yaranan vəzifələrini ardıcıl olaraq sıralamaqla qeyd edirlər. Uşaqlar tərəfindən hüquq və vəzifələrinin sayının daha da çoxaldılaraq qeyd olunması arzu olunandır.

## 4. Xəritə oyunu

Uşaqları bərabər şəkildə qruplara bölün və dünya xəritəsinə nəzər salmaqla müxtəlif dövlətlərdə baş verən hadisələr, müharibə gedən, uşaqların zorakılıqla qarşılaşdıqları və bu barədə məlumatlı olduqları ölkələr haqqında onların özlərinin fikirləri əsasında müzakirələr təşkil edin və uşaq hüquqları haqqında danışın. Xəritədə ölkələri göstərərkən orada baş verən hadisələr zamanı uşaqların hansı hüquq pozuntuları ilə qarşılaşdıqlarını uşaqların dilindən eşitməyə çalışın. Onlardan xahiş edin ki, Uşaq Hüquqları Konvensiyasında nəzərdə tutulmuş hansı hüquqların həmin ölkələrdə pozulduğunu göstərsinlər.



## 5. Bərabərsizlik oyunu

Bir anlıq düşünün ki, Uşaq Hüquqları Konvensiyasında göstərilən hüquqlara yalnız aşağıdakı şəxslər malikdir:

Yalnız varlı və imkanlı ailələrin uşaqları;

Yalnız gözləri göy, saçları sarı və qıvrım olanlar;

Yalnız inkişaf etmiş dövlətlərdə və ya Avopa ölkələrində yaşanlar;

Yalnız hər hansı seçilmiş bir dildə danışanlar;

Yalnız hər hansı bir dinə nənsub olanlar və s.

**Qeyd olunanlar olsaydı nələr baş verərdi? Bu haqqda fikirlərinizi səhnələşdirərək hansı hadisələrin baş verəcəyini və bərabərsizliyin nə olduğunu daha aydın başa düşə bilərik.**

## 6. Gündəlik hüquqlarım oyunu

Müəllim və ya trener iştirakçılara bildirir ki, gəlin indi hər birimiz ötən bir günümüz haqqında danışaq. Bu zaman siz bir-birinizə diqqətlə qulaq asın və ötən gün ərzində hansı hüquqların sizi müşayiət etdiyini müəyyənləşdirin.

**Məsələn:** Mən səhər yuxudan oyandım, idman etdim, səhər yeməyimi yedim və dayanacağa yollandım ki, avtobusla məktəbə gedim. Məktəbə çatanda yol kənarındakı dükandan mənə lazım olan şeyləri aldım. Dərs saatım səhər 8-dən, günorta 1-ə qədərdir. Dərsdən sonra evə getdim televizoru seyr etdim, dərslərimi hazırladım və yatdım.

Geridə qoyduğunuz bir günü təhlil edin və burada hansı vaxtlarda hansı hüquqların sizinlə olduğunu müəyyənləşdirin.

## 7. Hüquqların həyata kecirilməsi oyunu:

**İştirakçılar bərabər sayda bir-neçə qrupa bölünür.**

Bir anlıq fikirləşin ki siz hüququnuzu həyata keçirə bilmədiyiniz bir cəmiyyətə düşmüsünüz. Fikrinizdə canlandırın ki, təyyarədə olduğunuz zaman fövqəladə bir hadisə baş verir, siz və digər insanlar paraşütlə tanımadığınız bir adaya düşərək ora yaşamağa məcbur olursunuz.

- Bu baxımdan siz normal həyatınız üçün 5 əsas hüquq normasının reallaşdırılmasını zəruri hesab edərək onları müəyyən edin (Ayrılmalı vaxt: 10 dəqiqə).
- Sonra hər qrupun nümayəndəsi seçdikləri hüquqlar haqqında məlumat verir, həmin hüquqların siyahısı asılır, digər qruplarla müqayisə edilir və müzakirə olunur.

**Müzakirə olunan məsələlər isə:**

- Həmin hüquqların hansı əsaslarla, yəni nəyə görə seçilməsi;
- Həmin şəraitdə uşaqların seçdikləri hüququn nə üçün önəmli olması;
- Bu hüquqları UHK-na əsasən hansı kateqoriya hüquqlara aid edilməli olduğu.

## 8. Pilləli - interaktiv insan hüquqları oyunu

| | | | |
|---|---|---|---|
| **1.** İnsan hüquqları dedikdə nə başa düşürsünüz? | **Cavab:**___<br>_________<br>_________ | **4.** Hansı hüququnuz daha çox pozulur? | **Cavab:**___<br>_________<br>_________ |
| **2.** Yaşadığınız ərazidə hansı hüquq pozuntularını müşahidə etmisiniz? | **Cavab:**___<br>_________<br>_________<br>_________<br>_________<br>_________ | **5.**Uşaq hüquqlarını kim qoruyur? | **Cavab:**___<br>_________<br>_________<br>_________<br>_________<br>_________ |
| **3.** Zorakılıq nədir? | **Cavab:**___<br>_________<br>_________<br>_________<br>_________ | **6.** Təhsil aldığınız müəssisədə hansı hüquq pozuntusu ilə rastlaşmısınız? | **Cavab:**___<br>_________<br>_________<br>_________<br>_________ |

**Açıqlama:** 10-15 nəfərlik qrupda iştirakçılar dağılışaraq bir-birilərindən bu xanalarda verilmiş suallara cavab soruşurlar. Yoldaşlarının fikirləri əsasında xanalardakı sualları tez cavablandıran iştirakçı "Pilləli" qışqırmaqla oyunu bitirdiyini bildirir. O, oyunun qalibi sayılır. Sonra isə iştirakçılar dairəvi əyləşir və qalib şəxs xanalardakı sualları və yazdığı cavabı oxuyur, ardınca isə digər iştirakçılar hər bir suala uyğun öz cavablarını səsləndirirlər. Qoyulmuş bütün suallar və onlara cavablar qalibdən sonra iştirakçılar tərəfindən ardıcıllıqla oxunur.

## 9. Xoş söz oyunu

Sənin köynəyindən çox xoşum gəldi.
Sən çox ağıllı və çalışqansan.
Cəsur birinə bənzəyirsən.
Yəqin sənin çoxlu dostların var.
Mən də səninlə dost olmaq istəyirəm
və s.



Bu oyun, adətən, uzun və çətin mövzuların tədrisi gedişində istifadə olunur. Məqsəd isə iştirakçılara, həmçinin onların bir-birinə xoş sözlər deməklə gərginliyin və yorğunluğun aradan qaldırılmasıdır.

Şəkillər əsasında hekayələr qurun: problemin həlli yollarını göstərərək hüquq pozuntuları haqqında danışın.

**Mövzu 1: Bərabərlik**



Şəkil əsasında bərabərlik hüququnu müzakirə edərək fikirlərinizi bildirin.

## Mövzu 2: Uşaq əməyi



Tədris mövzularına paralel şəkildə və ya əlavə tapşırıq əsasında dinləyicilərlə "Uşaq əməyi" haqqında müzakirələr təşkil edin.

## Mövzu 3: Ayrı-seçkiliyin qarşısının alınması



Dinləyicilərlə Uşaq Hüquqları Konvensiyasına istinad etməklə "Uşağın baxışları" haqqında danışın.

## Mövzu 4: Təhsilin məqsədləri





Gəlin təhsil hüququ və təhsilin məqsədləri haqqında danışaq, müzakirə təşkil edərək mövzuya açıqlama verək.

# Mövzu 5: Cəmiyyətdə uşaqlara qarşı zorakılıq



Cəmiyyətdə uşaqlara qarşı baş verən zorakılıq halları haqqında müzakirələr təşkil edin, fikirlərinizi bildirin.

# Mövzu 6: Yaşamaq üçün ayrılmaz hüquqlar



Ayrılmaz hüquqların nə demək olduğu haqqında məlumat verin və Uşaq Hüquqları Konvensiyasına müraciət etməklə dinləyiciləri bu hüquqlar haqqında fikir bildirməyə dəvət edin.

# Mövzu 7: Hüquqların həyata keçirilməsi




Uşaq Hüquqları Konvensiyası və Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanununa müraciət etməklə hüquqların hansı formada həyata keçirilməsinin mümkünlüyü, yəni reallaşdırılması haqqında danışa bilərsinizmi?

## Mövzu 8: Müəllim və şagird münasibətləri



Şəkilə baxaraq fikirlərinizi bölüşün. Təhsil aldığınız müəssisədə sizin və ya dostlarınızın belə hallarla rastlaşıb-rastlaşmamaları, bu haqda eşitdikləriniz əsasında münasibətinizi bildirin.

# Mövzu 9: Valideyn tərəfindən pis rəftar



Son dövrlər hər birimiz televiziya, radio və digər mənbələrdən uşaqların doğma və ya ögey valideynləri tərəfindən zorakılığa məruz qaldığını eşidirik. Bəs siz bu haqda nə deyə bilərsiniz?

## Mövzu 10: Uşağın baxışları və fikir azadlığı




Uşağın fikir azadlığını, baxışlarını əks etdirən şəklə baxaraq, «Mən kiməm?» başlığı ilə yazıda verilən sualı cavablandırın.

# Mövzu 11: Asudə vaxtı səmərəli keçirmək



Asudə vaxtını səmərəli keçirməyin, ümumiyyətlə, istirahət hüququnun uşaqlar üçün nə dərəcədə əhəmiyyətli olması barədə müzakirələr təşkil edin və fikirlərinizi bildirin.

# Mövzu 12: Validеynlərin məsuliyyəti



Siz hüquqlarınızı öyrənərkən, inkişafınız prosesində valideynlərinizin məsuliyətinə də toxunmusunuz. Şəkil əsasında 18 yaşınadək uşaqların formalaşmasında valideynlərin rolundan danışa bilərsinizmi?

# Mövzu 13: Uşaqların istismarı



Biz tədris mövzularında uşaqların həm fiziki, həm də cinsi istismarından danışmışıq. Bəs bu şəkilə baxarkən hansı fikirləri söyləyə bilərik?

Gəlin şəkil əsasında fikirlərimizi bildirək.

# Mövzu 14: Sağlam ətraf mühitdə yaşamaq




Mövzunu oxuduqdan sonra şəkilə baxın və sual işarəsi qoyulmuş lövhələrdə hansı fikirlərin söylənə biləcəyini, eləcə də hansı hüquqların tələb olunmasını müzakirə edin. Fikrinizcə, şəkildə söhbət nədən gedir?

# Mövzu 15: Hüquqların müxtəlifliyi




Bu şəkildə də sual işarəsi qoyulmuş lövhə ilə rastlaşdıq. Bəs buna necə aydınlıq gətirə bilərik? Hüquqların müxtəlifliyi deyəndə nə başa düşürük?

## ÇALIŞMA 1:

Bu şəklə baxarkən biz hansı hüquqlar haqqında danışa bilərik?

Dinləyicilərin də fikirlərini öyrənməyə çalışın.



**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

ÇALIŞMA 2:



**Bəs bu şəkildə hansı hüquqlar öz əksini tapmışdır?**

**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

ÇALIŞMA 3:



**Bu şəkil sizin üçün nəyi və hansı hüquqları ifadə edir?**

**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin.**

**Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

ÇALIŞMA 4:

**Şəklə uyğun hansı hüquqlarınız haqda danışa bilərsiniz?**



**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

## ÇALIŞMA 5:

**Gəlin Konstitusiyamız və Uşaq Hüquqları haqqında Konvensiyadan misallar gətirməklə hüquqlarımız haqqında danışaq.**



**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

## ÇALIŞMA 6:

**Hüquqlarınızdan biri kimi, təhsil hüququ haqqında nə deyə bilərsiniz?**



**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

ÇALIŞMA 7:

**Əziz uşaqlar!**

**Deyə bilərsinizmi ki, istirahət etmək və asudə vaxt keçirmək hüququnu necə başa düşürsünüz?**



**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

## ÇALIŞMA 8:

**Bu şəkil sizlərə nələri ifadə edir? Gəlin fikirlərimizi bölüşək.**



**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

## ÇALIŞMA 9:

**Gəlin inkişaf hüququ, sülh hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, xalqların öz müqəddəratını təyin etmək hüququ, bəşəriyyətin ümumi irsi, humanitar yardım hüququ haqqında danışaq.**



**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

## ÇALIŞMA 10:

**Hər kəs bərabər və ayrılmaz hüquqlara malik olması haqda nə deyə bilərsiniz?**



**Şəklə baxaraq dinləyicilərə əlavə suallar verin. Onlardan bu şəklə əsaslanaraq öz fikirlərini bildirmələrini xahiş edin.**

# İNSAN HÜQUQLARI HAQQINDA ÜMUMİ BƏYANNAMƏ

*Ləyaqət və ədalət – hamımız üçün!*

*Hər kəs doğulduğu andan bərabər və ayrılmaz hüquqlara və əsas azadlıqlara malikdir.*
*Birləşmiş Millətlər Təşkilatı hər bir fərdin insan hüquqlarının qorunması, təbliği və müdafiəsi öhdəliyini öz üzərinə götürmüşdür. Bu öhdəlik bütün dünya xalqlarının əsas insan hüquqlarına və insan şəxsiyyətinin ləyaqət və dəyərinə olan inamını təsdiqləyən Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsindən irəli gəlir.*
*İnsan Hüquqları Haqqında Ümumi Bəyannamədə Birləşmiş Millətlər Təşkilatı aydın və sadə ifadələrlə hər bir şəxs üçün bərabər olan hüquqları bəyan etmişdir.*
*Siz də bu hüquqlara maliksiniz.*
*Bunlar sizin hüquqlarınızdır. Bu hüquqlarla tanış olun. Özünüz və yaxın şəxsləriniz üçün bu hüquqları təbliğ və müdafiə etməkdə yardımçı olun.*

## Preambula

Bəşər ailəsinin bütün üzvlərinə məxsus olan ləyaqət hissinin və onların bərabər və ayrılmaz hüquqlarının tanınmasının azadlıq, ədalət və ümumi sülhün əsası olduğunu nəzərə alaraq; insan hüquqlarına qarşı etinasızlıq və nifrətin bəşəriyyəti hiddətləndirən vəhşilik hərəkətlərinə səbəb olduğunu, insanların söz və etiqad azadlığına malik olacaqları, qorxu və ehtiyacdan azad bir dünyanın qurulmasının bəşəriyyətin ən ali istəyi olduğunu nəzərə alaraq; insanın son vasitə kimi istibdad və zülmə qarşı qiyama qalxmağa məcbur olmamasını təmin etmək üçün insan hüquqlarının qanunun aliliyi vasitəsi ilə təmin edilməsinin zəruriliyini nəzərə alaraq; xalqlar arasında dostluq

münasibətlərinin inkişaf etdirilməsinin zəruriliyini nəzərə alaraq; Birləşmiş Millətlərin xalqlarının BMT-nin Nizamnaməsində əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə, kişi və qadınların hüquq bərabərliyinə inamlarını təsdiq etdiklərini və daha geniş azadlıq şəraitində sosial tərəqqi və həyat şəraitinin yaxşılaşdırılmasına yardım etməyi qət etdiklərini nəzərə alaraq; üzv-dövlətlərin Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq şəraitində insan hüquqlarına və əsas azadlıqlarına hamılıqla hörmət göstərilməsinə və onlara əməl olunmasına yardım etməyi öhdələrinə götürdüklərini nəzərə alaraq; bu hüquq və azadlıqların hamılıqla dərk edilməsinin həmin öhdəliyin tam yerinə yetirilməsində böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Baş Assambleya İnsan Hüquqları Haqqında Ümumi Bəyannaməni bütün xalqların və dövlətlərin yerinə yetirilməsinə çalışmalı olduğu bir vəzifə kimi elan edir ki, hər bir insan, cəmiyyətin hər bir təsisatı bu Bəyannaməni daim rəhbər tutaraq, maarif və təhsil yolu ilə bu hüquq və azadlıqlara hörmət edilməsinə, mütərəqqi milli və beynəlxalq tədbirlər vasitəsilə onların istər Təşkilatın üzv dövlətlərinin, istərsə də onların yurisdiksiyasındakı ərazilərin xalqları arasında səmərəli tanınmasının və həyata keçirilməsinin təmin olunmasına səy göstərsinlər.

**Maddə 1.** Hər kəs doğulduğu andan ləyaqət və hüquqları baxımından bərabərdir. Bütün insanlar şüur və vicdana malikdirlər və bir-birləri ilə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar.

**Maddə 2.** İrqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli, yaxud sosial mənşəyindən, əmlak, silki və ya digər vəziyyətinə görə heç bir fərq qoyulmadan hər kəs bu Bəyannamədə təsbit edilmiş bütün hüquq və azadlıqlara malikdir.

Bundan əlavə, həmin şəxsin mənsub olduğu ölkənin, yaxud ərazinin, siyasi, hüquqi və ya beynəlxalq statusu əsasında,

həmin ərazinin müstəqilliyindən, qəyyumluq altında olmasından, özünü idarə edib-etməməsindən, yaxud suverenliyinin hər hansı başqa formada məhdudlandırılmasından asılı olmayaraq heç bir ayrı-seçkiliyə yol verilməməlidir.

**Maddə 3.** Hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır.

**Maddə 4.** Heç kəs köləlikdə və ya asılı vəziyyətdə saxlanılmamalıdır; köləlik və qul ticarətinin bütün formaları qadağan edilməlidir.

**Maddə 5.** Heç kəsiş gəncəyə və ya qəddar, qeyri insani, yaxud insan ləyaqətini alçaldan rəftara və cəzaya məruz qalmamalıdır.

**Maddə 6.** Hər kəs harada olmasından asılı olmayaraq hüquq subyekti kimi tanınmaq hüququna malikdir.

**Maddə 7.** Bütün insanlar qanun qarşısında bərabərdir və heç bir ayrı-seçkilik olmadan qanun tərəfindən eyni dərəcədə müdafiə olunmaq hüququna malikdirlər. Bütün insanlar bu Bəyannaməni pozan hər hansı ayrı-seçkilikdən və belə ayrı-seçkiliyə təhriklərdən eyni dərəcədə müdafiə olunmaq hüququna malikdirlər.

**Maddə 8.** Hər kəs Konstitusiya, yaxud qanunla ona verilmiş əsas hüquqların pozulduğu hallarda səlahiyyətli milli məhkəmələr tərəfindən həmin hüquqlarının bərpa olunması hüququna malikdir.

**Maddə 9.** Heç kəs özbaşına həbs oluna, tutulub saxlanıla, yaxud sürgün edilə bilməz.

**Maddə 10.** Hər kəs öz hüquq və vəzifələrinin müəyyən olunması və ona qarşı irəli sürülmüş cinayət ittihamının əsaslılığının müəyyən edilməsi üçün onun işinə tam bərabərlik əsasında, aşkarlıq və ədalətin bütün tələblərinə riayət olunmaqla müstəqil və qərəzsiz məhkəmədə baxılması hüququna malikdir.

**Maddə 11.** Cinayət törətməkdə ittiham olunan hər bir şəxsin, onun təqsiri müdafiə üçün bütün imkanların təmin olunduğu açıq məhkəmə istintaqında qanuni şəkildə sübut olunanadək, günahsız hesab olunma hüququ var.

Heç kəs törədilərkən milli qanunvericilik, yaxud beynəlxalq hüquqa əsasən cinayət hesab olunmayan əməllərə və ya fəaliyyətsizliyə görə cinayətdə ittiham oluna bilməz. Eləcə də cinayətin törədildiyi zaman tətbiq edilə bilən cəzadan daha ağır cəza verilə bilməz.

**Maddə 12.** Heç kəsin şəxsi və ailə həyatına özbaşına müdaxilə oluna, onun mənzil toxunulmazlığına, yazışma sirrinə, yaxud şərəf və nüfuzuna özbaşına qəsd edilə bilməz. Hər bir şəxsin belə müdaxilə və qəsdlərdən qanunla müdafiə olunmaq hüququ vardır.

**Maddə 13.** Hər kəs hər bir dövlətin hüdudlarında sərbəst hərəkət etmək və yaşayış yeri seçmək hüququna malikdir.

**Maddə 14.**

1. Hər kəsin təqibdən qorunmaq üçün başqa ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququ vardır.
2. Bu hüquqdan əsaslandırılmış qeyri-siyasi cinayət, yaxud Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd əməllərə görə təqib olunma hallarında istifadə edilə bilməz.

**Maddə 15.** Hər kəs vətəndaşlıq hüququna malikdir.

Heç kəs vətəndaşlıqdan, yaxud vətəndaşlığını dəyişmək hüququndan özbaşına məhrum edilə bilməz.

**Maddə 16.**

1. Yetkinlik yaşına çatmış kişilər və qadınlar irqi, milli, yaxud dini əlamətlərə görə heç bir məhdudiyyət qoyulmadan nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikaha daxil olarkən, nikah müddətində və onun pozulması zamanı eyni hüquqlardan istifadə edirlər.
2. Nikah yalnız nikaha daxil olan hər iki tərəfin azad və tam razılığı ilə bağlana bilər.
3. Ailə cəmiyyətin təbii və başlıca özəyidir və cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir.

**Maddə 17.**

1. Hər kəsin təkbaşına və ya müştərək mülkiyyətə sahib olmaq hüququ var.
2. Heç kəs mülkiyyətindən özbaşına məhrum edilə bilməz.

**Maddə 18.** Hər kəs fikir, vicdan vədin azadlığı hüququna malikdir; bu hüquqa öz dinini və əqidəsini dəyişmək azadlığı və

dininə və əqidəsinə təlim, ibadət, dini ayin və mərasimlər zaman təklikdə və ya başqaları ilə birgə, aşkar, yaxud fərdi qaydada, etiqad etmək azadlığı daxildir.

**Maddə 19.** Hər kəsin əqidə azadlığı və onu sərbəst şəkildə ifadə etmək hüququ var; bu hüquqa əqidəsinə maneəsiz etiqad bəsləmək, dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyaları istənilən vasitələrlə axtarmaq, əldə etmək və yaymaq azadlığı daxildir.

**Maddə 20.** Hər kəsin dinc toplaşmaq və birləşmək azadlığı vardır.

Heç kəs hər hansı birliyə daxil olmağa məcbur edilə bilməz.

**Maddə 21.**

1. Hər kəs öz ölkəsinin idarə olunmasında bilavasitə və ya azad şəkildə seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir.
2. Hər kəsin öz ölkəsində dövlət qulluğuna girməkdə bərabər hüquqa malikdir.
3. Xalqın iradəsi dövlət hakimiyyətinin mənbəyi olmalıdır; bu iradə gizli səsvermə yolu ilə, ümumi və bərabər seçki hüququ və ya səsvermənin azadlığını təmin edən digər eyni əhəmiyyətli formalar əsasında keçirilən mütəmadi və ədalətli seçkilərdə öz əksini tapmalıdır.

**Maddə 22.** Hər kəsin, cəmiyyətin bir üzvü kimi, sosial təminat, milli səylər və beynəlxalq əməkdaşlıq əsasında, hər bir dövlətin struktur və ehtiyatlarına müvafiq olaraq, ləyaqətinin qorunması və şəxsiyyətinin azad inkişafı üçün zəruri olan iqtisadi, sosial və mədəni hüquqlarını həyata keçirmək hüququ vardır.

**Maddə 23.**

1. Hər kəsin əmək, sərbəst iş yeri seçmək, ədalətli və əlverişli iş şəraiti, və işsizlikdən müdafiə hüququ vardır.
2. Hər kəs heç bir ayrı-seçkilik qoyulmadan eyni əmək üçün bərabər əmək haqqı almaq hüququna malikdir.
3. Hər kəs özünün və ailəsinin insana layiq yaşamasını təmin edən və lazım gəldikdə digər sosial təminat vasitələri ilə tamamlanan ədalətli və qənaətbəxş haqq almaq hüququna malikdir.

4. Hər kəs öz mənafelərini müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq, yaxud həmkarlar ittifaqlarına daxil olmaq hüququna malikdir.

**Maddə 24.** Hər kəsin istirahət və asudə vaxt, o cümlədən, iş gününün məntiqə uyğun hüdudu və vaxtaşırı ödənişli məzuniyyət hüququ vardır.

**Maddə 25.**

1. Hər kəs özünün və ailəsinin sağlamlıq və rifahını təmin etmək üçün lazım olan, qida, geyim, mənzil, tibbi və zəruri sosial xidmət daxil olmaqla layiqli həyat səviyyəsinə nail olmaq hüququna, habelə işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq, yaxud yaşayış vasitələrindən özündən asılı olmayan digər səbəblərdən məhrum olduğu hallarda təminat hüququna malikdir.

2. Analar və uşaqlar xüsusi qayğı və yardım almaq hüququna malikdirlər. Nikahda və nikahdan kənar doğulan bütün uşaqlar sosial müdafiədən eyni dərəcədə istifadə etməlidirlər

**Maddə 26.**

1. Hər kəsin təhsil hüququ var. Ən azı ibtidai və ümumi təhsil pulsuz olmalıdır.

2. İbtidai təhsil icbari olmalıdır. Hər kəs texniki və peşə təhsili almaq imkanına malik olmalıdır, ali təhsil hər kəsin qabiliyyəti əsasında hamı üçün eyni dərəcədə əlçatan olmalıdır.

3. Təhsil insan şəxsiyyətinin tam inkişafına, insan hüquqlarına və əsas azadlıqlarına hörmətin artmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi vədini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və dostluğa, Birləşmiş Millətlər Təşkilatının sülhü qorumaq sahəsindəki fəaliyyətinə yardım göstərməlidir.

4. Valideynlər öz azyaşlı uşaqları üçün təhsil növünü seçməkdə üstünlük hüququna malikdirlər.

**Maddə 27.** Hər kəs cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən zövq almaq, elmi tərəqqi də iştirak etmək və ondan bəhrələnmək hüququna malikdir.

Hər kəs müəllifi olduğu elmi, ədəbi, yaxud bədii əsərlərdən irəli gələn mənəvi və maddi mənafelərini müdafiə etmək hüququna malikdir.

**Maddə 28.** Hər kəs bu Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların tam həyata keçirildiyi sosial və beynəlxalq nizam hüququna malikdir.

**Maddə 29.** Hər kəs yalnız şəxsiyyətinin azad və tam inkişafını mümkün edən cəmiyyət qarşısında vəzifələr daşıyır.

Öz hüquq və azadlıqlarını həyata keçirərkən hər bir şəxsə qarşı, yalnız başqalarının hüquq və azadlıqlarının tanınması və onlara hörmət olunmasını təmin etmək və demokratik cəmiyyətdə əxlaq, ictimai asayiş və ümumi rifahın ədalətli tələblərini yerinə yetirmək məqsədilə qanunun müəyyənləşdirdiyi məhdudiyyətlər tətbiq edilməlidir.

Bu hüquq və azadlıqların həyata keçirilməsi heç bir halda Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd olmamalıdır.

**Maddə 30.** Bu Bəyannamədə heç nə hər hansı bir dövlətə, insan qrupuna, yaxud ayrı-ayrı şəxslərə, həmin Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların ləğvinə yönəldilmiş hər hansı fəaliyyətlə məşğul olmaq və ya hər hansı hərəkəti törətmək hüququnun verilməsi kimi şərh oluna bilməz.

## BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair

## FAKÜLTATİV PROTOKOLU

Bu Protokolun iştirakçısı olan dövlətlər, Uşaq hüquqları haqqında Konvensiyanın məqsədlərinə nail olunmasına və onun, xüsusilə 1, 11, 21, 32, 33, 34, 35 və 36cı maddələrinin müddəalarının həyata keçirilməsinə dəstək vermək üçün iştirakçı dövlətlərin uşağın uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasından müdafiəsinə zəmanət verilməsini təmin etmək məqsədi ilə həyata keçirməli olduqları tədbirlərə daha geniş xarakter verməyi məqsədəuyğun hesab edərək,

həmçinin, Uşaq hüquqları haqqında Konvensiyada uşağın iqtisadi istismardan və onun sağlamlığı üçün təhlükəli ola biləcək və ya onun təhsil almasına mane ola biləcək yaxud onun sağlamlığına və ya fiziki, əqli və mənəvi, əxlaqi və sosial inkişafına mənfi təsir göstərə biləcək işlərin gördürülməsindən müdafiə olunması hüququnun tanındığını nəzərə alaraq,

uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyası məqsədi ilə uşaqların beynəlxalq qaçaqmalçılıq yolu ilə daşınmasının geniş və artan miqyasından ciddi narahatlıq keçirərək,

uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasına birbaşa stimul yaratdığına görə uşaqlar üçün daha təhlükəli olan, geniş yayılmış və davam etməkdə olan seks-turizm praktikasından dərin narahatlıq keçirərək,

azyaşlı qız uşaqları da daxil olmaqla, bir sıra xüsusilə müdafiəsiz uşaq qruplarının cinsi istismar riskinə daha çox məruz qalmalarını və cinsi cəhətdən istismar olunan uşaqlar arasında azyaşlı qız uşaqlarının payının müqayisə olunmayacaq dərəcədə yüksək olması faktını etiraf edərək,

İnternetdə və inkişaf etməkdə olan digər texnologiyalar çərçivəsində uşaq pornoqrafiyasının əlçatan olmasının getdikcə artmasından narahat olaraq və İnternetdə uşaq pornoqrafiyası ilə mübarizəyə dair Beynəlxalq Konfransa (Vyana, 1999cu il), xüsusilə onun uşaq pornoqrafiyasının istehsalı, yayılması, ixracı, ötürülməsi, idxalı, qəsdən saxlanılmasının və onun reklamının bütün dünyada cinayət əməli kimi tanınmasına çağıran və hökumətlərlə İnternet sənayesi arasında daha sıx əməkdaşlıq və tərəfdaşlığın mühüm əhəmiyyətini vurğulayan qərarına istinad edərək,

uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasının ləğv edilməsinə natamam inkişaf, yoxsulluq, iqtisadi bərabərsizlik, qeyri-bərabərhüquqlu sosial-iqtisadi struktur, bədbəxt ailələrin mövcudluğu, təhsilin aşağı səviyyəsi, şəhərlər və kənd yerləri arasında miqrasiya, cinsi əlamətlərə görə ayrı-seçkilik,

böyüklərin məsuliyyətsiz cinsi davranışı, ənənəvi təcrübənin ziyanlı növləri, silahlı münaqişələr və uşaqların qaçaqmalçılıqla daşınması daxil olmaqla, bütün belə təzahürlərə dəstək verən amilləri nəzərə alan əhatəli yanaşma tərzi seçilməsinin qəbul edilməsinin təkan verəcəyi fikrində olaraq,

uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasına olan istehlak tələbinin azaldılması üçün ictimaiyyətin məlumatlandırılma səviyyəsinin yüksəldilməsinə səy göstərməyi zəruri hesab edərək və eyni zamanda bütün iştirakçılar arasında qlobal tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsinin və həmçinin milli səviyyədə hüquq tətbiqedici tədbirlərin gücləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyinə əmin olaraq,

Uşaqların müdafiəsi və dövlətlərarası övladlığa götürmə sahəsində əməkdaşlıq haqqında Haaqa Konvensiyası, Beynəlxalq uşaq oğurluğunun mülki hüquqi aspektləri haqqında Haaqa Konvensiyası, Valideynlərin məsuliyyəti məsələlərində və uşaqların müdafiəsi üzrə tədbirlərdə yurisdiksiya, tətbiq olunacaq hüquq, tanıma, hüquq tətbiqetmə və əməkdaşlıq haqqında Haaqa Konvensiyası və Beynəlxalq Əmək Təşkilatının Uşaq əməyinin ən ağır formalarının qadağan olunması və kökünün kəsilməsi üzrə təxirəsalınmaz tədbirlər haqqında 182 saylı Konvensiyası daxil olmaqla, uşaqların müdafiəsi sahəsindəki beynəlxalq hüquqi aktları nəzərə alaraq,

Uşaq Hüquqları haqqında Konvensiyanın hər yerdə dəstəklənməsindən ruhlanaraq və bunu uşaq hüquqlarının təşviqi və müdafiəsi işinə geniş miqyasda bağlılığın sübutu sayaraq,

1996-cı il avqustun 27 və 31-də keçirilmiş Kommersiya məqsədi ilə uşaqların cinsi istismarına qarşı Ümumdünya Konqresində qəbul olunmuş Uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasının qarşısının alınması üzrə Fəaliyyət Proqramının, eləcə də Bəyannamə və Fəaliyyət Planının

müddəalarının və müvafiq beynəlxalq orqanların bu məsələ üzrə digər qərar və tövsiyələrinin yerinə yetirilməsinin vacib əhəmiyyətini dərk edərək,

uşaqların müdafiəsi və ahəngdar inkişafı üçün hər bir xalqın ənənələrinin və mədəni dəyərlərinin mühüm əhəmiyyətini lazımi şəkildə nəzərə alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1.**

İştirakçı dövlətlər, bu Protokolda nəzərdə tutulduğu kimi, uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyasını qadağan edəcəklər.

**Maddə 2.**

Bu Protokolun məqsədləri üçün:

(a) uşaq alveri uşağın hər hansı bir şəxs yaxud şəxslər qrupu tərəfindən mükafat və ya hər hansı digər haqq müqabilində başqa bir şəxsə yaxud şəxslər qrupuna verilməsi vasitəsi olan hər hansı akt və ya əqd deməkdir;

(b) uşaq fahişəliyi mükafat və ya digər haqq forması müqabilində uşaqdan seksual xarakterli fəaliyyətdə istifadə olunması deməkdir;

(c) uşaq pornoqrafiyası real və ya modelləşdirilmiş aşkar cinsi hərəkətlər edən uşağın hər hansı vasitələrlə istənilən təsviri yaxud əsasən uşağın cinsi orqanlarının başlıca olaraq seksual məqsədlər üçün istənilən təsviri deməkdir.

**Maddə 3.**

1. Hər bir iştirakçı dövlət belə cinayətlərin milli və ya transmilli səviyyədə yaxud fərdi və ya mütəşəkkil surətdə törədilməsindən asılı olmayaraq, heç olmazsa, aşağıdakı əməllərin və fəaliyyət növlərinin onun kriminal və ya cinayət hüququ ilə tam şəkildə əhatə olunmasını təmin etməlidir:

a) 2-ci maddədə müəyyən edilmiş uşaq alveri kontekstində:

(i) uşağın istənilən vasitələrlə aşağıdakı məqsədlər üçün təklif edilməsi, verilməsi və ya alınması:

a. uşağın cinsi istismarı;
b. uşaq orqanlarının mükafat müqabilində verilməsi;
c. uşaqdan məcburi işləri gördürmək üçün istifadə edilməsi;
(ii) vasitəçilik qismində, övladlığa götürmə ilə bağlı tətbiq olunan beynəlxalq hüquqi aktları pozmaqla uşağın övladlığa götürülməsinə razılıq verməyə qeyri-qanuni vadar etmə;
b) 2-ci maddədə müəyyən olunmuş uşaq fahişəliyi məqsədi ilə uşağın təklif edilməsi, ötürülməsi yaxud verilməsi, qəbulu;
c) 2-ci maddədə müəyyən olunmuş uşaq pornoqrafiyası məqsədi ilə onun paylanması: yayılması, idxalı, ixracı, təklif edilməsi, satışı və ya yuxarıda göstərilən məqsədlər üçün saxlanılması.

2. İştirakçı dövlətin milli qanunvericiliyinin müddəaları nəzərə alınmaqla, belə əməllərdən hər hansı birini törətmək cəhdinə, həmçinin belə əməllərin törədilməsində yardım etməyə və ya birgə iştiraka münasibətdə də tətbiq edilir.

3. Hər bir iştirakçı dövlət, ağırlıq dərəcəsindən asılı olaraq, belə cinayətlər üçün lazımi cəza tədbirləri müəyyən edir.

4. Öz milli qanunvericiliyinin müddəalarını nəzərə almaqla, hər bir iştirakçı dövlət müvafiq hallarda bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş cinayətlərə görə hüquqi şəxslərin məsuliyyətinin müəyyən olunması üçün tədbirlər görür. İştirakçı dövlətin hüquq prinsipləri nəzərə alınmaqla, hüquqi şəxslərin bu məsuliyyəti cinayət məsuliyyəti, mülki və ya inzibati məsuliyyət ola bilər.

5. İştirakçı dövlətlər uşağın övladlığa götürülməsinə aidiyyəti olan bütün şəxslərin tətbiq edilən beynəlxalq hüquqi aktların müddəalarına müvafiq şəkildə hərəkət etmələrini təmin etmək üçün bütün lazımi hüquqi və inzibati tədbirləri görürlər.

**Maddə 4.**

1. Hər bir iştirakçı dövlət 3-cü maddənin 1-ci bəndində göstərilmiş cinayətlər onun ərazisində və ya bu dövlətdə qeydiyyata alınmış dəniz yaxud hava gəmisinin göyərtəsində

törədildiyi zaman belə cinayətlərə münasibətdə öz yurisdiksiyasının müəyyən olunması üçün zəruri tədbirlər görür.

2. Hər bir iştirakçı dövlət aşağıdakı hallarda 3-cü maddənin 1-ci bəndində göstərilmiş cinayətlərə münasibətdə öz yurisdiksiyasının müəyyən edilməsi üçün zəruri tədbirlər görə bilər:

(a) güman olunan cinayətkar bu dövlətin vətəndaşı və ya onun ərazisində adi yaşayış yeri olan şəxs olduqda;

(b) zərər çəkmiş şəxs bu dövlətin vətəndaşı olduqda.

3. Hər bir iştirakçı dövlət həmçinin güman olunan cinayətkarın onun ərazisində olduğu və cinayətin onun vətəndaşlarından biri tərəfindən törədilməsini əsas gətirərək onu digər iştirakçı dövlətə vermədiyi hallarda, yuxarıda göstərilən cinayətlərə münasibətdə öz yurisdiksiyasının müəyyən edilməsi üçün zəruri ola biləcək tədbirlər görür.

4. Bu Protokol dövlətdaxili hüquqa uyğun həyata keçirilən hər hansı cinayət yurisdiksiyasını istisna etmir.

**Maddə 5.**

1. 3-cü maddənin 1-ci bəndində göstərilmiş cinayətlər iştirakçı dövlətlər arasında mövcud olan istənilən ekstradisiya müqaviləsinə, ekstradisiyanı nəzərdə tutan cinayətlər qismində daxil edilmiş hesab edilir və həmçinin sonradan onlar arasında imzalanmış istənilən ekstradisiya müqaviləsinə, bu müqavilədə müəyyən olunmuş şərtlərə uyğun olaraq ekstradisiyanı nəzərdə tutan cinayətlər qismində daxil edilir.

2. Əgər ekstradisiyanı müqavilənin mövcudluğu ilə şərtləndirən iştirakçı dövlətə, onunla ekstradisiya müqaviləsi olmayan digər iştirakçı dövlət tərəfindən ekstradisiya barədə müraciət edilərsə, o belə cinayətlərə münasibətdə bu Protokolu ekstradisiya üçün hüquqi əsas kimi qiymətləndirə bilər. Ekstradisiya müraciət edilmiş dövlətin qanunvericiliyində nəzərdə tutulan şərtlərə uyğun həyata keçirilir.

3. Ekstradisiyanı müqavilənin mövcudluğu ilə şərtləndirməyən iştirakçı dövlətlər öz aralarındakı münasibətlərdə belə cinayətləri, müraciət edilən dövlətin qanunvericiliyində nəzərdə tutulmuş şərtlərə uyğun olaraq, ekstradisiyanı nəzərdə tutan cinayətlər kimi qiymətləndirirlər.

4. Belə cinayətlər iştirakçı dövlətlər arasında ekstradisiya üçün o halda nəzərdə tutulur ki, həmin cinayətlər yalnız onların baş verdiyi yerdə deyil, həm də 4-cü maddəyə uyğun olaraq öz yurisdiksiyasını müəyyən etməli olan dövlətlərin ərazisində baş vermiş olsun.

5. Əgər ekstradisiya haqda müraciət 3-cü maddənin 1-ci bəndində göstərilən cinayətlərdən biri ilə əlaqədar edilmişdirsə və müraciət olunan iştirakçı dövlət cinayətkarın vətəndaşlığına əsaslanaraq onu təhvil vermir və ya verməyəcəksə, bu dövlət cinayət təqibinin başlanması məqsədi ilə işin öz səlahiyyətli orqanlarına verilməsi üçün lazımi tədbirlər görür.

**Maddə 6.**

1. İştirakçı dövlətlər 3-cü maddənin 1-ci bəndində göstərilmiş cinayətlərə münasibətdə, onlarda olan sübutların alınmasına yardım göstərmək də daxil olmaqla, başlanmış təhqiqat və ya cinayət təqibi yaxud ekstradisiya prosesi ilə əlaqədar bir-birinə maksimum kömək edirlər.

2. İştirakçı dövlətlər, aralarında mövcud ola bilən qarşılıqlı hüquqi yardım haqqında istənilən müqavilə və ya razılaşmanı rəhbər tutaraq, bu maddənin 1-ci bəndindəki öhdəliklərini yerinə yetirirlər. Belə müqavilələrin və ya razılaşmaların olmadığı təqdirdə, iştirakçı dövlətlər öz dövlətdaxili hüquqlarına uyğun olaraq bir-birinə yardım edirlər.

**Maddə 7.**

İştirakçı dövlətlər öz milli hüquqlarının müddəalarına uyğun olaraq:

(a) müvafiq hallarda aşağıdakıların alınması və müsadirə edilməsini təmin edəcək tədbirlər görürlər:

(i) əmlak, yəni bu Protokolda nəzərdə tutulmuş cinayətlərin edilməsi üçün və ya edilməsindən istifadə edilən vasitələr və digər alətlər;

(ii) bu cür cinayətlərin edilməsi ilə əldə olunan gəlir;

(b) digər iştirakçı dövlətin (a)(i) yarımbəndində göstərilmiş əmlak və ya gəlirlərin alınması yaxud müsadirəsinə dair bir-birinə müraciətlərini yerinə yetirirlər;

(c) belə cinayətlərin icrası üçün istifadə olunan yerlərin müvəqqəti və ya daimi bağlanmasına yönəldilmiş tədbirlər görürlər.

**Maddə 8.**

1. İştirakçı dövlətlər, bu Protokolla qadağan edilən praktikanın qurbanı olmuş uşaqların hüquq və maraqlarının müdafiəsi üçün, cinayət mühakimə icraatının bütün mərhələlərində, xüsusən aşağıdakı yollarla lazımi tədbirlər görəcəklər:

(a) zərər çəkmiş uşaqların müdafiəsizliyinin etiraf edilməsi və onların xüsusi ehtiyaclarının, o cümlədən onların şahid kimi xüsusi ehtiyaclarının tanınması prosedurlarının uyğunlaşdırılması;

(b) zərər çəkmiş uşaqlara onların hüquqları, rolu və onların işləri üzrə məhkəmə icraatının məzmunu, müddəti və gedişi barədə məlumat verilməsi;

(c) şəxsi maraqlarına toxunulan hallarda, zərər çəkmiş uşaqların fikirlərinin, ehtiyaclarının və problemlərinin məhkəmə icraatı zamanı milli qanunvericiliyin prosessual normalarına uyğun olaraq təmsil edilməsi və baxılmasının təmin edilməsi;

(d) uşaqlara məhkəmə icraatının bütün mərhələlərində lazımi dəstək verilməsi üçün xidmət göstərilməsi;

(e) lazımi hallarda, zərər çəkmiş uşaqların şəxsi həyatının və şəxsiyyətinin qorunması və zərər çəkmiş uşağın şəxsiyyətinin müəyyən edilməsinə gətirib çıxara biləcək məlumatın

arzuedilməz yayılmasının qarşısını almaq məqsədi ilə, milli qanunvericiliyə müvafiq tədbirlərin görülməsi;

(f) lazımi hallarda, zərər çəkmiş uşaqların, eləcə də onların ailələrinin və onlar adından çıxış edən şahidlərin hədə-qorxu və qisasdan müdafiəsinin təmin edilməsi;

(ç) zərər çəkmiş uşaqlara kompensasiya verilməsinə dair işlər üzrə qərarların çıxarılmasının, sərəncam və qətnamələrin icrasının həddən artıq ləngidilməsinə yol verilməməsi.

2. İştirakçı dövlətlər zərər çəkənin həqiqi yaşına münasibətdə şübhə olduğu halda cinayət təhqiqatının, o cümlədən zərər çəkənin yaşının müəyyənləşdirilməsi məqsədi ilə təhqiqatın başlanmasına mane olunmamasını təmin edirlər.

3. İştirakçı dövlətlər bu Protokolda nəzərdə tutulan cinayətlərin qurbanı olmuş uşaqlarla rəftar zamanı, cinayət mühakimə icraatı sistemində uşağın ən ümdə maraqlarının qorunmasına birinci növbədə diqqət yetirilməsini təmin edirlər.

4. İştirakçı dövlətlər bu Protokola uyğun olaraq qadağan edilmiş cinayətlərin qurbanları olan uşaqlarla işləyən şəxslərin lazımi hazırlıq, xüsusən hüquqi və psixoloji hazırlıq keçmələrinin təmin edilməsi üçün tədbirlər görürlər.

5. İştirakçı dövlətlər lazımi hallarda bu cür cinayətlərin qarşısını alan fəaliyyətlə və ya bu cür cinayətlərin qurbanlarının müdafiəsi və reabilitasiyası ilə məşğul olan şəxslərin və ya təşkilatların təhlükəsizliyi və toxunulmazlığının təmin edilməsi üçün tədbirlər görürlər.

6. Bu maddənin heç bir müddəası ittiham olunanın ədalətli və qərəzsiz məhkəmə araşdırması hüququna xələl gətirən və ya ona zidd olan şəkildə təfsir olunmur.

**Maddə 9.**

1. İştirakçı dövlətlər bu Protokolda göstərilən cinayətlərin qarşısının alınması məqsədi ilə qanunlar, inzibati tədbirlər, sosial strategiya və proqramlar qəbul edir və ya onları möhkəmləndirir, tətbiq edir və təbliğ edirlər. Belə hərəkətlərə

məruz qalma baxımından xüsusən zəif olan uşaqların müdafiəsinə xüsusi fikir verilir.

2. İştirakçı dövlətlər bu Protokolda göstərilmiş cinayətlərin acı nəticələri və onların qarşısını almaq üçün tədbirlər haqda ictimaiyyətdə, o cümlədən uşaqlar arasında bilgilərin bütün müvafiq vasitələrdən istifadə, tədris və təlim yolu ilə genişləndirilməsinə kömək edirlər. Bu maddədəki öhdəliklərini yerinə yetirmək üçün iştirakçı dövlətlər ictimaiyyətin və xüsusilə uşaqların və zərər çəkmiş uşaqların bu cür informasiya-maarifləndirmə, tədris və hazırlıq proqramlarında, o cümlədən beynəlxalq səviyyədə iştirakını təşviq edirlər.

3. İştirakçı dövlətlər bu cür cinayətlərin qurbanlarına müvafiq yardımın göstərilməsi məqsədi ilə, o cümlədən bu qurbanların tam sosial reinteqrasiyası və onların tam fiziki və psixoloji müalicəsi də daxil olmaqla, bütün mümkün tədbirləri görürlər.

4. İştirakçı dövlətlər bu Protokolda göstərilmiş cinayətlərin qurbanları olan bütün uşaqların ayrı-seçkilik olmadan, hüquqi məsuliyyət daşıyan şəxslərdən çəkdikləri zərərə görə kompensasiya almaq üçün lazımi prosedurалardan istifadə imkanını təmin edirlər.

5. İştirakçı dövlətlər bu Protokolda göstərilmiş cinayətləri təbliğ edən materialların istehsalının və yayılmasının təsirli şəkildə qadağan edilməsinə yönəldilmiş lazımi tədbirlər görürlər.

**Maddə 10.**

1. İştirakçı dövlətlər uşaq alveri, uşaq fahişəliyi, uşaq pornoqrafiyası və uşaq seks-turizmi ilə əlaqədar əməllərin törədilməsində təqsirli olan şəxslərin qarşısının alınması, aşkar edilməsi, təhqiqat aparılması, cinayət təqibi və cəzası məqsədi ilə çoxtərəfli, regional və ikitərəfli razılaşmalar yolu ilə beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi üçün bütün zəruri tədbirləri görürlər. İştirakçı dövlətlər həmçinin öz orqanları,

milli və beynəlxalq qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar arasında beynəlxalq əməkdaşlığa və əlaqələndirməyə dəstək verirlər.

2. İştirakçı dövlətlər zərər çəkmiş uşaqların fiziki və psixoloji bərpasına, sosial reinteqrasiya və repatriasiyasına kömək göstərməyə yönəldilmiş beynəlxalq əməkdaşlığın inkişafına dəstək verirlər.

3. İştirakçı dövlətlər uşaq alveri, uşaq fahişəliyi, uşaq pornoqrafiyası və uşaq seks-turizminin obyektləri qismində uşaqların köməksizliyini artıran yoxsulluq və inkişaf səviyyəsinin aşağı olması kimi əsas səbəblərin aradan qaldırılması məqsədi ilə beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə dəstək verirlər.

4. Müvafiq imkanları olan iştirakçı dövlətlər mövcud çoxtərəfli, regional, ikitərəfli və ya digər proqramlar çərçivəsində maliyyə, texniki yaxud digər yardım göstərirlər.

**Maddə 11.**

Bu Protokolda heç bir şey uşaqların hüquqlarının həyata keçirilməsinə daha artıq zəmin yaradan və:

a) iştirakçı dövlətlərin qanunvericiliyində;

b) bu dövlət üçün qüvvədə olan beynəlxalq normalarda nəzərdə tutulan müddəalara toxunmur.

**Maddə 12.**

1. Hər bir iştirakçı dövlət həmin Protokolun bu iştirakçı dövlət üçün qüvvəyə minməsindən sonra iki il müddətində Uşaq Hüquqları üzrə Komitəyə bu Protokolun müddəalarının həyata keçirilməsi ilə əlaqədar özünün gördüyü tədbirlər haqqında əhatəli məlumatı əks etdirən məruzə təqdim edir.

2. Əhatəli məruzə təqdim olunduqdan sonra hər bir iştirakçı dövlət Konvensiyanın 44-cü maddəsinə uyğun olaraq Protokolun həyata keçirilməsinə aid

olan istənilən əlavə məlumatı Uşaq Hüquqları üzrə Komitəyə təqdim etdiyi məruzələrə daxil edir. Protokolun digər iştirakçı dövlətləri beş ildən bir məruzə təqdim edirlər.

3. Uşaq Hüquqları üzrə Komitə iştirakçı dövlətlərdən bu Protokolun həyata keçirilməsinə aid əlavə məlumat ala bilər.

**Maddə 13.**

1. Bu Protokol Konvensiyanın iştirakçısı olan və ya onu imzalamış istənilən dövlətin imzalanması üçün açıqdır.

2. Bu Protokol ratifikasiya olunmalıdır və Konvensiyanın iştirakçısı olan və ya onu imzalamış istənilən dövlətin qoşulması üçün açıqdır. Təsdiqnamələr və ya qoşulma haqqında sənədlər saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə verilir.

**Maddə 14.**

1. Bu Protokol onuncu təsdiqnamənin və ya qoşulma haqqında sənədin saxlanılmaq üçün verilməsindən 3 ay sonra qüvvəyə minir.

2. Bu Protokol onu ratifikasiya edən və ya Protokolun qüvvəyə minməsindən sonra ona qoşulan hər bir dövlət üçün belə dövlətin öz təsdiqnaməsini və ya qoşulma haqqında sənədini saxlanılmağa verməsindən bir ay sonra qüvvəyə minir.

**Maddə 15.**

1. İstənilən iştirakçı dövlət istənilən zaman Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə Protokolu denonsasiya edə bilər; Baş katib bu barədə Konvensiyanın digər iştirakçı dövlətlərini və Konvensiyanı imzalamış bütün dövlətləri məlumatlandırır. Denonsasiya belə bildirişin Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən alındığı tarixdən bir il keçdikdən sonra qüvvəyə minir.

2. Belə denonsasiya, iştirakçı dövləti denonsasiyanın qüvvəyə minməsi tarixinədək törədilmiş istənilən cinayətə münasibətdə bu Protokolla nəzərdə tutulan öhdəliklərindən azad etmir. Eyni zamanda belə denonsasiya heç bir halda onun

qüvvəyə minməsi tarixinədək artıq Komitənin müzakirəsində olan istənilən məsələnin sonrakı müzakirəsi üçün maneə törətmir.

**Maddə 16.**

1. İstənilən iştirakçı dövlət düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Sonra Baş katib düzəlişə baxılması və ona səs verilməsi məqsədi ilə iştirakçı dövlətlərin konfransının çağırılmasına münasibət bildirilməsi xahişi ilə təklif olunmuş düzəlişi iştirakçı dövlətlərə çatdırır. Belə məlumatın verildiyi tarixdən başlayaraq dörd ay müddətində iştirakçı dövlətlərin ən azı üçdə biri belə konfransın çağırılmasına tərəfdar çıxarsa, Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi altında həmin konfransı çağırır. Konfransda səsvermədə iştirak edən və iştirakçı dövlətlərin əksəriyyəti tərəfindən qəbul olunan istənilən düzəliş təsdiq olunmaq üçün Baş Assambleyaya təqdim edilir.

2. Bu maddənin 1-ci bəndinə uyğun olaraq qəbul edilmiş düzəliş Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən təsdiq olunmaqla və iştirakçı dövlətlərin üçdə iki səs çoxluğu ilə qəbul edilməklə qüvvəyə minir.

3. Düzəliş qüvvəyə mindikdə, onu qəbul etmiş dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə bu Protokolun müddəaları və onlar tərəfindən qəbul edilmiş əvvəlki düzəlişlər məcburi olaraq qalır.

**Maddə 17.**

1. İngilis, ərəb, ispan, Çin, rus və fransız dillərindəki mətnləri eyni qüvvəyə malik olan bu Protokol saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının arxivinə verilməlidir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu Protokolun təsdiq olunmuş surətlərini Konvensiyanın iştirakçısı olan bütün dövlətlərə və Konvensiyanı imzalamış bütün dövlətlərə göndərir.

## BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair

## FAKÜLTATİV PROTOKOLU

Bu Protokolun iştirakçısı olan dövlətlər, Uşaq hüquqları haqqında Konvensiyanın hər yerdə dəstəklənməsindən ruhlanaraq və bunu uşaq hüquqlarının təşviqi və müdafiəsi işinə geniş miqyasda bağlılığın sübutu sayaraq, uşaq hüquqlarının xüsusi müdafiəyə ehtiyacı olmasını bir daha təsdiq edərək, sülh və təhlükəsizlik şəraitində onların vəziyyətinin heç bir fərq qoymadan getdikcə yaxşılaşdırılmasının, həmçinin onların inkişafı və təhsil almasının təmin edilməsinə çağıraraq, silahlı münaqişələrin uşaqlara fəlakətli və geniş miqyaslı təsirindən, həmçinin möhkəm sülh, təhlükəsizlik və inkişaf üçün uzunmüddətli mənfi nəticələrindən narahatlıq keçirərək, silahlı münaqişə şəraitində uşaqlara qəsdi, həmçinin beynəlxalq hüquqa uyğun olaraq mühafizə olunan obyektlərə, o cümlədən məktəb və xəstəxanalar kimi, adətən çoxlu uşaq olan yerlərə bilavasitə hücumları pisləyərək, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun qəbulunu və xüsusilə onda 15 yaşma çatmamış uşaqların hərbi xidmətə çağırılması və ya səfərbər edilməsi yaxud onlardan beynəlxalq və eləcə də beynəlxalq olmayan silahlı münaqişələr çərçivəsindəki hərbi əməliyyatlarda fəal istifadə olunması ilə əlaqədar hərəkətlərin hərbi cinayət kimi tövsif olunmasını qeyd edərək, beləliklə, Uşaq hüquqları haqqında Konvensiyada tanınmış hüquqların daha səmərəli həyata keçirilməsinə dəstək verilməsi məqsədi ilə uşaqları silahlı münaqişələrə cəlb etməkdən qorumanın gücləndirilməsini zəruri hesab edərək,

Uşaq hüquqları haqqında Konvensiyanın 1-ci maddəsinin bu Konvensiyanın məqsədləri üçün 18 yaşına çatmamış hər bir insanın uşaq olduğunu, - əgər həmin uşağa şamil oluna biləcək

qanuna görə o həmin yaşdan daha əvvəl yetkinlik yaşına çatmış sayılmırsa, - nəzərdə tutmasını qeyd edərək,

şəxslərin silahlı qüvvələrə çağırışının və onların hərbi əməliyyatlarda iştirakının mümkün yaş həddini artıran Konvensiyaya dair Fakultativ Protokolun, uşaqlara aid olan bütün hərəkətlərdə birinci növbədə uşağın maraqlarının ən yaxşı təmininə diqqət ayrılmalı olmasını nəzərdə tutan prinsipin həyata keçirilməsinə səmərəli şəkildə kömək edəcəyinə əmin olaraq,

Qırmızı Xaç və Qırmızı Ayparanın 1995-ci ilin dekabr ayında keçirilmiş iyirmi altıncı Beynəlxalq Konfransının, xüsusən münaqişə tərəflərinə 18 yaşına çatmamış uşaqların hərbi əməliyyatlarda iştirak etməməsini təmin etmək məqsədi ilə istənilən mümkün addımları atmağı tövsiyə etməsini qeyd edərək,

Beynəlxalq Əmək Təşkilatının silahlı münaqişələrdə istifadə olunmaq üçün uşaqların zorla və ya məcburi şəkildə cəlb edilməsini qadağan edən Uşaq əməyinin ən pis formalarının qadağan olunması və kökünün kəsilməsi üzrə təxirəsalınmaz tədbirlər haqqında 182 saylı Konvensiyasının 1999-cu ilin iyununda yekdilliklə qəbul olunmasını alqışlayaraq,

uşaqların dövlət daxilində və onun hüdudlarından kənarda dövlətin silahlı qüvvələrindən fərqli olan silahlı qruplarla hərbi əməliyyatlara cəlb edilməsi, təlimi və istifadə olunmasını dərin narahatlıqla pisləyərək və bu məqsədlə uşaqları cəlb edən, onlara təlim keçən və onlardan istifadə edən şəxslərin məsuliyyətini etiraf edərək,

silahlı münaqişənin hər bir tərəfə beynəlxalq humanitar hüququn müddəalarına riayət etməsi öhdəliyini xatırladaraq,

bu Protokolun Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin 51-ci maddəsi də daxil olmaqla, onun prinsip və məqsədlərinə və humanitar hüququn müvafiq normalarına xələl gətirmədiyini qeyd edərək,

Nizamnamədə ifadə olunmuş məqsəd və prinsiplərə tam hörmət edilməsinə və insan hüquqları sahəsində tətbiq olunan müqavilələrə riayət olunmasına əsaslanmış sülh və təhlükəsizlik şəraitinin xüsusilə silahlı münaqişə və xarici işğal zamanı uşaqların tam müdafiəsi üçün vacib şərt olduğunu nəzərə alaraq,

iqtisadi və ya sosial vəziyyəti yaxud cinsi ilə əlaqədar olaraq, bu Protokola zidd şəkildə hərbi əməliyyatlara cəlb edilmək və bu əməliyyatlarda istifadə olunmaq cəhətdən xüsusilə müdafiəsiz olan uşaqların məxsusi ehtiyaclarını etiraf edərək,

uşaqların silahlı münaqişələrdə iştirakının iqtisadi, sosial və siyasi səbəblərinin nəzərə alınması zərurətini unutmayaraq,

bu Protokolun həyata keçirilməsində, həmçinin silahlı münaqişələrin qurbanı olmuş uşaqların fiziki və psixososial reabilitasiyası və sosial reinteqrasiyası işində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin zəruriliyinə inanaraq,

Protokolun həyata keçirilməsinə aid olan məlumatın yayılmasında və maarifləndirici proqramlarda cəmiyyətin, xüsusilə uşaqların və zərər çəkmiş uşaqların iştirakını dəstəkləyərək, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1.**

İştirakçı dövlətlər onların silahlı qüvvələrinin 18 yaşma çatmamış hərbi qulluqçularının hərbi əməliyyatlarda bilavasitə iştirak etməməsini təmin etmək üçün bütün mümkün tədbirləri görürlər.

**Maddə 2.**

İştirakçı dövlətlər 18 yaşına çatmamış şəxslərin bu dövlətlərin silahlı qüvvələrinə məcburi çağırışa cəlb edilməməsini təmin edirlər.

**Maddə 3**

1. İştirakçı dövlətlər bu maddənin prinsiplərini nəzərə alaraq və 18 yaşına çatmamış şəxslərin Uşaq hüquqları haqqında Konvensiyaya uyğun olaraq xüsusi müdafiə hüquqları olduğunu

etiraf edərək, öz milli silahlı qüvvələrinə şəxslərin könüllü çağırışının minimal yaş həddini Konvensiyanın 38-ci maddəsinin 3-cü bəndində göstərilən yaş həddi ilə müqayisədə artırırlar.

2. Hər bir iştirakçı dövlət bu Protokolu ratifikasiya edərkən və ya ona qoşularkən məcburi xarakterli bəyanatını saxlanılmaq üçün təhvil verməlidir; bəyanatda öz milli silahlı qüvvələrinə könüllü çağırış üçün həmin dövlətin icazə verdiyi minimal yaş göstərilir və belə çağırışın zorakı və ya məcburi xarakter daşımamasını təmin etmək üçün dövlətin verdiyi zəmanət ifadə olunur.

3. 18 yaşma çatmamış şəxslərin öz milli silahlı qüvvələrinə könüllü çağırışına yol verən iştirakçı dövlətlər zəmanət verirlər ki, onlar minimum olaraq aşağıdakıları təmin edəcəklər:

(a) belə çağırış həqiqətən könüllü xarakter daşısın;

(b) belə çağırış şəxsin valideynləri və ya qanuni qəyyumlarının şüurlu razılığı ilə həyata keçirilsin;

(c) belə şəxslər bu cür hərbi xidmətlə bağlı mükəlləfiyyət barədə tam həcmdə məlumatlandırılmış olsunlar;

(d) belə şəxslər onların milli hərbi xidmətə qəbulundan əvvəl öz yaşları haqqında etibarlı şəhadətnamə təqdim etsinlər.

4. Hər bir iştirakçı dövlət istənilən zaman, Birləşmiş Millətlər Təşkilatının Baş katibinə ünvanlanmış müvafiq bildiriş göndərməklə, öz bəyanatının müddəalarını gücləndirə bilər; Baş katib bu barədə bütün iştirakçı dövlətləri məlumatlandırır. Belə bildiriş onun Baş katib tərəfindən alındığı gündən qüvvəyə minir.

5. Bu maddənin 1-ci bəndindəki yaş həddinin artırılmasına dair tələb, Uşaq hüquqları haqqında Konvensiyanın 28 və 29-cu maddələrinə uyğun olaraq, iştirakçı dövlətlərin silahlı qüvvələrinin tabeliyində və ya nəzarəti altında olan tədris müəssisələrinə şamil edilmir.

**Maddə 4.**

1. Dövlətin silahlı qüvvələrindən fərqli olan silahlı qruplar 18 yaşına çatmamış şəxsləri heç bir halda hərbi əməliyyatlara cəlb etməməli və ya onlardan istifadə etməməlidirlər.

2. İştirakçı dövlətlər belə cəlbetmə və istifadənin qarşısının alınması məqsədi ilə, bu cür təcrübənin qadağan edilməsi və kriminallaşdırılması üçün zəruri olan hüquqi tədbirlər də daxil olmaqla, bütün mümkün tədbirləri görürlər.

3. Həmin maddənin tətbiqi bu Protokola uyğun olaraq, silahlı münaqişə tərəflərinin heç birinin hüquqi statusuna toxunmur.

**Maddə 5.**

Bu Protokoldakı heç bir müddəa iştirakçı dövlətin qanunvericiliyində və ya beynəlxalq müqavilələrdə və beynəlxalq humanitar hüquqda olan, uşaq hüquqlarının həyata keçirilməsinə böyük dərəcədə kömək edən müddəaları istisna edən kimi təfsir edilə bilməz.

**Maddə 6.**

1. Hər bir iştirakçı dövlət bu Protokolun müddəalarının səmərəli həyata keçirilməsinin və tətbiq olunmasının təmini üçün öz yurisdiksiyası çərçivəsində bütün zəruri hüquqi, inzibati və digər tədbirləri görür.

2. İştirakçı dövlətlər bu Protokolun prinsip və müddəalarının həm böyüklər, həm də uşaqlar arasında müvafiq vasitələrlə geniş yayılmasını və təbliğini təmin etməyi öhdələrinə götürürlər.

3. İştirakçı dövlətlər onların yurisdiksiyası altında olan, bu Protokola zidd olaraq hərbi əməliyyatlara cəlb edilmiş və istifadə edilmiş şəxslərin tərxis olunmasının və ya digər şəkildə hərbi xidmətdən azad edilməsinin təmini üçün bütün mümkün tədbirləri görürlər. Zərurət yaranarsa, iştirakçı dövlətlər bu şəxslərin fiziki və psixoloji vəziyyətlərinin bərpası, həmçinin

sosial reinteqrasiyası üçün lazım olan hər cür yardım göstərəcəklər.

**Maddə 7.**

1. İştirakçı dövlətlər bu Protokolun həyata keçirilməsi, o cümlədən Protokola zidd olan istənilən fəaliyyətin qarşısının alınması işində və bu Protokola zidd fəaliyyətlərin qurbanları olmuş şəxslərin, o cümlədən texniki əməkdaşlıq və maliyyə yardımı vasitəsi ilə reabilitasiyası və sosial reinteqrasiyası işində əməkdaşlıq edirlər. Belə yardım və əməkdaşlıq maraqlı iştirakçı dövlətlərlə və müvafiq beynəlxalq təşkilatlarla məsləhətləşməklə həyata keçiriləcəkdir.

**Maddə 8.**

1. Hər bir iştirakçı dövlət Protokolun bu iştirakçı dövlət üçün qüvvəyə minməsindən sonra iki il müddətində Uşaq Hüquqları üzrə Komitəyə məruzə təqdim edir; məruzədə bu Protokolun müddəalarının həyata keçirilməsi ilə əlaqədar özünün gördüyü tədbirlər, o cümlədən iştirak və çağırışa aid müddəaların həyata keçirilməsi məqsədi ilə görülmüş tədbirlər haqqında əhatəli məlumat verilir.

2. Əhatəli məruzə təqdim olunduqdan sonra hər bir iştirakçı dövlət Konvensiyanın 44-cü maddəsinə uyğun olaraq, Protokolun həyata keçirilməsinə aid istənilən əlavə məlumatı Uşaq Hüquqları üzrə Komitəyə təqdim etdiyi məruzələrə daxil edir. Protokolun digər iştirakçı dövlətləri beş ildən bir məruzə təqdim edirlər.

3. Uşaq Hüquqları üzrə Komitə iştirakçı dövlətlərdən bu Protokolun həyata keçirilməsinə aid əlavə məlumat ala bilər.

**Maddə 9.**

1. Bu Protokol Konvensiyanın iştirakçısı olan və ya onu imzalamış istənilən dövlətin imzalaması üçün açıqdır.

2. Bu Protokol ratifikasiya olunmalıdır və istənilən dövlətin ona qoşulması üçün açıqdır. Təsdiqnamələr və ya qoşulma

haqqında sənədlər Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanılmaq üçün verilir.

3. Konvensiya və Protokolun depozitarisi qismində çıxış edən Baş katib Konvensiyanın iştirakçısı olan bütün dövlətləri və Konvensiyanı imzalayan bütün dövlətləri 13-cü maddəyə uyğun olaraq, saxlanılmaq üçün verilən hər bir bəyanat barədə məlumatlandırır.

**Maddə 10.**

1. Bu Protokol 10-cu təsdiqnamənin və ya qoşulma haqqında sənədin saxlanılmaq üçün verilməsindən üç ay sonra qüvvəyə minir.

2. Bu Protokol onu ratifikasiya edən və ya Protokolun qüvvəyə minməsindən sonra ona qoşulan hər bir dövlət üçün belə dövlətin öz təsdiqnaməsi və ya qoşulma haqqında sənədini saxlanılmağa verməsindən bir ay sonra qüvvəyə minir.

**Maddə 11.**

1. İstənilən iştirakçı dövlət istənilən zaman Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə Protokolu denonsasiya edə bilər; Baş katib bu barədə Konvensiyanın digər iştirakçı dövlətlərini və Konvensiyanı imzalamış bütün dövlətləri məlumatlandırır. Denonsasiya belə bildirişin Baş katib tərəfindən alındığı tarixdən bir il keçdikdən sonra qüvvəyə minir. Lakin bu bir ilin başa çatdığı gün denonsasiya edən iştirakçı dövlət silahlı münaqişədə olarsa, denonsasiya bu silahlı münaqişə bitənədək qüvvəyə minmir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiyanın qüvvəyə minməsi tarixinədək baş vermiş istənilən hərəkət barədə bu Protokolla nəzərdə tutulan öhdəliklərindən azad etmir. Eyni zamanda belə denonsasiya heç bir halda onun qüvvəyə minməsi tarixinədək Komitənin müzakirəsində olan istənilən məsələnin sonrakı müzakirəsi üçün maneə törətmir.

**Maddə 12.**

1. İstənilən iştirakçı dövlət düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Sonra Baş katib düzəlişə baxılması və ona səs verilməsi məqsədi ilə iştirakçı dövlətlərin konfransının çağırılmasına münasibət bildirilməsi xahişi ilə təklif olunmuş düzəlişi iştirakçı dövlətlərə çatdırır. Belə məlumatın verildiyi tarixdən başlayaraq dörd ay müddətində iştirakçı dövlətlərin ən azı üçdə biri belə konfransın çağırılmasına tərəfdar çıxarsa, Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi altında həmin konfransı çağırır. Konfransda iştirak edən və səs verən iştirakçı dövlətlərin əksəriyyəti tərəfindən qəbul olunan istənilən düzəliş təsdiq olunmaq üçün Baş Assambleyaya təqdim olunur.

2. Bu maddənin 1-ci bəndinə uyğun olaraq qəbul edilmiş düzəliş Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən təsdiq olunmaqla və iştirakçı dövlətlərin üçdə iki səs çoxluğu ilə qəbul edilməklə qüvvəyə minir.

3. Düzəliş qüvvəyə mindikdə, onu qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə bu Protokolun müddəaları və onlar tərəfindən qəbul edilmiş əvvəlki düzəlişlər məcburi olaraq qalır.

**Maddə 13.**

1. İngilis, ərəb, ispan, Çin, rus və fransız dillərindəki mətnləri eyni qüvvəyə malik olan bu Protokol Birləşmiş Millətlər Təşkilatının arxivində saxlanılır.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu Protokolun təsdiq olunmuş surətlərini Konvensiyanın iştirakçısı olan bütün dövlətlərə və Konvensiyanı imzalamış bütün dövlətlərə göndərir.

# UŞAQ HÜQUQLARI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

## I fəsil. Ümumi müddəalar

### Maddə 1. Qanunun təsir dairəsi

Uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir.

### Maddə 2. Uşaq hüquqları barəsində qanunvericilik

Uşaq hüquqları barəsində qanunvericilik bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir. Digər normativ hüquqi aktların normaları uşaqların bu Qanunla müəyyən edilmiş hüquq və azadlıqlarını məhdudlaşdıra bilməz.

### Maddə 3. Uşaqlar barəsində dövlət siyasəti

Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında

həyata keçirilir. Bu proqramların yerinə yetirilməsinə dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər.

**Maddə 4. Uşaq hüquqlarını müdafiə edən orqanlar, birliklər və təşkilatlar**

Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları təmin etməlidirlər. Bu orqanlar, birliklər və təşkilatlar fəaliyyətlərində uşaq hüquqlarının üstün mühafizəsi prinsipini əsas tutmalıdırlar.

**Maddə 5. Uşaq mənafelərinin üstünlüyü**

Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır.

**Maddə 6. Uşaqların hüquq bərabərliyi**

Bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı-seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir.

Nikahda və ya nikahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

**Maddə 7. Uşağın nümayəndələri**

Uşağın valideynləri, eləcə də övladlığa götürənlər, qəyyumlar, himayəçilər, uşaq evlərinin müdiriyyəti uşaqların hüquq və mənafelərini müdafiə edən nümayəndələridir.

**Maddə 8. Uşağın yaşamaq və inkişaf etmək hüququ**

Hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək hüququ vardır. Dövlət bu şəraiti təmin edən iqtisadi, sosial-hüquqi və digər tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür.

**Maddə 9. Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ**

Hər bir uşağın həyat və sağlamlığının mühafizə edilməsi hüquqi vardır. Dövlət uşaqların həyatının mühafizəsi və sağlam inkişafını təmin edir, ekoloji təhlükəsizliyini təmin edən şərait yaradır, onların keyfiyyətli yeməklə, içməli təmiz su ilə təchizi üçün müvafiq tədbirlər görür.

Alkoqol və tütün məmulatlarının uşaqlara satılması, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, o cümlədən yeraltı tunellərdə, şaxtalarda və digər yeraltı işlərdə, habelə onların əxlaqi kamilliyinə mənfi təsir göstərən gecə klublarında, barlarda, eləcə də spirtli içkilərin, tütün məmulatlarının, istehsalı, daşınması, satışı və saxlanılması işlərində, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə bağlı işlərdə uşaq əməyinin tətbiq edilməsi qadağandır.

**Maddə 10. Uşağın ad və vətəndaşlıq almaq hüququ**

Hər bir uşaq doğulduqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyata alınır və vətəndaşlıq əldə edir.

Uşağa ad valideynlərinin qarşılıqlı razılığı ilə, valideynləri olmadıqda isə qəyyumluq orqanlarının razılığı və ya göstərişi əsasında verilir.

**Maddə 11. Uşağın tərbiyə almaq hüququ**

Hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır.

Uşağın tərbiyəsi ailədə, məktəbdə, məktəbəqədər və məktəbdənkənar uşaq təlim-tərbiyə müəssisələrində aparılır.

Dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır, habelə belə müəssisələrin yaradılmasında ictimai təşkilatlara köməklik göstərir.

Zorakılıq, qəddarlıq təbliğ edən və ya erotika və pornoqrafiya mövzusunda olan, habelə uşaqların psixi və mənəvi inkişafına zərərli təsir göstərən filmlərin, ədəbiyyatların və digər vəsaitlərin uşaqlar arasında yayılması və nümayişi, habelə bunların hazırlanmasına uşaqların cəlb edilməsi qadağandır.

**Maddə 12. Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ**

Uşaq azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

Müstəsna hal kimi uşağın tutulmasına, həbs edilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslar mövcud olduqda yol verilə bilər. Uşaq tutulduqda və ya həbs edildikdə bu barədə onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə dərhal məlumat verilməlidir.

Uşaqların hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri (onlardan biri) uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanlarına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir.

İstənilən fiziki və ya hüquqi şəxs uşaqlarla qəddar rəftar hallarını müşahidə etdikdə belə rəftarın qarşısının alınması üçün müvafiq orqanlara müraciət edə bilər.

Valideynlərin və ya digər şəxslərin uşaqlarla qəddar rəftara yol verməsi, onlara qarşı psixi və fiziki zor tətbiq etməsi, uşaqların hüquqlarını pozması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada valideynlik hüquqlarından məhrum edilməyə, habelə inzibati və ya cinayət məsuliyyətinə səbəb olur.

**Maddə 13. Uşağın zəruri maddi təminat hüququ**

Uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi təminat almaq hüququ vardır.

**Maddə 14. Uşağın vicdan, fikir və söz azadlığı**

Hər bir uşağın vicdan, fikir və söz azadlığı vardır.

Valideynlər, digər şəxslər və dövlət orqanları uşağın vicdan, fikir və söz azadlığına hörmətlə yanaşmalıdırlar.

Uşağın səhhətinə zərərli təsir göstərən dini ayinlərin icrasına cəlb edilməsi qadağandır.

**Maddə 15. Uşağın məlumat azadlığı**

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hər bir uşağın əqli və fiziki inkişafı üçün zəruri olan istənilən məlumatı axtarmaq, əldə etmək, ötürmək və yaymaq hüququ vardır.

**Maddə 16. Uşağın əsas vəzifələri**

Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi

ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.

Bu vəzifələrin uşaq tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail olunur.

## II fəsil. Uşaq və ailə

### Maddə 17. Uşağın ailədə yaşamaq hüququ

Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa valideynlərin istəyinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır.

### Maddə 18. Valideynlərindən ayrı yaşayan uşağın hüququ

Valideynlərinin hər ikisindən və ya birindən ayrı yaşayan uşağın onları tanımaq, habelə bu ona mənfi təsir göstərmirsə, valideynləri ilə ünsiyyətdə olmaq hüququ vardır.

### Maddə 19. Valideynlərin hüquq və vəzifələri

Valideynlərin uşağın tərbiyəsində bərabər hüquq və vəzifələri vardır. Onlar uşağı sağlam böyütməli, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etməli, müstəqil həyata hazırlamalıdırlar. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsas vəzifələridir.

Valideynlərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının qarışmasına yalnız qanunla nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilə bilər.

Uşaqların vurduğu maddi ziyana görə onun valideynləri, övladlığa götürənlər, qəyyumlar və ya himayəçilər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 20. Uşağın mənzil hüququ**

Hər bir uşağın mənzil hüququ vardır. Uşaqların yaşadıqları mənzil sahəsinə ailənin digər üzvləri ilə bərabər hüquqları vardır.

Valideyn himayəsindən məhrum olmuş uşaqlar tərbiyə olunmaq üçün dövlət uşaq müəssisəsinə, qohumlarına və ya qəyyumlara (himayəçilərə) verildikdə əvvəl yaşamış olduqları mənzilə hüquqlarını saxlayırlar. Bu mənzilə köçmək mümkün olmadıqda həmin uşaqlar, habelə əvvəllər mənzil sahəsi olmayan valideyn himayəsindən məhrum uşaqlar mənzillə növbədənkənar təmin edilməlidirlər. Həmin mənzillərlə əlaqədar müqavilələrin bağlanması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir.

**Maddə 21. Uşağın vərəsəlik və valideynlərinin əmlakı hesabına saxlanma hüququ**

Hər bir uşağın valideynlərinin, övladlığa götürülənlərin əmlakına dair vərəsəlik, məhkəmənin qərarı ilə valideynlərdən hər ikisi və ya biri xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə isə onların əmlakı hesabına saxlanmaq hüququ vardır.

## III fəsil. Uşaq və cəmiyyət

**Maddə 22. Uşağın təhsil almaq hüququ**

Hər bir uşağın Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə uyğun olaraq təhsil almaq hüququ vardır.

Dövlətin təhsil sistemi uşağın şəxsiyyətinin inkişafına, zəruri bilik və bacarıqları tam həcmdə əldə etməsinə şərait yaratmalıdır.

Uşaqların icbari ümumi orta təhsildən yayındırılması qadağandır.

**Maddə 23. Fitri istedada malik uşaqlara dövlət qayğısı**

Dövlət fitri istedada malik uşaqların erkən yaşdan üzə çıxarılması və onların qabiliyyətinin qiymətləndirilməsi üçün

tədbirlər görür, onlar üçün adlı və xüsusi təqaüdlər müəyyən edir, xüsusi təhsil müəssisələrinin sistemini yaradır və maliyyələşdirir, bu sahədə beynəlxalq əlaqələri inkişaf etdirir.

**Maddə 24. Uşağın əmək hüquqları**

Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır.

Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 25. Uşağın istirahət hüququ**

Hər bir uşağın istirahət və asudə vaxtdan istifadə etmək hüququ vardır. Uşaq öz maraqlarına və qabiliyyətinə uyğun olaraq məktəbdənkənar istirahət və məşğuliyyət növü seçməkdə müstəqildir. Valideynlər (onları əvəz edən digər şəxslər) və müvafiq dövlət orqanları uşaqların istirahət və asudə vaxtlarında mənfi təsirlərə məruz qalmasının qarşısını alan tədbirlər görməlidirlər.

Dövlət uşaqların istirahət və asudə vaxtını səmərəli təşkil etmək, mədəni həyata və yaradıcılıq fəaliyyətinə qovuşmasını təmin etmək məqsədilə məktəbdənkənar müəssisələrin, uşaq və gənclər idman, mədəniyyət və sağlamlıq ocaqlarının və digər istirahət yerlərinin geniş şəbəkəsini yaradır və inkişaf etdirir, bu obyektlərdən pulsuz və güzəştli istifadə qaydalarını müəyyən edir.

Xüsusi dövlət əhəmiyyətli işlərin görülməsi ilə bağlı hallar istisna olmaqla uşaqların məktəbdənkənar istirahət və asudə vaxtlarının təşkili ilə bağlı yerlərin ləğvi və başqa məqsədlər üçün istifadə olunması qadağandır.

**Maddə 26. Uşaqların ictimai təşkilatlarda birləşmək hüququ**

Uşaqların təhsil və ya yaşayış yerlərində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada

ictimai birliklər və ictimai özfəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüququ vardır.

Uşaqların və uşaq ictimai birliklərinin və ictimai özfəaliyyət orqanlarının siyasi fəaliyyətə cəlb edilməsinə yol verilmir.

**Maddə 27. Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ**

Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır. Təhsil müəssisələrində, məktəbəqədər və məktəbdənkənar müəssisələrdə intizam qaydaları ədalət prinsipinə əsaslanmalı, tərbiyə edici və qarşılıqlı hörmət ruhunda olmalıdır. Uşaqların təhqir edilməsi, şəxsiyyətlərinin alçaldılması yolverilməzdir.

Uşaqların şərəf və ləyaqətinə qəsd edilməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 28. Uşağın istismardan və zərərli təsirlərdən mühafizəsi**

Dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən və təsirlərdən mühafizə edir.

**Maddə 29. Uşaqlara sosial yardımlar**

Dövlət uşaqlara birdəfəlik ödəmələr, aylıq müavinətlər, kompensasiyalar formasında sosial yardımlar verir.

Ehtiyacı olan uşaqlara müvafiq icra hakimiyyəti orqanları əlavə yardım və imtiyazlar tətbiq edə bilər.

Sosial yardımlar uşaqların mənafelərinə uyğun sərf olunmalıdır.

## IV fəsil. Əlverişsiz şəraitə düşmüş uşaqların müdafiəsi

**Maddə 30. Əlverişsiz şəraitdə yaşayan uşaqların müdafiəsi üzrə dövlət proqramları**

Dövlət hərbi əməliyyatlar, epidemiya, təbii və ekoloji fəlakətlər zonasında yaşayan və ya onların təsirinə məruz qalan, habelə yetim uşaqların, natamam (valideynlərdən biri olmayan), aztəminatlı ailələrin uşaqlarının, şəhid uşaqlarının müdafiəsini xüsusi proqramlar əsasında təmin edir.

**Maddə 31. Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi tədbirləri**

Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi onların övladlığa, qəyyumluğa, himayəçiliyə, digər ailəyə verilməsi, bunlar mümkün olmadıqda isə uşaqlara baxan müvafiq müəssisələrdə yerləşdirilməsi üsulu ilə təmin edilir.

Müdafiə üsulu müəyyən edilərkən uşağın etnik mənşəyi, dini və mədəni mənsubiyyəti, dili, tərbiyəsinin varisliyi nəzərə alınmalıdır.

Uşaq müəssisələrində saxlanan valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət təminatındadırlar. Onlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə edirlər.

**Maddə 32. Övladlığa götürmə**

Uşağın övladlığa götürülməsinə onun mənafeyi naminə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yol verilir. Övladlığa götürən şəxs uşağın normal inkişafı və tərbiyəsi üçün müvafiq imkanlara malik olmalıdır. Şəxsi mənfəət əldə etmək məqsədilə uşağın övladlığa götürülməsi qadağandır. Övladlığa götürənin sirri dövlət tərəfindən qorunur.

Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər tərəfindən övladlığa götürülməsinin, habelə Azərbaycan Respublikası vətəndaşının əcnəbi uşağı övladlığa götürməsinin qaydaları dövlətlərarası müqavilələr və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 33. İnternat müəssisələrində uşaqların saxlanmasının və tərbiyəsinin şərtləri**

Uşaq evlərində, internat tipli uşaq müəssisələrində uşaqların təlim-tərbiyəsinin təşkili və keyfiyyətinə görə həmin müəssisələrin rəhbərləri məsuliyyət daşıyırlar.

Antipedaqoji və əxlaqsız hərəkətlərə yol vermiş şəxslərin uşaq müəssisələrində işləməsinə yol verilmir.

Uşaq evlərində və uşaq internat müəssisələrində uşaqların hərtərəfli fiziki və mənəvi inkişafı, şəxsiyyətinin formalaşması məqsədilə ailə şəraitinə yaxınlaşan zəruri maddi və mənəvi-psixoloji şərait yaradılır.

**Maddə 34. İnternat müəssisələri məzunlarının müdafiəsi**

İnternat müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunlarının hüquq və mənafelərinin müdafiəsi bu müəssisələrin rəhbərləri və himayə orqanları tərəfindən həyata keçirilir.

Təhsilini davam etdirməyə gedən və ya işə düzələn internat müəssisələrinin məzunlarının Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş miqdarda təminat almaq hüququ vardır.

Yaşayış sahəsi olmayan məzunların yetkinlik yaşına çatana qədər bu müəssisələrdə qalmasına icazə verilir.

**Maddə 35. Əlil, əqli və fiziki çatışmazlıqları olan uşaqların müdafiəsi**

Əlil, əqli və fiziki çatışmazlıqları olan uşaqların növbədənkənar, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada tibbi, defektoloji və psixoloji yardım almaq hüququ vardır.

Dövlət bu uşaqların sosial və psixoloji reabilitasiyasına, imkanlarına uyğun təhsil almalarına, peşə seçmələrinə, əməyə cəlb olunmalarına köməklik göstərir, uşaq əlilliyinin qarşısını almaq üçün müvafiq tədbirlər görür.

**Maddə 36. Əlil uşağa qulluq edən şəxslərə verilən güzəştlər**

16 yaşınadək əlil uşağa qulluq dövrü pensiya hüququ verən iş stajına daxil edilir və uşağa qulluq edən şəxsə Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş məbləğdə müavinət ödənilir.

Yetkinlik yaşına çatmayan şəxs postvaksinal fəsadla əlaqədar xəstəliyə tutulduqda ona qanunvericilikdə müəyyən edilən qaydada əlillik qrupu verilənədək onun valideynlərindən biri və ya qanuni nümayəndəsi faizsiz iş stajından asılı olmayaraq, orta əmək haqqının 100 faizi miqdarında müavinət almaq hüququna malikdir.

**Maddə 37. Hərbi münaqişələr dövründə uşaqların müdafiəsi**

Azərbaycan dövləti onun hərbi münaqişələrə cəlb edildiyi ərazidə olan uşaqların müdafiəsini beynəlxalq hüquqi normalara uyğun olaraq təmin etməyi öz üzərinə götürür.

Hərbi idarələr döyüş əməliyyatları zonasında olan uşaqların təhlükəsiz yerlərə köçürülməsi, onların həyatının və sağlamlığının mühafizəsi üçün bütün mümkün imkanlardan istifadə etməlidirlər.

15 yaşına çatmamış uşaqların hərbi əməliyyatlarda birbaşa iştirakı qadağan edilir. Uşaqların hərbi-təhsil məktəblərinə cəlb edilməsi qaydaları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 38. Təbii fəlakətlər, bədbəxt hadisələr və qəzalar nəticəsində zərər çəkmiş uşaqların müdafiəsi**

Dövlət təbii fəlakətlər, bədbəxt hadisə və qəzalar nəticəsində əlverişsiz şəraitə düşmüş və ya zərər çəkmiş uşaqlara təcili əvəzsiz kömək göstərir, onların təhlükəsiz yerlərə köçürülməsi üçün təxirəsalınmaz tədbirlər görür.

Belə uşaqlar valideynlərini itirdikdə onlar valideyn himayəsindən məhrum olmuş digər uşaqlar üçün nəzərdə tutulmuş qaydada dövlət tərəfindən müdafiə olunurlar.

**Maddə 39. Qaçqın və ya məcburi köçkün uşaqların müdafiəsi**

Qaçqın və ya məcburi köçkün olan uşaqların müvafiq status almaq hüququ vardır. Dövlət onları lazımi müdafiə və humanitar yardımla təmin etmək üçün təcili müvafiq tədbirlər görür, belə uşaqların valideynlərinin axtarılmasını təşkil edir, bu məqsədlə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, qeyri-dövlət təşkilatlarının fəaliyyətinə zəruri köməklik göstərir.

**Maddə 39-1. Uşaqların baxımsızlığının və hüquq pozuntularının profilaktikası**

Dövlət qanunvericiliklə müəyyən edilmiş qaydada uşaqların baxımsızlığının və hüquq pozuntularının profilaktikasını həyata keçirir.

**Maddə 40. İnzibati xəta törətmiş uşaqların işlərinə baxılmasının xüsusiyyətləri**

İnzibati xəta törətmiş uşaqların işlərinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və orqanlar tərəfindən baxılır. Həmin uşaqlar barəsində qərar çıxarılarkən uşağa humanist mövqedən yanaşılmalıdır.

Tənbeh tədbirləri seçilərkən işin halları, uşağın yaşı, həyat şəraiti, səhhəti, psixi inkişafı və təhsili nəzərə alınmalıdır.

**Maddə 41. Xüsusi tərbiyə müəssisələrində olan uşaqların hüquqları**

Uşaqların xüsusi təlim-tərbiyə, yaxud ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilməsinə yalnız Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yol verilir.

Xüsusi təlim-tərbiyə və ya ixtisaslaşdırılmış tibb müəssisələrində olan uşaqların onlarla humanist davranması, səhhətinin mühafizəsi, zəruri təhsil və peşə hazırlığı almaq, məzuniyyət, yazışma, valideynləri və qohumları ilə görüşmək hüququ vardır.

**Maddə 42. Cinayət icraatı qaydalarının uşaqlara tətbiqinin xüsusiyyətləri**

Uşaqlar barəsində məhkəməyədək icraatın, həmçinin birinci, apellyasiya və kassasiya instansiyaları icraatının xüsusiyyətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilir.

Uşaqların törətdikləri cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəklində aparılır. Uşaqlar barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız onlara az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir. Uşaqların azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbirləri məhkəmələr tərəfindən yalnız həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə təyin edilməlidir.

Həbs edilmiş uşağı onun mənafeyinin tələb etdiyi hallardan başqa yaşlılarla bir yerdə saxlamaq qadağan edilir. Azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş uşaqlar Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi ilə müəyyən edilmiş qaydada tərbiyə müəssisələrində saxlanılırlar.

Uşaqların saxlandığı tərbiyə müəssisələrinin müdiriyyəti onların vicdanlı və layiqli vətəndaş kimi yetişməsi, müvafiq təhsil və peşə vərdişləri əldə etməsi üçün müvafiq şərait yaratmalıdırlar.

## V fəsil. Yekun müddəalar

**Maddə 43. Uşaq hüquqlarına əməl edilməsi üzərində nəzarətin və uşaq baxımsızlığına qarşı mübarizənin təşkili**

Uşaq hüquqlarına əməl edilməsi üzərində nəzarətin və uşaq baxımsızlığına qarşı mübarizənin təşkili müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

**Maddə 44. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 45. Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə bu Qanun arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 may 1998-ci il** **№ 499-IQ**

## Azərbaycan Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti QAYDASI

***Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli Fərmanı ilə təsdiq edilmişdir***

### 1. Ümumi müddəalar:

1.1. Bu Qayda Azərbaycan Respublikası Ailə Məcəlləsinin 51.7-ci maddəsinə uyğun olaraq, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətinin (bundan sonra - dövlət nəzarəti) təşkilini və həyata keçirilməsini tənzimləyir.

1.2. Dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması,

uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınmasıdır.

1.3. Dövlət nəzarətini, Azərbaycan Respublikasının qanunları əsasında müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları həyata keçirirlər.

1.4. Bu Qaydada sadalanmış vəzifələr dövlət orqanlarının Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında uşaq hüquqları sahəsində nəzərdə tutulmuş vəzifələrinin inkar edilməsi kimi təfsir oluna bilməz.

**2. Dövlət nəzarəti sahəsində funksiyalar:**

**2.1. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:**

2.1.1. uşaqların hüquqlarını və mənafelərini müdafiə edir;

2.1.2. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, valideyn himayəsindən məhrum olan uşaqların, övladlığa götürülən uşaqların ümumi uçotunu aparır;

2.1.3. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsinə razılıq verir, ölkələrarası övladlığa götürmə məsələləri üzrə zəruri tədbirləri həyata keçirir;

2.1.4. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər

tərəfindən övladlığa götürüldüyü hallarda, övladlığa götürülmüş uşaqların həyat şəraitinə və tərbiyəsinə nəzarətin həyata keçirilməsi üzrə hesabatlara və məlumatlara baxır, əsas olduqda, övladlığa götürmənin ləğvi ilə bağlı məhkəmədə iddia qaldırır;

2.1.5. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi ləğv edildikdə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların Azərbaycan Respublikasının ərazisinə qaytarılması və ya övladlığa götürənin vətəndaşı olduğu (daimi yaşadığı) dövlətin qanunvericiliyinə uyğun yerləşdirilməsi məqsədi ilə zəruri tədbirlər görür;

2.1.6. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqları övladlığa götürən əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən akkreditə edilmiş orqanları müəyyən edir və onların fəaliyyətinə nəzarət edir.

**2.2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi:**

2.2.1. uşaqların hüquqlarını və mənafelərini müdafiə edir;

2.2.2. sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar, habelə onların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya onların davranışına mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr barəsində profilaktik iş aparılmasını təmin edir;

2.2.3. yetkinlik yaşına çatmayanları cinayət əməllərinə və ya fahişəliyə və ya digər əxlaqsız əməllərə cəlb etmiş, yaxud yetkinlik yaşına çatmayanlar barəsində qanunazidd başqa əməllər törətmiş şəxslərin, habelə yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz

vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən valideynlərin və digər qanuni nümayəndələrin, vəzifəli şəxslərin aşkar edilməsini, onlar barəsində Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin edir;

2.2.4. inzibati məsuliyyətə və ya cinayət məsuliyyətinə cəlb etmək üçün müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müəyyən edilən yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanların ictimai təhlükəli əməllər törətməsi barədə, habelə yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən valideynlər və ya digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində müraciətlərə baxılmasını təmin edir;

2.2.5. yetkinlik yaşına çatmayanların baxımsızlığına, qanunazidd əməllər törətməsinə imkan yaradan səbəblər və hallar barəsində müvafiq dövlət orqanlarına və digər qurumlara məlumat verilməsini təmin edir;

2.2.6. hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmayanlar barəsində, habelə onların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən, onların tərbiyəsinə mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş təsir tədbirlərinin tətbiq edilməsi haqqında müvafiq dövlət orqanlarına təkliflər verilməsini təmin edir;

2.2.7. yetkinlik yaşına çatmayanların müvəqqəti saxlanılma yerlərində xidmətin təşkilinə nəzarət edir.

**2.3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi:**

2.3.1. təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarəti həyata keçirir;

2.3.2. təhsil prosesinin təşkilinə dair ümumi tələbləri müəyyən edir;

2.3.3. təhsil müəssisələrində təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirir;

2.3.4. icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət edir, heç bir üzrlü səbəb olmadan dərslərdə iştirak etməyən və ya mütəmadi olaraq təhsildən yayınan yetkinlik yaşına çatmayanların təhsil müəssisələrində uçotunu aparır, onların tərbiyəsi və icbari ümumi orta təhsil alması üçün zəruri tədbirlər görülməsini təmin edir;

2.3.5. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların müəyyənləşdirilməsini və onların təhsilə cəlb edilməsini təşkil edir;

2.3.6. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, valideyn himayəsindən məhrum olan 3 yaşından yuxarı uşaqların mərkəzləşdirilmiş uçotunu aparır, onların tərbiyə olunmaq üçün ailələrdə yerləşdirilməsinə yardım edir, övladlığa götürülən 3 yaşından yuxarı uşaqların mərkəzləşdirilmiş uçotunu aparır;

2.3.7. uşaqlarda fiziki çatışmazlıqların, əqli və (və ya) psixi ləngimələrin diaqnostikasını aparmaq, bunun əsasında onların xüsusi təhsilə cəlb olunması barədə qərar qəbul etmək, valideynlərinə və ya digər qanuni nümayəndələrinə müvafiq məsləhətlər vermək məqsədi ilə psixoloji-tibbi-pedaqoji komissiyalar yaradır;

2.3.8. aidiyyəti icra hakimiyyəti orqanlarının iştirakı ilə ciddi tərbiyə şəraitinə ehtiyacı olan, sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların təhsilini təşkil edir;

2.3.9. istedadlı uşaqların təhsilini davam etdirməsi üçün zəruri tədbirlər görür;

2.3.10. uşaqların istirahətinin, asudə vaxtının və məşğulluğunun təşkilində iştirak edir;

2.3.11. təhsil müəssisələrində bədən tərbiyəsi dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsini təmin edir, təhsil alanların üzməyi öyrənməsi, müvafiq idman normativlərini yerinə yetirə bilməsi üçün şərait yaradır;

2.3.12. təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi üçün tədbirlər görür;

2.3.13. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsinin monitorinqini aparır.

**2.4. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:**

2.4.1. yetkinlik yaşına çatmayanlara tibbi yardım göstərilməsini təmin edir;

2.4.2. dövlət təhsil müəssisələrində pulsuz tibbi xidməti təmin edir;

2.4.3. yetkinlik yaşına çatmayanlar, onların valideynləri və ya digər qanuni nümayəndələri arasında sanitariya-gigiyena biliklərinin yayılmasını, habelə sağlam həyat tərzinin təbliğini təşkil edir;

2.4.4. valideynlərini itirmiş, valideynlərinin və ya digər qanuni nümayəndələrinin himayəsindən kənarda qalmış, yaxud valideynlərinin həyat şəraiti çətin olan 4 yaşınadək uşaqların saxlanılmasını və onların tərbiyəsini həyata keçirir;

2.4.5. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, valideyn himayəsindən məhrum olan 3 yaşınadək uşaqların mərkəzləşdirilmiş uçotunu aparır, onların tərbiyə olunmaq üçün ailələrdə yerləşdirilməsinə yardım edir, övladlığa götürülən 3 yaşınadək uşaqların mərkəzləşdirilmiş uçotunu aparır;

2.4.6. tabeliyindən asılı olmayaraq məktəbəqədər təhsil müəssisələrində uşaqların sağlamlığına nəzarət edir, Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, uşaq qidası məhsullarının istehsalına, satışına və istehlakına tələblər qoyur;

2.4.7. tibbi fəaliyyətlə məşğul olan müəssisə və təşkilatların uşaqlara göstərdiyi tibbi xidmətin keyfiyyətinə, həmin sahədə tibb kadrlarının peşə hazırlığı səviyyəsinə nəzarəti təmin edir;

2.4.8. alkoqollu içkilər, yaxud tibbi göstəriş əsasında həkimin təyinatı olmadan narkotik vasitələr və psixotrop maddələr qəbul edən yetkinlik yaşına çatmayanları aşkar edir, onların uçotunu, müayinəsini, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqların müalicəsini aparır, yetkinlik yaşına çatmayanlar arasında alkoqolizmin, narkomanlığın, toksikomanlığın və bunlarla bağlı davranışda yaranan pozuntuların profilaktikası üzrə tədbirlər həyata keçirir;

2.4.9. cinsi yolla yayılan xəstəliklərin mənbəyinin aşkar edilməsini, belə xəstəliklərə düçar olmuş, habelə əxlaqsızlıqla məşğul olan yetkinlik yaşına çatmayanların müayinəsini və müalicəsini, həmin şəxslər haqqında daxili işlər orqanlarına məlumat verməklə, həyata keçirir;

2.4.10. tibbi-tərbiyə müəssisələri şəbəkəsinin inkişafını təmin edir.

**2.5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:**

2.5.1. sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasını və sosial müdafiəsini təşkil edir, onları protez-ortopediya məmulatları, əlil kreslo-velo arabaları və digər reabilitasiya vasitələri ilə təmin edir;

2.5.2. sağlamlıq imkanları məhdud uşaqlarla bağlı məlumat bazasını təşkil edir;

2.5.3. sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkilini təmin edir, onları bədən tərbiyəsi və idmana cəlb edir, sağlamlıq imkanları məhdud uşaqlar üçün ixtisaslaşdırılmış idman-sağlamlıq mərkəzlərinin yaradılması və sağlamlıq imkanları məhdud istedadlı uşaqların aşkar edilməsi məqsədi ilə müvafiq tədbirlər görür;

2.5.4. sağlamlıq imkanları məhdud uşaqlara təhsili ilə bağlı texniki yardım göstərilməsini təmin edir;

2.5.5. sağlamlıq imkanları məhdud uşaqların sanatoriya-kurort müalicəsi üzrə kompleks tədbirləri müvafiq qurumlarla birlikdə həyata keçirir;

2.5.6. sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasının gücləndirilməsi məqsədi ilə əlillərin bərpa mərkəzləri şəbəkəsinin işini təkmilləşdirir və yeni reabilitasiya mərkəzlərinin yaradılmasını təmin edir;

2.5.7. yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikası tədbirlərini həyata keçirir, həmin şəxslərin tərbiyəsi, saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən, onların davranışına mənfi təsir göstərən, yaxud onlarla qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr barəsində fərdi profilaktik işi təşkil edir;

2.5.8. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, uşaqlara sosial xidmətin göstərilməsini təşkil edir;

2.5.9. yaşı 18-dən az olan şəxslərin əməyindən istifadə olunarkən Azərbaycan Respublikasının əmək qanunvericiliyinin tələblərinə riayət edilməsi üzrə dövlət nəzarətini həyata keçirir;

2.5.10. yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrinin, habelə yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmət göstərən digər müəssisə və xidmətlərin fəaliyyətinə nəzarət edir, eləcə də belə müəssisələr şəbəkəsinin inkişafı üçün tədbirlər görür.

**2.6. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi:**

2.6.1. təhsil müəssisələrində bədən tərbiyəsi və idman vasitəsilə uşaqların sağlamlığının qorunmasını və möhkəmlən-

dirilməsini təmin edir, belə müəssisələrdə uşaq və yeniyetmələrin fiziki hazırlığı üzrə normativləri hazırlayır;

2.6.2. uşaq-gənclər idmanının təşkili və inkişafını, müvafiq dövlət orqanları ilə birlikdə bədən tərbiyəsi və idman sahəsində məktəbdənkənar təhsil müəssisələri şəbəkəsinin inkişafını təmin edir;

2.6.3. sağlamlıq imkanları məhdud uşaqların bədən tərbiyəsi və idmanla məşğul olması, idman yarışlarında iştirak etməsi üçün əlverişli şərait yaradır, belə uşaqlar arasında ölkə və beynəlxalq idman yarışlarını, o cümlədən paralimpiya, deflimpiya və xüsusi olimpiya oyunlarını təşkil edir və bu yarışlarda sağlamlıq imkanları məhdud idmançıların iştirakını təmin edir;

2.6.4. yetkinlik yaşına çatmayanların istirahətinin, asudə vaxtının və məktəbdənkənar təhsilinin təşkilində iştirak edir.

**2.7. Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası sahəsində Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar:**

2.7.1. yetkinlik yaşına çatmayanların hüquqlarının və mənafelərinin qorunması üzrə, həmin şəxslərin baxımsızlığına, kimsəsizliyinə, hüquq pozuntuları törətməsinə imkan yaradan səbəb və halların aşkar edilməsi və aradan qaldırılması üzrə tədbirlər həyata keçirir;

2.7.2. yetkinlik yaşına çatmayanların hüquq pozuntularının profilaktikasını həyata keçirən orqan və müəssisələrin fəaliyyətini əlaqələndirir;

2.7.3. ümumi və digər təhsil müəssisələrində, habelə mülkiyyət formasından asılı olmayaraq, yetkinlik yaşına çatmayanların işlədikləri təşkilatlarda yetkinlik yaşına çatmayanlar arasında tərbiyə işinin təşkilini yoxlayır;

2.7.4. ilk peşə-ixtisas təhsili müəssisələrində, internat-məktəblərdə, uşaq evlərində, açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrində, təlim-tərbiyə və tibbi-tərbiyə müəssisələrində, qəbul-bölüşdürmə məntəqələrində yetkinlik yaşına çatmayanların saxlanması və tərbiyə olunması şəraiti ilə tanış olur;

2.7.5. yetkinlik yaşına çatmayanın müraciəti olduqda, onunla bağlanmış əmək müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinin əsaslılığını yoxlayır;

2.7.6. yerli komissiyaların yetkinlik yaşına çatmayanların açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə qərarlarını yoxlayır və həmin qərarları qanunsuz və ya əsassız hesab etdikdə ləğv edir;

2.7.7. yetkinlik yaşına çatmayanların hüquqlarını pozan və ya onları qanunazidd əməllər törətməyə təhrik və cəlb edən şəxslərin məsuliyyətə cəlb olunması üçün müvafiq dövlət orqanlarına müraciət edir;

2.7.8. cəzaçəkmə müəssisəsindən, açıq və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsindən buraxılmış yetkinlik yaşına çatmayanlar üçün əmək və məişət şəraiti yaradılmasında onlara yardım göstərilməsini, dövlət yardımına ehtiyacı olan yetkinlik yaşına çatmayanların müəyyən edilməsini və onlara yardım göstərilməsini təşkil edir;

2.7.9. böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə müəyyən edilmiş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanları, valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə, çətin tərbiyə olunan yetkinlik yaşına çatmayanları, həmçinin müxtəlif hüquqpozmalara və əxlaqsız həyat tərzi keçirməyə görə daxili işlər orqanlarında profilaktiki qeydiyyatda olan, lakin islah

olunması mümkün olmayan yetkinlik yaşına çatmayanları açıq tipli xüsusi təlim-tərbiyə müəssisələrinə göndərir;

2.7.10. ağır və ya xüsusilə ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə məhkəmə qarşısında vəsatət qaldırır;

2.7.11. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, yetkinlik yaşına çatmayanlar, onların valideynləri və ya digər qanuni nümayəndələri barəsində inzibati tənbeh tədbirlərini tətbiq edir;

2.7.12. insan alverinin qurbanı olmuş uşaqların hüquqlarının və mənafelərinin qorunması üçün tədbirlər görür;

2.7.13. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan çıxarılmasına razılıq verilməsi məsələsinə baxır;

2.7.14. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların mənzil hüququnun qorunması ilə bağlı zəruri tədbirləri həyata keçirir;

2.7.15. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, övladlığa götürmənin ləğv edilməsinə əsas olduqda, Azərbaycan Respublikasının vətəndaşı olan uşağın Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürülməsinin ləğvi məqsədi ilə tədbirlər görür;

2.7.16. yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və məşğulluğu ilə əlaqədar, həmçinin onların pozulmuş

hüquqlarının və mənafelərinin bərpası məqsədi ilə aidiyyəti üzrə müraciət edir.

**2.8. Yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanları:**

2.8.1. Uşaqların hüquqlarını və mənafelərini müdafiə edir;

2.8.2. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqları və uşağını tərbiyə etməkdən yayınan valideynlərin uşaqlarını, səhhətinə görə qəyyumluq və ya himayəyə ehtiyacı olan yetkinlik yaşına çatmayanları aşkara çıxarır;

2.8.3. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, valideyn himayəsindən məhrum olan uşaqların ilkin uçotunu aparır, valideyn himayəsindən məhrum olmağın konkret hallarını nəzərə almaqla, həmin uşaqların yerləşdirilməsi formalarını seçir, eləcə də onların saxlanılma, tərbiyə və təhsil şəraitinə nəzarəti həyata keçirir;

2.8.4. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq, övladlığa götürmənin övladlığa götürülən uşağın mənafeyinə uyğun olması barədə rəy verir;

2.8.5. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, övladlığa götürmənin ləğv edilməsinə əsas olduqda, Azərbaycan Respublikasının vətəndaşı olan uşağın Azərbaycan Respublikasının vətəndaşları tərəfindən övladlığa götürülməsinin ləğvi məqsədi ilə tədbirlər görür;

2.8.6. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, qəyyumları və himayəçiləri təyin edir və ya vəzifələrinin icrasından azad edir və ya kənarlaşdırır;

2.8.7. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, uşaqları övladlığa götürməyi arzu edən Azərbaycan Respublikası vətəndaşlarının uçotunu aparır, övladlığa götürməyi arzu edən Azərbaycan Respublikası

vətəndaşlarının övladlığa götürmənin tələblərinə uyğun olub-olmadığını yoxlayır;

2.8.8. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, valideynlər arasında uşağın adına və soyadına münasibətdə yaranan fikir ayrılığının, uşağın mənafeyi nəzərə alınmaqla, həlli istiqamətində zəruri tədbirləri həyata keçirir;

2.8.9. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, valideynlərlə uşaqların maraqları arasında ziddiyyət yarandığı hallarda, uşaqların hüquqlarının və mənafeyinin müdafiəsi üçün nümayəndə təyin edir;

2.8.10. uşağın sağlamlığı və ya həyatı birbaşa təhlükədə olduqda, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, uşağı valideynlərdən (onların birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq almaq üçün zəruri tədbirlər görür;

2.8.11. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların bir təhsil müəssisəsindən digərinə keçirilməsinə, ümumi orta təhsil alana qədər təhsilalma formasının dəyişdirilməsinə, istənilən təhsil müəssisəsindən kənar edilməsinə razılıq verir;

2.8.12. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların əmlak hüquqlarının qorunmasını təmin edir;

2.8.13. tərbiyə, müalicə və əhalinin sosial müdafiəsi müəssisələrində və digər analoji müəssisələrdə yerləşdirilən valideyn himayəsindən məhrum olan uşaqların saxlanmasına, tərbiyə və təhsilinə daim nəzarət edir, həmin müəssisələrin məzunlarının hüquqlarının qorunmasını təmin edir;

2.8.14. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan yetkinlik yaşına çatmayanlar barəsində fərdi profilaktik işin aparılmasında iştirak edir.

**3. Dövlət nəzarəti üzrə ümumi vəzifələr:**

3.1. Bu Qaydanın 1.3-cü bəndində nəzərdə tutulmuş dövlət orqanlarının dövlət nəzarəti üzrə ümumi vəzifələri aşağıdakılardır:

3.1.1. hər bir uşağın zəruri maddi və məişət şəraitində tərbiyə olunmasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönələn dövlət siyasətini həyata keçirmək;

3.1.2. Azərbaycan Respublikası qanunlarının uşaqların hüquqlarını qorumağa dair tələblərinin yerinə yetirilməsinə nəzarət etmək;

3.1.3. uşaqların mənafeyinin üstün tutulmasına nəzarət etmək;

3.1.4. uşaq hüquqlarının təmin edilməsində ayrı-seçkiliyin yolverilməzliyinə nəzarət etmək;

3.1.5. uşaqların müraciət etmək hüququnun təmin edilməsinə nəzarət etmək;

3.1.6. uşaqların normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etməsi üçün sağlam və təhlükəsiz mühit yaradılması istiqamətində tədbirlər görmək;

3.1.7. uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabatlar hazırlamaq;

3.1.8. uşaq hüquqlarının təmin edilməsi vəziyyətinin araşdırılmasına dair monitorinqlər aparılmasında iştirak etmək;

3.1.9. uşaq problemlərinin həlli istiqamətində təhlillər, tədqiqatlar aparmaq.

**4. Uşaq hüquqlarının həyata keçirilməsinə ümumi dövlət nəzarəti və onun formaları:**

4.1. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətinin səmərəliliyi, nəzarətin mərkəzləşdirilməsi və nəzarətedici dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya (bundan sonra - Komissiya):

4.1.1. uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə illik hesabatı təhlil edir, nəticələrini qiymətləndirir;

4.1.2. uşaqların vəziyyətinə dair müzakirələr keçirir;

4.1.3. uşaq hüquqlarının təmin edilməsi sahəsində hazırlanmış dövlət proqramlarına, milli fəaliyyət planlarına, irihəcmli layihələrə dair rəy bildirir;

4.1.4. uşaq müəssisələrində monitorinqlər keçirir;

4.1.5. uşaq problemlərinin həlli yollarına dair tövsiyələr verir.

**4.2. Uşaq hüquqlarının həyata keçirilməsinə ümumi dövlət nəzarəti aşağıdakı formalarda həyata keçirilir:**

4.2.1. uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət edən dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi;

4.2.2. monitorinqlərin keçirilməsi.

**5. Uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət edən dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi:**

5.1. Komissiyada təmsil olunan dövlət orqanları həmin dövlət orqanlarının Azərbaycan Respublikasının qanunları əsasında müəyyən olunmuş fəaliyyət istiqamətləri üzrə cari il üçün uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat hazırlayır və növbəti il yanvar ayının 15-dək Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim edirlər.

5.2. Bu Qaydanın 5.1-ci bəndində nəzərdə tutulmuş illik hesabatda uşaq hüquqlarının pozulmasına dair müraciətlər barədə ətraflı məlumat verilir, pozuntu halları və onların statistikası göstərilir.

5.3. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bu Qaydanın 5.1-ci bəndinə uyğun olaraq təqdim edilmiş hesabatları ümumiləşdirərək, uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə illik hesabatın hazırlanmasını təmin edir.

5.4. Uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə illik hesabat Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Komissiyanın sədrinə təqdim edilir. Hesabata, həmçinin Komissiyanın keçirdiyi monitorinqlər və onların nəticələri barədə məlumat daxil edilir.

5.5. Komissiyanın iclasında uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə illik hesabat barədə Komissiya sədrinin məruzəsi dinlənilir.

5.6. Uşaq hüquqlarının təmin olunması vəziyyətinə dair ölkə üzrə illik hesabat Komissiyanın iclasında təhlil edilir və Komissiyanın Əsasnaməsində müəyyən edilmiş səsvermə proseduruna uyğun olaraq həmin hesabat barədə yekun rəy qəbul edilir. Yekun rəydə həmin il üzrə uşaq hüquqlarının təmin edilməsi vəziyyəti qiymətləndirilir və növbəti ildə görülməsi zəruri hesab edilən tədbirlər nəzərdə tutulur.

5.7. Komissiya uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə illik hesabata baxarkən, bu Qaydanın 6.1-ci bəndində qeyd olunmuş müəssisələrdə uşaq hüquqlarının ciddi və müntəzəm pozulması halları aşkar edilərsə, həmin müəssisələrdə növbədənkənar monitorinqlərin keçirilməsinə dair qərar qəbul edilir.

5.8. Uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair ölkə üzrə illik hesabat və həmin hesabat barədə Komissiyanın yekun rəyi Komissiyanın sədri tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**6. Monitorinqlərin keçirilmə qaydası:**

6.1. Monitorinqlər aşağıdakı müəssisələrdə, bu Qaydaya uyğun olaraq, Komissiyanın qərarı əsasında keçirilir:

6.1.1. uşaq evlərində və internat-məktəblərdə;

6.1.2. təhsil müəssisələrində;

6.1.3. açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrində;

6.1.4. yetkinlik yaşına çatmayanların tərbiyə müəssisələrində;

6.1.5. yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində, habelə yetkinlik yaşına çatmayanlara və onların ailələrinə sosial xidmət göstərən digər müəssisə və xidmətlərdə;

6.1.6. yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzlərində;

6.1.7. yetkinlik yaşına çatmayanlar üçün səhiyyə müəssisələrində.

6.2. Monitorinqlər dövri və növbədənkənar keçirilir.

6.3. Dövri monitorinqlər ildə bir dəfə keçirilir. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi hər il növbəti il üzrə monitorinqlərin keçiriləcəyi müəssisə və təşkilatların siyahısını və keçirilmə rejimini baxılmaq və təsdiq olunmaq üçün Komissiyaya təqdim edir. Komissiya məsələ ilə bağlı müvafiq qərar qəbul edir.

6.4. Növbədənkənar monitorinqlər Komissiyaya bu Qaydanın 6.1-ci bəndində göstərilmiş hər hansı bir müəssisə və ya təşkilatda uşaq hüquqlarının ciddi və ya müntəzəm pozulması halları haqqında əsaslandırılmış məlumat daxil olduqda və ya bu Qaydanın 5.7-ci bəndində nəzərdə tutulmuş hallarda keçirilir. Komissiyaya bu Qaydanın 6.1-ci bəndində göstərilmiş hər hansı bir müəssisə və ya təşkilatda uşaq hüquqlarının ciddi və ya müntəzəm pozulması halları haqqında əsaslandırılmış məlumat daxil olduqda, Komissiyanın

növbədənkənar iclası keçirilir və məlumatın etibarlılığı təsdiq edildikdə, növbədənkənar monitorinqin keçirilməsi haqqında qərar qəbul edilir.

6.5. Hər il yanvar ayının 15-dək Komissiya həmin il üçün monitorinqlərin keçirilməsi üzrə tərkibi 10 nəfərdən çox olmamaq şərti ilə ekspertlər qrupu təşkil edir. Monitorinqlərin keçirilməsi üzrə ekspertlər qrupunun tərkibinə Komissiyada təmsil olunan dövlət orqanlarının nümayəndələri, müstəqil ekspertlər, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri daxil edilirlər.

6.6. Növbədənkənar monitorinqin keçirilməsi tarixinə üç iş günü qalmış Komissiyanın qərarının surəti, dövri monitorinqin keçirilməsi tarixinə üç iş günü qalmış Komissiyanın bu Qaydanın 6.3-cü bəndində nəzərdə tutulmuş qərarından monitorinq keçiriləcək müəssisə və ya təşkilata dair çıxarış monitorinq keçiriləcək müəssisə və ya təşkilata və onun tabe olduğu quruma göndərilir.

6.7. Monitorinqin nəticələri monitorinqlərin keçirilməsi üzrə ekspertlər qrupunun üzvləri və monitorinq keçirilmiş müəssisə və ya təşkilatın rəhbəri tərəfindən iki nüsxədə imzalanan aktla rəsmiləşdirilir. Aktın bir nüsxəsi müəssisə və ya təşkilatın rəhbərinə, digər nüsxəsi Komissiyaya təqdim edilir.

6.8. Keçirilmiş monitorinqlər nəticəsində uşaq hüquqlarının pozulması halları aşkar edildikdə, Komissiya:

6.8.1. aşkar edilmiş nöqsanların aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər görülməsinə dair əlaqədar dövlət orqanlarına tövsiyələr verilməsi və (və ya);

6.8.2. aşkar edilmiş hallar barədə hüquq mühafizə orqanlarına məlumat təqdim edilməsi barəsində qərar qəbul edir.

**7. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı:**

7.1. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti və dövlət orqanları tərəfindən uşaq problemlərinin əlaqəli şəkildə çevik həllinin təşkili məqsədi ilə uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı fəaliyyət göstərir.

7.2. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı bu Qaydanın 1.3-cü bəndində nəzərdə tutulmuş dövlət orqanlarının istifadəçisi olduğu xüsusi proqramla təchiz edilmiş sistemdir.

7.3. Bu Qaydanın 1.3-cü bəndində nəzərdə tutulmuş dövlət orqanları uşaqlara dair hər bir müraciətin və müraciət üzrə aparılan icraat prosesinin müraciətin qəbul edildiyi və icraatın başlandığı gün bu Qaydanın 7.2-ci bəndində nəzərdə tutulmuş sistemdə qeyd edilməsini təmin etməyə borcludurlar.

7.4. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təşkil edilir.

7.5. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

## Uşaqlara qarşı baş vermiş zorakılıq hallarının araşdırılması üsulları

Düşünülmüş halda fiziki və ya digər güc formalarının tətbiqi, xəsarət, ölüm, psixiloji zərər, inkişafdan qalma və ya məhrum etməyə səbəb olan və ya böyük ehtimalla belə nəticələnə biləcək bir şəxsin digər bir şəxs, qrup və ya birlik tərəfindən hədələnməsi və ya həqiqi davranışına məruz qalması zorakılıq sayılır.

Uşaqlara qarşı baş vermiş zorakılıq halları araşdırılılarkən qruplar müəyyənləşdirilməli və zorakılıqla üzləşmiş uşaq haqqında əhvalat təqdim olunmalıdır.

İştirakçılar bu hekayəni öz təcrübələrinə uyğun inkişaf etdirərək fasilənin bir forması kimi mövzuya uyğun oyunlar təqdim edirlər. Onların zorakılığa necə reaksiya vermələri öyrənilərək sonda daha çox pozitiv oyunlar və müsbət şəkildə bitirmək üçün həmçinin dincəlmə oyunları da təqdim olunmalıdır. Təqdim olunan modulda verilən bütün suallar nəticə üçün cavablandırılmalı və təhlil olunmalıdır. Cavablar ayrıca vərəqdə sıralanmaqla və ya modul üzərində qeyd edilə bilər.

***Etik qaydalar:***

- Razılıq alınmalı;
- Gizliliyi təmin edilməli;
- Mövcud mənfi psixoloji təsir aşağı salınmalı;
- Ehtiyacı olduqda yardım ala biləcəklərinə yol göstərməklə inandırma olmalıdır.

***İlkin məlumat və suallar:***

1. Sən özünü heç qəhrəman (məsələn: müsbət cizgi filmi qəhrəmanını göstərməklə) kimi hiss etmisən?
2. Evdə kiminlə yaşayırsan?
3. Bacın və qardaşın varmı?
4. Asudə vaxtını necə keçirirsən?
5. Nədən xoşun gəlmir?
6. Səni narahat edən hər hansı bir problemin varmı?
7. Məktəbdə hansı çətinliklərlə üzləşirsən?
8. Məktəbdə səni ən çox narahat edən nədir?
9. İnsanlar nə edir ki, sən qorxur və ya kədərlənirsən?

- Cəza/Emosianal əzab, işgəncə;
- Fiziki əzab/əziyyət;
- Cinsi əzab/əziyyət;
- Etinasız münasibət.

 - Başqa nədən çəkinirsən?

10. Onlar nəyə görə səninlə belə rəftar edirlər?
11. Belə hallar anlaşılmazlıq olduqda baş verir, ya həmişə?

- Xırda səhvlər/ təsadüf zamanı;
- Nizam-intizamın çatışmamazlığı;
- Təhsillə bağlı məsələlər;
- Bezdirici və nalayiq davranış;
- Hüquq pozuntusu;
- Böyüklərin gözlədikləri davranışa uyğun olmamaq;
- Nəzakətsiz və ya qeyri-əxlaqi davranış.

11. Belə bir vəziyyətdən xəsarət almısanmı? Əgər belədirsə nə baş vermişdi?

- Qançır, burxulma, sınma, uzunmüddətli izi qalan xəsarət və ya?

Cavab öyrənilir.

12. İndi sən bizə deyə bilərsənmi sən harada ağrı hiss edirdin?

13. İndi biz sənə insan bədəninin şəklini göstərəcəyik, öndən və arxadan. Sən isə deyə bilərsənmi dəqiq harada ağrı vardı?

14. Belə şeylər səninlə tez-tez baş verir?

Cavab belə ola bilər:

- İlk dəfə idi;
- Çox nadir hallarda
- Tez-tez;
- Hərdən olur.

15. Siz məktəb ətrafı ərazidə hansı çətinliklərlə qarşılaşırsınız?

16. Məktəbin ətrafında və məktəbə gedən yolda qarşılaşdığınız insanlar sizi məyus edən və ya qorxudan hansı hərəkətlər edirlər?

17. Sən heç belə bir vəziyyətdən zədə almısan?

18. Sən bizə deyə bilərsənmi, harada ağrı hiss edirdin?

19. Belə hadisələr səninlə tez-tezmi baş verir?

20. Bu hallar baş verəndə sən özünü necə hiss edirsən?

- kədərli;
- hirsli;
- çaşqın;
- utancaqlıq;
- təhqir edilmiş;
- intiqam almaq istəyirəm;
- yalnız, atılmış;
- hər şeydən qaçıb getmək istəyirəm;
- özümü incidilmiş kimi;

- özümü məhv olmuş kimi hiss edirəm.

21. Bunların sənə ziyan vurmasının qarşısını necə almaq olar?

- Valideynlərə, dostlara və qohumlara etibar etmək;
- Bir qrup insanlarla ünsiyyətə girməmək;
- Müsbət münasibətlərə üstünlük vermək;
- Diqqəti müsbət işlərə yönəltmək.

**Fəal dinləmə üçün:**

- Uşaqların sualları fərqli qəbul edə bilmələrinə normal münasibət bəsləmək;
- Onları həssas yanaşdıqlarına görə həvəsləndirmək;
- Qorxu və çəkinmələrinə yol verməmək;
- Cavab almazdan öncə onlara sualı qavramaq üçün zaman ayırmaq;
- Metodologiyanı dinləyici səviyyəsinə uyğunlaşdırmaq;
- Onların yardımını qiymətləndirmək və həvəsləndirmək;

# EFFEKTİV TƏDRİS ÜÇÜN QAYDALAR

**Qısa icmal:**

1. Müəllim ( və ya trener) salamlama və tanışlıqdan sonra sadə və kifayət qədər başa düşülən formada fikirlərini izah etməli və dinləyiciləri ələ almalıdır;
2. Çatdırılan məlumatlar qəbul edilmə baxımından konkret mənbəyə əsaslanmalı və ümumi məqsədə xidmət etməlidir;
3. Məlumatlar ünvanlanarkən yaş qrupları mütləq nəzərə alınmalıdır;
4. Tədrisdə əyani vəsaitlərdən mümkün qədər çox istifadə olunmalıdır;
5. İlkin (1-3 dərsdən) dərslərdən sonra mütləq qaydada mövzulara uyğun çalışmalar və ya ev tapşırıqları verilməli, uşaqların fikirləri əsasında kiçik hekayələrin hazırlanması tapşırığı yerinə yetirilməlidir;
6. Tədris prosesində iştirakçıların yorulmaması üçün vaxt amili mütləq nəzərə alınmalıdır.

**Tədris prosesində dinləyicilərlə ilkin ünsiyyət qaydaları:**

- Danışarkən sizi dinləyənlərin gözlərinə baxmağa çalışın;
- Dinləyicilərdən hər hansı birini fərqləndirməkdən çəkinin, hər kəsə eyni formada yanaşın;
- Diqqəti yayındırmadan hərəkət edin və çalışın ki, onların sizi yaxşı görə bildikləri yerdən müraciət edin;
- Müraciətlərinizə cavabları dinlədiyinizi bildirmək üçün onların çıxışlarında başınızı tərpədin, gülümsəyin və ya başqa jestlərlə reaksiya verin;

- Xüsusən məşğələnin əvvəlində dinləyicilərin önündə dayanın.. Bu zaman sakit və inamlı görünməyiniz olduqca vacibdir.

**Söz vasitəsilə ünsiyyət:**

- Geniş cavablar tələb edən açıq suallar verin. Əgər iştirakçı birmənalı şəkildə "hə" və ya " yox" cavabını verirsə, ondan bunun səbəbini soruşun.
- Sinif və ya qrupdakı hər hansı bir iştirakçının söylədiyi fikirlə razılaşıb-razılaşmadıqlarını digərlərindən soruşun;
- Səsinizin intonasiyasına nəzarət edərək, yavaş-yavaş və aydın danışın;
- Jarqon və ya ara sözlərdən, peşə leksikonundan istifadə etməkdən çəkinin;
- Diqqət yetirin ki, sizinlə müqayisədə iştirakçılar daha çox danışa bilsinlər;
- İştirakçıların bir-birilərinin suallarına cavab verməsinə imkan verin. Verilmiş hər hansı bir suala kiminsə cavab verə bilməsini soruşun;
- İştirakçıları fikir söyləməyə həvəsləndirin və onların ideyalarını tərifləyin;
- Danışanı düzgün başa düşüb-düşmədiyinizi yoxlamaq və onun haqlı olub-olmadığını təsdiq etmək üçün iştirakçıların söylədiklərini öz sözlərinizlə təkrar edin;
- Diskussiyanı lazım olan istiqamətdə aparmaq əsas şərtlərdəndir.
- Müzakirə predmetinin "lehinə" və "əleyhinə" olan dəlillərə diqqət yetirin və müvafiq nəticələr çıxarın.
- Deyilənləri şəxsi təcrübənizdən olan nümunələrlə möhkəmləndirin. Məsələn: siz deyə bilərsiniz ki, "Bu, bir il əvvəl baş vermiş hadisəni mənim yadıma saldı" və s.

**Effektiv tədris üçün əlverişli şərait yaratmaq məqsədilə tələb olunan bacarıqlar:**

- Özünüzü inamlı hiss etmək və məşğələni arxayın şəkildə aparmaq üçün tədris olunacaq mövzunu hər bir məşğələdən qabaq bütövlükdə oxuyun, zəruri materialları və tapşırıqları nəzərdən keçirin;
- Dərsə (və ya məşğələyə) vaxtında başlayın və dərhal təşəbbüsü öz əlinizə alın;
- Məşğələ üçün bütün lazımi materialları hazırlayın və həmin materialları elə yerləşdirin ki, onlar əlinizin altında olsun. Çalışın ki, dərsə ayrılan vaxta riayət edəsiniz;
- Psixoloji cəhətdən rahat şərait yaratmaqla iştirakçıların diqqət və marağını özünüzə cəlb edin;
- Təqribi olaraq mövzu ətrafında hansı sualların veriləcəyini qabaqcadan müəyyənləşdirməyə çalışın;
- Tədrisin vəzifələrini əvvəlcədən formula edərək dərslər arasında məntiqi əlaqələri görməkdə iştirakçılara dəstək verin.

## Tədris olunmuş nəzəri məlumatları praktiki tətbiq etmək və ya möhkəmləndirmək

- Cari məşğələ və ya dərslərin mövzusuna bilavasitə aidiyyəti olan vəziyyəti canlandırmağı iştirakçılara təklif edin;
- Bununla da, iştirakçıları hər dərs mövzusunun müzakirəsində bu təcrübədən istifadə etməyi tövsiyə edin;
- Siz məruzənizə başladıqdan sonra hökmən iştirakçılara praktik tapşırıqlar verin;
- Dinləyicilərinizin qazandığı vərdişləri müzakirə edin;

- Onların keçilmiş mövzular barədə öz mülahizələrini söyləmələrinə imkan yaradın;
- Dinləyiciləriniz arasında konkret qərarın qəbulu ilə nəticələnən diskussiyalar təşkil edin;
- Diqqət yetirin ki, iştirakçılar həm bir-birləri tərəfindən, həm də sizin tərəfinizdən səy və əzmkarlığı hiss etsinlər;
- Onlardan xahiş edin ki, diskussiyalar və praktiki məşğələlər nəticəsində hansı fikirlərinin yarandığını bildirsinlər;
- Əldə edilən nəticələri ümumiləşdirməkdə iştirakçılara kömək edin və düşünmək üçün onlara vaxt verin.

## Tədrisə yekun vurmaq

- Hər bir dərs və ya məşğələnin sonunda qısa mövzunun icmalını təqdim edin;
- Məşğələnin əvvəlində qoyulan vəzifələri yada salın və onların yerinə yetirilib-yetirilmədiyini müzakirə edin;
- Qazanılmış bilikləri daha yaxşı yadda saxlamaq və inkişaf etdirmək üçün daha nəyin zəruri olduğunu müzakirə edin;
- Dinləyicilərdən onların özləri tərəfindən tədris həyata keçirilən zaman hansı çətinliklə qarşılaşa biləcəklərini müəyyən edin;
- Tədrisin pilləli şəkildə aparılmasında iştirak edəcək digər şəxslərin də vəzifələrini dəqiq müəyyən edin.
- İştirakçılardan xahiş edin ki, istər hər tədris günü, istərsə də dərslərin sonunda məşğələlərə qiymət versinlər.
- Əldə edilən nəticələri möhkəmləndirmək üçün nə etmək lazım gəldiyi barədə düşünün və iştirakçıların əlavə tədrisə ehtiyacının olub olmadığını müəyyən edin.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


- Azərbaycan Respublikasının ilkin və ikinci dövri hesabatları üzrə BMT-nin İnsan Hüquqları Komitəsinin yekun qeydləri və tövsiyələri. BMT-nin İnsan Hüquqları üzrə Komissarlığının nəşri, Bakı 2008
- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Qanun nəşriyyatı, Bakı 2008
- Azərbaycan Respublikasının Konstitusiyası. «Hüquq ədəbiyyatı» nəşriyyatı, Bakı 2009
- Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Qanun nəşriyyatı, Bakı 2008
- Azərbaycan: Qanunla Ziddiyyətdə Olan Uşaqların Durumu. UNİCEF, Bakı 2006
- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Qanun nəşriyyatı, Bakı 2009
- Süleymanova E.T.Azərbaycan Respublikasında Ombudsman Təsisatı və İnsan Hüquqlarının İnkişafı. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) nəşrləri. BDU, Bakı 2007
- BMT-nin «Uşaq Hüquqları haqqında» Konvensiyasının 44–cü maddəsinin 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikasının ikinci və üçüncü Dövrü Məruzəsi (Bu məruzə Azərbaycan hökuməti tərəfindən ilkin məruzə təqdim edildikdən sonrakı, 1996-cı ildən 2003-cü ilədək olan dövrü əhatə edir);
- Süleymanova E.T, Rumzadə R.F, Uşaq Hüquqları Hamı Üçün. Bakı 2009
- Süleymanova E.T, Rumzadə R.F, Uşaq Hüquqları üzrə Pilləli Tədrislə Bağlı Seçilmiş Mövzular. Dərs vəsaiti, Bakı 2009
- Rumzadə R.F. //Həmmüəlliflər: Quliyev N, Mahmudov M//. İnsan alverinə qarşı mübarizə: qanunvericilik və təcrübə. Bakı 2007
- Səfixanlı A.M., Əliyev Z.H, Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) nəşri. Bakı 2003
- *Uşaq Hüquqları üzrə Konvensiyanın icra olunması üçün stolüstü kitab,* tam yenilənmiş 2-ci nəşr (BMT-nin Uşaq Hüquqları üzrə Komitəsinin yurispridensiyasının detallı təhlilini də ehtiva edir): UNİCEF, 2002.
- Hart, Stuart, *Fiziki cəzalandırmanın ləğv edilməsi – konstruktiv uşaq intizamına doğru yol.* UNESCO, Fransa, 2005.

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında**

## Qəbul Günləri:

| | |
|---|---|
| **Bazar ertəsi:** | **10:00 - 13:00** |
| **Çərşənbə axşamı:** | **14:00 - 17:00** |
| **Cümə Axşamı:** | **10:00 – 13:00** |
| **Cümə:** | **14:00 - 17:00** |

**Ünvan:** Bakı şəhəri, Ü. Hacıbəyov küçəsi 40, Hökumət evi, II qapı

**Əlavə məlumat üçün telefonlar:**

Tel: (+99412) 498-23-65, 493-74-22
Faks: (+99412) 498-23-65
e-mail: ombudsman@ombudsman.gov.az

## Ombudsmanın regional mərkəzləri:

**Gəncə regional mərkəzi:** Gəncə şəhəri, H. Əliyev meydanı, inzibati bina 48, tel/faks: (022) 56-05-65

**Şəki regional mərkəzi:** Şəki şəhəri, M.Rəsulzadə prospekti 139 [a], tel/faks: (0177) 4-01-33

**Cəlilabad regional mərkəzi:** Cəlilabad şəhəri, H. Əliyev prospekti 151, tel/faks: (0114) 3-25-99

**Quba regional mərkəzi:** Quba şəhəri, H. Əliyev prospekti 165, tel/faks: (0169) 5-15-99

***

**Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Aparatı**: Naxçıvan şəhəri, Atatürk [illegible] tel/faks: (0136) 45-29-46

- Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları üzrə Komitəsi, Ümumi Şərh N8, 2006, www.ohchr.prg/english/bodies/crc/comments.htm
- Uşaqların fiziki cəzalandırılmasının ləğv edilməsi: *Suallar və cavablar, Avropa Şurasının nəşri, Bakı 2008*
- İnsan Hüquqları və Onların Tədrisi. Ümidli Gələcək Gənclər Təşkilatı, Bakı 2002
- İnsan Hüquqları: Suallar və Cavablar. UNESCO-nun nəşri,. Azərnəşr, Bakı 1999
- KOMPAS: Gənclərin iştirakı və insan hüquqlarının tədrisinə dair vəsait. Gənclərin İnkişafı İctimai Birliyi, Bakı 2006
- Səfixanlı A.M, Hüquqi dövlət quruculuğunda Ombudsmanın rolu. Qanun Jurnalı 2003, №7
- Süleymanova E.T, Quliyeva S. «Sülh Mədəniyyəti Gender Perspektivindən» Betti A. Reardonun müəllifi olduğu vəsaitin Azərbaycan dilinə tərcüməsi. Azərbaycan Qadın və İnkişaf Mərkəzi. Bakı 2003
- Dündar Erol, *Maksat Denetimi*, İdare hukuku ve idari yargı ile ilgili incelemeler, "Danıştay Yayınları", Ankara, 1976
- Права человека в международном и внутригосударственном праве. Учебник для вузов. Отв. ред. Р.М.Валеев. Казань: Казанский Государственный Университет имени В.И.Ульянова-Ленина, 2004, 198 с.
- Международное публичное право. Сборник документов. В 2 ч. Ч. I . Сост. К.А. Бекяшева, Д.К. Бекяшев. М.: ТК Велби. Проспект, 2006, 1408 с.; Ч. II . М.: ТК Велби, Проспект, 2006, 561 с.
- Алиев З.Г, «Институт Омбудсмана в Азербайджанской Республике», Московский журнал международного права №4 (60), 2005;
- David P.Forsythe, Human Rights in International Relations, Cambridge University Press, 2005.
- ...ication of the International Labor Organization. Module 2. «Rights in ...tional Labour Organization (ILO), Geneva, 1998.

...hild Participation in the UN SG's Study on Violence

...he Spotlight at Caribbean Meeting ...rg/2012/05/violence-against-

...national Labor

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

**Uşaq hüquq pozuntusu ilə bağlı məlumatı təcili Ombudsmana ötür!**
***24 saat*** ərzində fəaliyyət göstərən **«Qaynar xətt»**
**Şəhər nömrələrindən «916»,**
**rayon və mobil operatorlardan (012) 916**

***

**Azərbaycan Respublikası**
**Daxili İşlər Nazirliyinin**

24 saat fəaliyyət göstərən «Qaynar xətti»
«*102 xidməti* »

**İnsan Alverinə Qarşı Mübarizə İdarəsi**

İnsan alverinin qarşısının alınması və qurbanlara kömək məqsədi ilə 24 saat fəaliyyət göstərən
**"Qaynar xətt"** xidməti **"152"** **və** **"012-562-21-12"**

## Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi

**Uşaq və gəncləri özündə birləşdirən, onlarda liderlik bacarıqlarını formalaşdıran könüllü birlik**

Hər tədris ilinin başlanğıcında uşaq və gənclər müraciət edərək "Liderlik məktəbi"nin dinləyicisi ola bilərlər. Hər həftənin bazar günü keçirilən məşğələlərdə ardıcıl iştirakınızla Siz Lider uşaqlardan biri olacaqsınız.

Bununla da Siz Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi nəzdində rəqs, rəsm və əl işləri üzrə dərnəklərə, xarici dil bacarıqlarını inkişafına yönəlmiş kurslara üzv olmaq, öz dünya görüşlərinizi, bilik dairələrinizi daha da genişləndirmək, asudə vaxtlarınızı və yay istirahətinizi səmərəli keçirmək məqsədilə davamlı təşkil olunan ekskursiyalarda və düşərgələrdə iştirak etmək imkanına yiyələnirsiniz.

Uşaq və gənclərin bacarıqları onlara Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin üzvü kimi yerli və xarici ölkələrdə keçirilən treninq, seminar və konfranslarda iştirak etmək, öz həmyaşıdlarını təmsil etmək imkanını verir.

**Tel/faks: (012) 492-99-02**
**Mob: (+99450) 275-18-95**
**E-mail: office@peacenetwork.az**
**Web: www.peacenetwork.az**

Children's Rights Legal Clinic

Uşaq Hüquqları Klinikası

**Uşaq hüquqlarına dair pulsuz hüquqi məsləhət vermək və uşaqlara hüquqi yardım göstərmək məqsədilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı ilə əməkdaşlıqda təsis etdiyi**

**«UŞAQ HÜQUQLARI KLİNİKASI»**

**Tel: (012) 480-22-31**
**Mob: (050) 480-22-31**

# MÜNDƏRİCAT


ÖN SÖZ ..... 5

Uşaq hüquqlarının Pilləli tədrisi üzrə mövzular ..... 9

**I Fəsil: İnsan hüquqları və onun tərkib hissəsi kimi uşaq hüquqlarının anlayışı və mahiyyəti ..... 10**

*Mövzu 1: İnsan hüquqları nədir? ..... 10*

*Mövzu 2: Uşaq hüquqları: anlayışı və yaranması ..... 14*

*Mövzu 3: Uşaq kimdir? ..... 19*

*Mövzu 4: Uşaqlara məxsus hüquqlar ..... 23*

*Mövzu 5: Uşaq Hüquqları Konvensiyası ..... 30*

*Mövzu 6: Uşağın vəzifələri ..... 55*

*Mövzu 7: Uşaqlara qarşı zorakılıq anlayışı və onunla mübarizə ..... 58*

**II Fəsil: Uşaq hüquqlarını kim qoruyur? ..... 63**

*Mövzu 1: Ombudsman pozulmuş hüquqları bərpa edir ..... 63*

*Mövzu 2: Uşaq hüquqlarını müdafiə edən dövlət orqanlar ..... 71*

*Mövzu 3: Uşaq hüquqların təbliği və müdafiəsi sahəsində fəaliyyət göstərən Qeyri Hökumət Təşkilatları ..... 79*

*Mövzu 4: İnsan hüquqlarının və onun tərkib hissəsi kimi uşaq hüquqlarının beynəlxalq müdafiə mexanizmləri ..... 83*

**III Fəsil: Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi və insan alverinə qarşı mübarizə ..... 85**

*Mövzu 1: Qanunla ziddiyyətdə olan uşaqlar və onların ədalət mühakiməsi ..85*

*Mövzu 2 : İnsan alverinə qarşı mübarizə ..... 95*

**IV Fəsil: BMT-nin Uşaq Hüquqları Konvensiyası və Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanununda əks olunmuş hüquqların müzakirəsini nəzərdə tutan hüquqi hekayələr** ..... 103

Hüquqlarla bağlı nəzəri biliklərin artırılması və bacarıqlara yiyələnmə məqsədini daşıyan oyunlar ..... 115

Uşaq hüquqlarının müzakirəsini nəzərdə tutan mövzular ..... 123

Hüquqların müzakirəsini nəzərdə tutan çalışmalar ..... 138

Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu ..... 175

Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası ..... 189

Uşaqlara qarşı baş vermiş zorakılıq hallarının araşdırılması üsulları ..... 208

Effektiv tədris üçün qaydalar ..... 212

İstifadə olunmuş ədəbiyyatın siyahısı ..... 216

# ƏZİZ DOST,
# QEYDLƏRİNİ YAZ!

# UŞAQ HÜQUQLARININ PİLLƏLİ TƏDRİSİ ÜZRƏ SEÇİLMİŞ MÖVZULAR

*(azərbaycan dilində)*

**Bakı-Qismət-2013**

**- Dərs vəsaiti –**

**Qiyməti: Pulsuzdur**


Çapa imzalanmışdır: 15.01.2013.
Kağız Formatı 60x90 1/16. Həcmi: 14.0 ç.v.
Sifariş №:185. Sayı: 2000 ədəd.

**"Qismət"** mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.

*Azərbaycan, Bakı, AZ1122, H.Zərdabi pr. 78*
*Tel: (+994 12) 497 57 61, Faks: (+994 12) 497 70 23*
*E-mail: qismetaz@yahoo.com*